RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 171 (9050) ŞƏNBƏ, 13 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Qobustanda "Diri Baba" türbəsində yenidənqurma işləri aparılır



2

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda hotelin açılışında olublar



2

## "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanışlıq



3



# Bölgələrdə aparılan bütün quruculuq işlərinə Prezident şəxsən özü nəzarət edir

2-4

## Prezident İlham Əliyev Ağsuda Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib



3

## Ağsuda Gənc Sənətkarlar Mərkəzi və Dövlət Rəmzləri Muzeyi açılıb



3

## Prezident İlham Əliyev "Ağsu Aqropark"ın fəaliyyəti ilə maraqlanıb



4

## Bizi heç kim və heç nə dayandıra bilməz

### İlham Əliyev: "Bu gün Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesində Qarabağ mövzusu yoxdur"



**İLHAM ƏLİYEV:**

■ Azad edilmiş ərazilərdə həm kənd təsərrüfatı, həm maldarlıq, həm bitkiçilik üçün çox münbit iqlim və təbii şərait var. Biz, əlbəttə ki, maksimum dərəcədə bundan səmərəli şəkildə istifadə etməliyik. Kənd təsərrüfatının müasir planlı şəkildə ixtisaslaşma əsasında təşkili bizə imkan verəcək ki, oraya qayıdacaq insanlar əkin-biçinlə məşğul olmaqla öz güzəranını özləri təmin edəcəklər, yaxşı vəsait əldə edəcəklər, eyni zamanda ölkəmizin ərzaqla təminatı və ixrac imkanları böyük dərəcədə artacaq.

■ Hər kəs gördü və görməlidir ki, şəhidimizin qanı yerdə qalmadı. Biz dərhal "Qisas" əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq. Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatı cəza tədbiri idi. Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq və heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz.

■ İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi və biz istədiyimizə hərbi və ondan sonra hərbi-siyasi yollarla nail olduq. Digər arzularımıza da çatacağıq, zaman gələndə onlara da çatacağıq. Bizim gündəliyimizdə həm taktiki, həm strateji addımlarımızın təsbit edilməsi reallıqdır. Əminəm, Ermənistan da bilir ki, biz bilirik nəyi nə vaxt etmək lazımdır və nəyi deyiriksə, onu da edirik.

■ Dəfələrlə Ermənistana xəbərdarlıq etmişdik ki, odla oynamasınlar, özlərini yaxşı aparsınlar, yeni reallıqları qəbul etsinlər və hərbi təxribatlara əl atmasınlar. Əfsuslar olsun ki, bu dəfə də onlara dərs verməli olduq. Ümid edirəm ki, bu dəfə bu dərs onların yaddaşında qalacaqdır.

■ Biz dedik, onda biz avqustun 5-də Laçın dəhlizinə giririk, postlar qururuq və baxarıq sonra siz necə hərəkət edəcəksiniz. Ondan sonra aləm dəydi bir-birinə və Qarabağda yaşayan ermənilər bizə müraciət etdilər, xahiş etdilər. Dəfələrlə xahiş etmişdilər ki, onlara avqustun sonuna vaxt verilsin. Biz də buna razı olduq.

■ Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış insanlar çıxarılmalıdır. Bu, təbiidir. Onların orada qalması, əslində, hərbi cinayətdir.

■ Biz Laçına qayıtmalıyıq, Zabuxa, Susa qayıtmalıyıq. Mən Dövlət Qaçqınkoma göstəriş verdim, Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı ilə əlaqə saxlasınlar və biz onları yaxın zamanlarda öz doğma yerlərinə qaytaracağıq.

■ Ermənistan hakimiyyəti Qarabağda yaşayan ermənilərə öz təsir imkanlarını itirirlər. Bu, həqiqətdir. Əksinə, Azərbaycan hakimiyyəti öz təsir imkanlarını artırır. Bu, reallıqdır. Bunun səbəbi, məncə, ondan ibarətdir ki, Qarabağda yaşayan ermənilər açıq-aydın gördülər ki, Ermənistan hakimiyyəti onların problemlərini həll etmək iqtidarında deyil - nə təhlükəsizlik, nə iqtisadi, nə maliyyə, nə başqa. Heç bir problemi həll etmək iqtidarında deyil. Əksinə, gördü ki, Azərbaycan hakimiyyəti onlara öz vətəndaşları kimi yanaşır. Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Nə qədər onlar bunu tez dərk etsələr və bu proses artıq başlayır, o qədər də hamımız üçün yaxşı olar.

■ Bu gün Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesində Qarabağ mövzusu yoxdur. Belə cəhdlər olub, amma mən buna heç vaxt razılıq verməmişəm. Ermənistanın buna nə dəxli var. Bu, bizim daxili işimizdir. Bu gün danışıqlar masasında hər hansı bir statusdan, ümumiyyətlə, söhbət belə getmir.

■ Qarabağda yaşayan ermənilər düzgün addım atmalıdırlar, başa düşməlidirlər ki, onların gələcəyi ancaq Azərbaycan cəmiyyətinə inteqrasiyadan keçir. Başqa cür mümkün deyil. Yəni, biz real həyatda yaşayırıq. Həm iqtisadi, həm coğrafi, həm nəqliyyat nöqteyi-nəzərdən Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarix nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən tərkib hissəsidir.

■ İkinci Qarabağ müharibəsindən təxminən iki il keçir, amma görün bu iki il ərzində nə qədər böyük dəyişikliklər baş verib. Mən hələ orada apardığımız bərpa, yenidənqurma işlərini kənara qoyuram, bunlar hamısı göz qabağındadır. Şüurda nə qədər dəyişikliklər baş verir. Nəyə görə? Düzgün siyasətimizə görə.



## 7 körpü, tunel, 30 yeraltı keçid

9




## İslamiadada qələbə estafeti - Azərbaycanın 33 medalı

11

# Bölgələrdə aparılan bütün quruculuq işlərinə Prezident şəxsən özü nəzarət edir

## Qobustanda "Diri Baba" türbəsində yenidənqurma işləri aparılır







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 12-də Qobustan rayonunda "Diri Baba" türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlət başçısı və birinci xanıma türbədə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Bakı-Şamaxı magistral yolunun 1,5 kilometrliyində yerləşən, 1402-ci ildə Şirvanşah hökmdarı I İbrahimin əmri ilə tikilən "Diri Baba" türbəsi dövlət mühafizəsinə götürülmüş ölkə əhəmiyyətli memarlıq abidəsidir. Sufi şeyxlərindən birinin şərəfinə tikilən türbənin bir hissəsi qaya içərisində yerləşdiyindən Qafqazın ən nadir abidələrindən hesab olunur. İkimərtəbəli türbə, yaxınlığında yerləşən süni şəkildə yaradılmış bir neçə mağara və kaha, həmçinin üzbəüz orta əsrlərə aid qəbiristanlıq və qədim türbə qalıqları birlikdə vahid bir kompleks əmələ gətirir.

Türbə Azərbaycanın şimal-qərb turizm dəhlizində birinci vacib dayanacaq kimi, il ərzində xeyli sayda turist qəbul edir. Ərazidə turizm imkanlarının yaradılması yerli kiçik sahibkarlığın və icma əsaslı turizm dəyər zəncirinin formalaşmasına, bölgənin digər turizm əhəmiyyətli abidələrinin turizm potensialından istifadəyə və regional turizm klastrının yaranmasına töhfə verəcək.

Məlumat verildi ki, abidənin tarixi-mədəni əhəmiyyəti ilə yanaşı, turizm potensialı qiymətləndirilərək, həmçinin antropogen və təbii amillərin təsiri ilə deqradasiyaya uğramasının qarşısını almaq məqsədilə Dövlət Turizm Agentliyi tərəfindən burada bir sıra infrastruktur və bərpa işləri aparılıb.

Ərazidə bulaq, qurbangah və söhbətgah tikilib, meydan döşəməsi yenilənib, türbəyə qalxan pilləkənlər yenidən üzlənib, ərazi abadlaşdırılaraq oturacaqlar quraşdırılıb. Eyni zamanda türbədə gecə işıqlandırılması təmin edilib, kommunikasiya xətləri qurulub və yenilənib. Bununla bərabər, sel sularını axıdan kanal bərpa olunub, türbə kompleksinin ətrafı çəpərlənib, həmçinin 20 yerlik avtodayanacaq tikilib.



Diqqətə çatdırıldı ki, XV əsrə aid və abidənin ayrılmaz tərkib hissəsi olan tarixi qəbiristanlığın ərazisində 40 qəbir tədqiq edilib və annotasiyası hazırlanıb. Qəbiristanlığın ərazisi abadlaşdırılıb, burada şeyxlərdən birinin türbəsi aşkar edilərək arxeoloji işlər aparılıb. Abidənin ətrafındakı 8 mağara tədqiq olunub, onlardan bir neçəsi turistlərin ziyarət edə bilməsi üçün təmizlənərək hazır vəziyyətə gətirilib. Bu abidənin daş kitabəsi tədqiq edilərək rəqəmsal surəti çıxarılıb.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda hotelin açılışında olublar








Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 12-də İsmayıllı rayonunda "Basqal Resort & Spa" hotelinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına və birinci xanıma hoteldə görülən işlər barədə məlumat verdi. Bildirildi ki, dağlıq ərazidə yerləşən və səfalı meşələrlə əhatə olunan "Basqal Resort & Spa" hoteli 179 otaq və lüks nömrələrdən, üçotaqlı 4 kottecdən və isidilən açıq hovuzlu 1 kottecdən ibarətdir.





Qonaqlar dünya mətbəxinin və milli mətbəximizin təamlarını təqdim edən müasir və möhtəşəm "SƏDƏF" restoranının yeməklərindən həzz alıb, dağlara və mənzərəli guşələrə açılan "MÜCRÜ LOBBY LOUNGE"da zərif və ənənəvi Azərbaycan çayından içərək dincələ bilərlər. Həmçinin "VİTAMİN BAR"da sərin hovuz ətrafında əylənərək və qəlyanaltılardan dadaraq gününü mənalı keçirəcək, meşələrlə əhatələnmiş "PALID CAFE"nin xoş mühitli söhbətgahlarında ailə və dostlarla gözəl anlar yaşayacaq və ya "RAST"ın bənzərsiz atmosferində heyrətamiz mənzərələrdən və qeyri-adi mətbəxdən zövq alacaqlar. Qeyd edilib ki, "KIDS CLUB" hər yaşda əyləncə axtaran uşaqlar üçün qapalı məkanda və açıq havada oyun meydançaları olan ideal yerdir. Burada peşəkar animasiya komandası gün ərzində uşaqların asudə vaxtının səmərəli və əyləncəli keçirilməsini təmin edəcək. "LİMON CAFE"də balaca qonaqlara müxtəlif ləzzətli təamlar təklif olunacaq. "ECAZ" zalı bol çeşidli açıq bufetdə şirniyyatlar, yerli və dünya mətbəxinin isti yeməklərini təklif edən dəbdəbəli restoran, həmçinin toy, təntənəli günlərin keçirilməsi üçün 500-ə qədər qonağı rahatlıqla qəbul edə biləcək möhtəşəm məkandır. Hotelin qonaqları "HAZE Club & Karaoke Lounge"da peşəkar barmenlərin hazırladığı məşhur kokteyllərdən və ləzzətli qəlyanaltılardan dada bilərlər.

Diqqətə çatdırılıb ki, "NİYAL SPA" geniş sahədə yerləşən 4 prosedur otağı, masaj otağı, 2 türk hamamı, 2 fin saunası, 2 buxar otağı, istirahət zonası və yay terrası ilə qapalı üzmə hovuzu təklif edir.

"Basqal Resort & Spa"nın 120 nəfərlik "Hələbi" və "Heyrati" konfrans zallarında biznes konfrans, seminar və tədbir keçirmək üçün hər cür şərait yaradılıb.

Həmçinin açıq havada tədbirlərin keçirilməsi üçün burada geniş imkanlar mövcuddur. Bildirilib ki, hotelə gələn qonaqlar İsmayıllı rayonunun ərazisində çoxsaylı gəzinti, yürüş və velosiped cığırlarından yararlana bilərlər. "Basqal Resort & Spa" təbiətin qoynunda istirahət və əyləncə dolu yeni məkandır.

# Bölgələrdə aparılan bütün quruculuq işlərinə Prezident şəxsən özü nəzarət edir

## "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanışlıq









**Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunda "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şeyx Məhəmməd məscidinin içərisində, Bazar meydanında, Qalabaşı ərazisində aparılan fundamental arxeoloji tədqiqatlar nəticəsində tarixi Basqal qalasının divarlarının yeri aşkar edilib, XVII əsrə aid edilən tarixi hamamın ətrafında Azərbaycanın ən qədim kanalizasiya sistemlərindən biri hesab olunan kürəbənd sisteminin işləmə prinsipi aşkara çıxarılıb. Şeyx Məhəmməd məscidinin dəqiq yaşı tam şəkildə təyin edilərək mədəni qatları haqqında ilk dəfə tədqiqat işləri aparılıb, çoxsaylı maddi-mədəniyyət nümunələri tapılaraq tədqiq edilib və qoruğun muzey fonduna təhvil verilib.

Qeyd edildi ki, etnoqrafik və elmi-tarixi araşdırmalar nəticəsində Basqalın tarixi dərindən araşdırılaraq qoruğun elmi-inventar fondu hazırlanıb, əski əlifba ilə yazılmış dini, elmi və sosial həyatla bağlı minlərlə qiymətli əlyazma mətni aşkar edilərək fonda təhvil verilib. Basqal və ətraf ərazilərin tarixi və mədəni irsi ilə birbaşa bağlı olan qeyri-maddi mədəni irs nümunələri toplanıb, qədim divarüstü yazılar, daş qəbirlər, müxtəlif kitabələr dərindən tədqiq edilib və dövlət mühafizəsinə götürülüb. Basqalda yaşayan əhalinin son iki yüz il ərzində məşğuliyyəti, sənətkarlıq nümunələrinin tarixi təkamülü üzə çıxarılıb, elmi-publisistika və mədəni turizm sahələrində istifadə ediləcək çoxsaylı tarixi materiallar əldə olunub. Basqalın mədəni irsinin əsas elementi olan kəlağayı naxışları toplanıb, inventarlaşdırılıb və nəşr edilib.

Həmçinin qoruğun ərazisində başladılan təmir-bərpa, konservasiya və yenidənqurma işlərinin elmi-nəzəri bazasını formalaşdırmaq, gələcəkdə aparılacaq tikinti və bərpa işlərinin mədəni irsin və yerli memarlıq ənənələrinin tələblərinə uyğun şəkildə həyata keçirilməsini təmin etmək üçün müvafiq normaların müəyyənləşdirildiyi "Basqal Mədəni İrsi: Təmir-bərpa kitabı" elmi-praktiki dərslik ərsəyə gətirilib.



Diqqətə çatdırıldı ki, Dövlət Turizm Agentliyi tərəfindən tarixən Basqalın mərkəzi hesab olunan orta əsrlər yol mədəniyyətinə xas olan pilləkənvari və daş döşəməli yolların, ənənəvi hasarların və qədim taxta qapı-darvazaların qorunub saxlanıldığı 8 tarixi məhəllənin birləşdiyi Bazar meydanının abadlaşdırılmasına xüsusi diqqət yetirilib.

Məlumat verildi ki, qoruğun mühüm tarixi abidələrindən biri hesab olunan Basqal hamamı maddi-mədəniyyət nümunələrimizin qorunması məqsədilə dövlət nəzarətinə götürülüb, Bazar meydanında Hamam Muzeyi olaraq əsaslı şəkildə bərpa edilib. Muzeydə Azərbaycanda hamam mədəniyyətinin özəllikləri, inkişafı haqqında, eləcə də hamamla bağlı xalq adət və ənənələri, onun külxana adlanan döşəməaltı istilik sistemi haqqında maraqlı məlumatlar təqdim olunur.

Aparılan tədqiqatlar nəticəsində 1854-cü ildə tikilən tarixi-memarlıq abidələrindən biri olan Hacı Bədəl məscidi, nəhəng gövdəsi və iri koğuşu ilə seçilən, dünyada əkilmə tarixi dəqiq bilinən yeganə ağac, 1563-cü ilə aid edilən və keçmişdə Basqal camaatı tərəfindən "Pir Çinar" adlandırılaraq müqəddəs hesab edilən çinar ağacı, XV əsrə aid olunan, 2020-ci ildə arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılıb tarixi üslubda yenidən təmir edilmiş "Pir çinar bulağı" və onlarla digər tarixi abidələr haqqında müfəssəl məlumatlar əldə edilib.

Bundan əlavə, 7 sənətkar emalatxanası təmir olunub, magistral yoldan qoruğa qədər olan yol yenidən qurulub. Qoruq ərazisində 2 küçədə qaz xətləri yerin altına salınıb, ərazidə olan rabitə xətləri yenilənib. Həmçinin Basqal qəsəbəsinin elektrik təchizatı sisteminin yenidən qurulması işləri aparılıb, su və kanalizasiya şəbəkəsinin bərpası üzrə işlər başa çatdırılıb. Bazar meydanı ərazisində köhnə yarımçıq tikililər sökülüb, qəsəbənin girişində avtomobil dayanacağı, turizm məlumat mərkəzi tikilib. Ərazidə abadlıq işləri aparılaraq yol və səkilər düzəldilib, Bazar meydanında qoruq üçün inzibati bina inşa olunub. Küçələr boyunca divarlar, döşəmələr, qapı və darvazalar bərpa edilərək tarixi mühitə uyğunlaşdırılıb və işıqlandırma işləri görülüb.

Qeyd edək ki, İsmayıllı rayonunun Basqal qəsəbəsi Bakıdan 160 kilometr məsafədə, dəniz səviyyəsindən 965 metr yüksəklikdə 240 hektarlıq ərazidə yerləşir. Bu ərazinin 50 hektarı 1989-cu ildə yaradılan "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğuna aiddir. Statistik məlumatlara görə, hazırda qəsəbədə rəsmi olaraq 1480 nəfər qeydiyyatdadır. Onlardan təxminən 600 nəfəri qoruq ərazisində yaşayır.

Basqal qəsəbəsi nadir memarlığı, qədim ipəkçilik, dəmirçilik kimi xalq sənətkarlıq ənənələri və orta əsr şəhərsalma mədəniyyəti ilə Azərbaycanın mədəniyyət tarixində xüsusi əhəmiyyətə malikdir. Basqal tarixən Lahıc, Şəki, Qəbələ və Şamaxıdan gələn yolların kəsişməsində yerləşərək qovşaq funksiyasını, sosial-iqtisadi və ticarət mərkəzi rolunu oynayıb.

Dövlət başçısı və birinci xanım buradakı emalatxanada kəlağayı ustası ilə söhbət etdilər.

**Mehriban xanım ƏLİYEVA:** Salam, xoş gördük.

**Prezident İlham ƏLİYEV:** Salam.

**Usta:** Salam. Xoş gəlmisiniz. Allah Sizi var eləsin. Mən Sizinlə fəxr edirəm ki, Sizin sayənizdə Azərbaycan xalqı qalib gəldi.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. İşləriniz necə gedir?

**Usta:** Yaxşıdır, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Müştəri çoxdur?

**Usta:** Bəli, olur. Çox sağ olun. Allah Sizi var eləsin.

**Fuad NAĞIYEV:** Cənab Prezident, turistlər yavaş-yavaş gəlməyə başlayıblar.

**Usta:** Mehriban xanım, bu, bizim naxışımızdır, biz buna "Basqalı" naxışı deyirik. İstəyirsinizsə, əyləşin, bir naxış da siz vurun.

Birinci xanım Mehriban Əliyeva kəlağayıya naxış vurdu.

**Usta:** Mehriban xanım, bu, qədim təsvirləri olan kəlağayıdır. Biz buna "Heratı" deyirik. Naxışları təmiz Azərbaycan naxışlarıdır. Bu naxışların ən azı 300-400 illik tarixi var. Bunu bu alətlə işləmişəm. O dövrdə ustalar bunu necə gözəl yonublar. Azərbaycan sənətkarlar yurdudur. Bu da onun bir nümunəsidir.

## Prezident İlham Əliyev Ağsuda Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib




**Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin Ağsu şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib.**
**AZƏRTAC xəbər verir ki, dövlət başçısı abidənin önünə gül dəstəsi qoyub.**

## Ağsuda Gənc Sənətkarlar Mərkəzi və Dövlət Rəmzləri Muzeyi açılıb





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Ağsu şəhərindəki Bayraq meydanında Gənc Sənətkarlar Mərkəzinin və Dövlət Rəmzləri Muzeyinin açılışında iştirak edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevə əvvəlcə Gənc Sənətkarlar Mərkəzində yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, mərkəzin inşasına 2017-ci ilin dekabrında başlanılıb. Tikinti işləri cari ilin yanvarında başa çatdırılıb. Mərkəzin binası 36 yerlik akt zalı, məşq səhnəsi, teatr dərnəyi, rəsm, heykəltəraş, foto, dərzi otaqları, moda nümayişi podiumu, inzibati və yardımçı otaqlardan ibarətdir. Bina müasir avadanlıq, videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri ilə təchiz edilib.

Sonra Prezident İlham Əliyev Dövlət Rəmzləri Muzeyi ilə tanış oldu.

Məlumat verildi ki, muzeyin inşasına 2017-ci ilin dekabrında başlanılıb. Tikinti işləri cari ilin yanvarında başa çatdırılıb. Muzey binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Sərgi zalında ümumilikdə 16 bölmə yaradılıb. Burada Azərbaycan xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manikenlər, həmin dövrdə xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş konstitusiyalar, gerblər, bayraqlar, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin geyim formaları, Ümummilli Lider Heydər Əliyevin andiçmə mərasiminə dair fotoşəkillər, dövlət rəmzləri haqqında kəlamları, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə, Bayraq meydanlarının açılışı mərasimlərinə dair fotoşəkillər, poçt markaları, orden və medallar nümayiş olunur.

Dövlət Rəmzləri Muzeyinin yerləşdiyi ərazidə 1,27 hektar sahədə Bayraq Meydanı yaradılıb. Burada hündürlüyü 65 metr olan Dövlət Bayrağı ucaldılıb, ətrafında fəvvarə kompleksi inşa edilib.

# Bölgələrdə aparılan bütün quruculuq işlərinə Prezident şəxsən özü nəzarət edir

## Prezident İlham Əliyev "Ağsu Aqropark"ın fəaliyyəti ilə maraqlanıb











Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Ağsu rayonunda "Ağsu Aqropark" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə tanış olub. AZƏRTAC xəbər verir ki, "Ağsu Aqropark" QSC-nin baş direktoru Atababa İsayev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 2018-ci ildən heyvandarlıq və əkinçilik sahəsi üzrə fəaliyyətə başlayan "Ağsu Aqropark"ın ümumi ərazisi 1843 hektar olmaqla layihə dəyəri 18 milyon manatdır. Aqroparkın tikintialtı sahəsi 10 hektar təşkil edir. Yerli mütəxəssislərə önəm verən qapalı səhmdar cəmiyyəti əhalinin məşğulluğunun təmin edilməsini mühüm bir vəzifə kimi öz üzərinə götürüb. Hazırda burada 200-ə yaxın daimi işçi çalışır, mövsümdən asılı olaraq 240-250 nəfər işlə təmin edilir.

Qeyd edildi ki, müəssisənin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb, ümumilikdə 34 kilometr uzunluğunda yeni yol çəkilib, mövcud yollar yenidən qurulub. Aqroparkın elektrik enerjisi ilə təmin edilməsi məqsədilə Ərəbmehdibəy kəndi ərazisində 1 elektrik stansiyası, 2 ədəd 630 kilovoltluq, 1 ədəd 100 kilovoltluq, 1 ədəd 35 kilovoltluq, ümumilikdə isə 7 ədəd transformator məntəqəsi quraşdırılıb. Bununla yanaşı, 45,4 kilometrlik elektrik xətti çəkilib, rabitə, SİP kabelləri yenilənib, işıqlandırma işləri görülüb. Həmçinin Girdimançay üzərində müasir körpü tikilərək istifadəyə verilib, müəssisənin qazla təmin olunması məqsədilə 33 kilometr uzunluğunda qaz xətti çəkilib.

Aqroparkın əsas fəaliyyət istiqamətlərindən biri heyvandarlıqdır. Burada ümumilikdə 2200 baş iribuynuzlu südlük və ətlik heyvan bəslənilir. İl ərzində müəssisədə 4 milyon litr süd istehsal olunur.

Diqqətə çatdırıldı ki, aqroparkın ərazisindəki torpağın münbitliyinin artırılması məqsədilə orqanik və mineral gübrələrdən istifadə edilir. Torpağın üst qatında lazer səviyyələndirmə texnikası ilə hamarlama işləri aparılıb, drenaj kanalları çəkilərək şoranlıq problemi həll edilib, nəticədə 1600 hektardan artıq torpaq sahəsi əkin üçün yararlı hala gətirilib. Həmin ərazidə yüksək məhsuldarlığı olan qarğıdalı, arpa, buğda, noxud, həmçinin yonca, vələmir kimi yem bitkiləri əkilib, ot örtüyü yaxşılaşdırılıb. Əkin sahələrinin suvarılması məqsədilə Yuxarı Şirvan kanalının suyunun səmərəli şəkildə istifadəsi təşkil olunub, uzunluğu 22 kilometr olan su xətti çəkilib, 5 nasosxana və 6 artezian quyusu istifadəyə verilib, 800 hektar sahədə yüksək standartlara cavab verən pivot suvarma sistemləri qurulub. Əkinçilikdə növbəlilik sistemi tətbiq edilir. Həmçinin toplanılan silosun saxlanılması məqsədilə ərazidə 16 min tonluq beton silos quyuları və 13 min 500 kubmetr taxılsaxlama anbarları tikilib. Aqroparkda saatda 5 ton yem istehsal edən, avadanlığı Türkiyədən gətirilən zavod istifadəyə verilib.

Məlumat verildi ki, müəssisənin ərazisində toxumçuluq təsərrüfatı da fəaliyyət göstərir. Toxumçuluq təsərrüfatı il ərzində 10 min ton toxum təmizləmək gücünə malikdir. Müəssisədə 38 traktor və kombayn, 133 digər kənd təsərrüfat texnikasından ibarət nəqliyyat-texnika parkı yaradılıb. "Ağsu Aqropark"ın məhsulları daxili bazarın tələbatının ödənilməsinə yönəldilir.

Qeyd edək ki, son illərdə milli iqtisadiyyatımızın dayanıqlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan aqroparklar ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verir. Aqroparkların yaradılması aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində əhəmiyyətli rol oynayır.

Respublikamızın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb.

İndiyədək aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub. Bununla yanaşı, dövlət tərəfindən aqroparklara müvafiq dəstək tədbirləri görülüb. Belə ki, investisiya təşviqi sənədi almış 27 aqroparkdan 26-sına texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 43,7 milyon manat dəyərində güzəşt tətbiq olunub, 25 aqroparkın yaradılması və ya fəaliyyətinin genişləndirilməsi üçün 184,2 milyon manat güzəştli kredit verilib. Həmçinin aqroparklar üçün infrastruktur təminatı dövlət vəsaiti hesabına həyata keçirilir.

Aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Hazırda aqroparklarda ümumilikdə 4491 işçi daimi, 6303 işçi isə mövsümi işlə təmin olunub. Gələcəkdə əlavə 4672 iş yerinin yaradılması nəzərdə tutulur.

Artıq ölkədə 44 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə işləri aparılır. Bu aqroparklardan biri də Ağsu rayonunun Çiyni kəndində "Ağsu Aqropark" QSC tərəfindən yaradılmış aqroparkdır.

## Ağsu rayonunun Ağsu-Kürdəmir-Bəhrəmtəpə (19 km)-Ərəbmehdibəy-Dədəli-Qasımbəyli-Xəlilli-Mustafalı-Göydəlləkli-Təklə-Dəlilər-Qaraqoyunlu-Kəndoba avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Ağsu-Kürdəmir-Bəhrəmtəpə (19 km)-Ərəbmehdibəy-Dədəli-Qasımbəyli-Xəlilli-Mustafalı-Göydəlləkli-Təklə-Dəlilər-Qaraqoyunlu-Kəndoba avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 3,2 milyon (üç milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2022-ci il*

## A.Z.Nemətovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Azərpaşa Zəfər oğlu Nemətov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 avqust 2022-ci il*

## Yaponiyanın Baş naziri Azərbaycanın Baş nazirinə təşəkkür məktubu ünvanlayıb

Yaponiyanın Baş naziri Fumio Kişida ölkəsinin görkəmli dövlət xadimi, sabiq Baş nazir Şinzo Abenin ölümü ilə əlaqədar ona başsağlığı məktubu ünvanladığına görə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova təşəkkür edib.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, təşəkkür məktubunda F.Kişida cari ilin sentyabrında Azərbaycan-Yaponiya diplomatik əlaqələrinin qurulmasının 30 illiyinin qeyd olunacağını xüsusi vurğulayıb. İki ölkə arasında müxtəlif sahələrdə geniş əməkdaşlıq münasibətlərinin inkişaf edəcəyinə ümidvarlıq ifadə olunub.

Yaponiyanın Baş naziri bildirib ki, Azərbaycan ilə Yaponiya arasında dostluq münasibətlərini inkişaf etdirmək üçün çalışmış Ş.Abenin iradəsinin davamçısı olaraq, ikitərəfli əlaqələrin daha da möhkəmlənməsi istiqamətində səylərini əsirgəməyəcəkdir.

# Bizi heç kim və heç nə dayandıra bilməz

## İlham Əliyev: "Bu gün Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesində Qarabağ mövzusu yoxdur"

Avqustun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.



**- Cənab Prezident, ilk növbədə icazənizlə bugünkü səfərinizlə bağlı təəssüratlarınızı öyrənmək istərdik.**

- Mənim bölgələrə səfərlərim müntəzəm xarakter daşıyır, həm vəziyyətlə tanış olmaq, həm də əlavə göstərişlərin verilməsi üçün. Gedən işlərə, bildiyiniz kimi, özüm nəzarət edirəm və son illər ərzində bütün bölgələrdə quruculuq-abadlıq işləri daha geniş vüsət almışdır. Bu gün Ağsu, İsmayıllı rayonlarına səfərim çərçivəsində burada görülmüş və görüləcək işlər haqqında həm göstərişlər verilmişdir, eyni zamanda məruzələr edilmişdir.

Son illərdə hər iki rayonda böyük infrastruktur layihələri icra edilmişdir. Demək olar ki, infrastruktur layihələrinin əsas hissəsi başa çatmışdır. İstər qazlaşdırma, istər elektrik enerjisi, su təchizatı, yolların tikintisi ilə bağlı çox böyük layihələr icra edilmişdir. Təkcə onu demək kifayətdir ki, dağlıq rayon olmasına baxmayaraq, İsmayıllı rayonunda qazlaşdırma 80 faizdən çoxdur, Ağsu rayonunda 100 faizə yaxındır. Bu iki rayonda son illərdə 10-dan çox elektrik yarımstansiyası inşa olunmuşdur və elektriklə təchizat tam təmin edilib. Yolların çəkilişi ilə bağlı - həm kənd yollarında, eyni zamanda İsmayıllı-Muğanlı yolunun yeni hissəsində işlər icra edilir.

Sosial infrastrukturla bağlı böyük layihələr icra olunub. Hər iki şəhərdə - Ağsuda və İsmayıllıda 160 çarpayılıq xəstəxana tikilmişdir, 100-ə yaxın məktəb inşa edilmiş, ya da əsaslı şəkildə təmir olunmuşdur. İş yerlərinin yaradılması ilə bağlı böyük layihələr icra edilib. Bir sözlə, bu bölgənin gələcək inkişafı ilə bağlı çox güclü zəmin yaradılıb. Çünki bildiyiniz kimi, infrastruktur layihələri icra edilmədən inkişafdan söhbət gedə bilməz.

Bu gün isə yolüstü "Diri Baba" türbəsində gedən işlərlə tanış oldum. Bir müddət bundan əvvəl mənim tərəfimdən göstəriş verilmişdir ki, bu tarixi abidəmiz bərpa edilsin, həm konservasiya olunsun, həm də onun ətrafında turizm infrastrukturu yaradılsın. "Diri Baba" türbəsi öz nadirliyi ilə bütün Qafqaz bölgəsində seçilir. Yaşı 500 ildən çox olan bu türbə əsrlər boyu Azərbaycan xalqı tərəfindən müqəddəs yer kimi tanınıb. Əlbəttə, bizim borcumuzdur ki, bu qədim tarixi abidəni qoruyaq, ona yeni həyat verək, bərpa edək və onun ətrafında mövcud olan şərait də müasir standartlara cavab verməlidir.

Eyni zamanda Basqal qəsəbəsinin inkişafı, Basqalın tarixi irsinin qorunması ilə bağlı bir neçə il bundan əvvəl mənim tərəfimdən xüsusi sərəncam verilmişdir. Bu sərəncam əsasında Dövlət Turizm Agentliyi burada artıq bir müddətdir ki, işlər aparır. İşlərin təqribən 50 faizi başa çatıb və bu gün hər kəs bunu görə bilər. Basqal bizim qədim kəndlərimizdən biridir, özünəməxsus tarixə malik olan bir yerdir. Əlbəttə, mən çox istəyirdim ki, həm bu yerin tarixi siması qorunsun, eyni zamanda, burada yaşayan insanlar üçün daha yaxşı şərait yaradılsın, - bunu da biz təmin etdik, - iş yerlərinin yaradılması üçün yeni imkanlar açılsın. Əminəm ki, Basqal qəsəbəsi Lahıc qəsəbəsi kimi, bu bölgənin çox qədim tarixi yaşayış məkanı olaraq öz simasını bütün dünyaya açacaq. Yəni, həm Azərbaycan vətəndaşları, həm ölkəmizə olan qonaqlar, bildiyiniz kimi, indi Lahıca durmadan səfərlər edirlər. Əminəm ki, eyni aqibət Basqal qəsəbəsi üçün də olacaq. Bu məqsədlə bu tarixi yaşayış yerinin konservasiyası, bunun tarixi simasının qorunması xüsusi əhəmiyyət daşıyır.

Bu gün Basqal qəsəbəsinin girəcəyində yeni, 179 otaqlı müasir hotelin açılışı oldu. Bu hotelin açılışı, əlbəttə ki, bölgənin turizm potensialını böyük dərəcədə genişləndirəcək. Eyni zamanda İsmayıllı rayonunda bu obyektlərin yaradılması yüzlərlə iş yerinin açılması deməkdir. Təkcə Basqaldakı hoteldə 300-ə yaxın iş yeri açılır və orada işləyənlər də yerli vətəndaşlardır.

Bu gün eyni zamanda Ağsu rayonunda böyük aqroparkın fəaliyyəti də bölgə iqtisadiyyatına töhfə verir. Orada da 200-ə yaxın iş yeri açılıb.

Yeni iş yerlərinin açılması prosesi Azərbaycanda daim aparılmalıdır. Çünki bizim əhalimiz artır, iş yerlərinə tələbat artır. Dövlət öz tərəfindən həm dediyim layihələrin icrası nəticəsində, eyni zamanda özəl sektor üçün yaradılmış şərait nəticəsində yeni iş yerlərinin açılmasına böyük dəstək olur.

Əlbəttə ki, bu bölgənin həm turizm, həm kənd təsərrüfatı istiqamətləri bölgənin gələcək inkişafını təmin edəcək. Kənd təsərrüfatının inkişafı ilə bağlı əvvəlki illərdə qəbul edilmiş qərarlar öz bəhrəsini verir. Bildiyiniz kimi, bu gün ərzaq təhlükəsizliyi ilə bağlı dünyada çox böyük narahatlıq var. O cümlədən Azərbaycan da bu istiqamətdə fəal iş aparır. Görülmüş və görüləcək işlər nəticəsində biz özümüzü bu sahədə də təmin etmiş ölkəyə çevirəcəyik və ərzaq təhlükəsizliyi məsələləri, əminəm ki, Azərbaycanda maksimum dərəcədə təmin olunacaq.

**- Cənab Prezident, növbəti sualımız ərzaq təhlükəsizliyi ilə bağlıdır. Artıq buna toxundunuz. Qiymətlərin durmadan artması, xüsusilə taxıl qıtlığı bu gün dünyada başlıca mövzulardan birinə çevrilib. Azərbaycanda bu istiqamətdə hansı tədbirlər nəzərdə tutulur, hansı addımlar atılır?**

- Biz əlbəttə, öz iqtisadiyyatımızı dünya iqtisadiyyatına inteqrasiya edərək bazar iqtisadiyyatının bütün təməl prinsiplərini Azərbaycanda tətbiq etdik. Bu gün Azərbaycanın ümumi daxili məhsulunun strukturuna baxsaq, görərik ki, ümumi daxili məhsulumuzun əksər hissəsini özəl sektor formalaşdırır, həm yerli şirkətlər, həm xarici investorlar, xarici şirkətlər. Belə olan halda dünyada gedən istənilən iqtisadi proses bizə də təsirsiz ötüşmür, bizə də təsir edir. O cümlədən dünyada mövcud olan ərzaq mallarının bahalaşması da, əlbəttə ki, bizə də təsir edir. Bu il dünyanın əksər ölkələrində inflyasiya ikirəqəmli inflyasiyadır. Bildiyiniz kimi, inkişaf etmiş ölkələrdə inflyasiya çox aşağı səviyyədə olur. İndi biz hətta o ölkələrdə ikirəqəmli inflyasiyanı görürük.

Ərzaq mallarının qiymətinin qalxması da Azərbaycana bir növ, - əgər belə demək mümkündürsə, - idxal olunub. Çünki biz hələ də özümüzü tam, yəni, 100 faiz əsas ərzaq məhsulları ilə təmin edə bilmirik. Ancaq bu istiqamətdə ardıcıl işlər aparılır. Məsələn, bizim üçün ənənəvi olmayan heyvandarlıq sahəsində, yəni, - mən sovet dövrünü nəzərdə tuturam, o vaxt heyvandarlıq Azərbaycanda, demək olar ki, az inkişaf etmişdi, - bu gün biz özümüzü ət məhsulları ilə 90 faiz, quş əti ilə 80 faiz, süd, süd məhsulları ilə 85 faiz səviyyəsində təmin edirik. Əminəm ki, növbəti 3-5 il ərzində biz yüz faiz səviyyəsinə çıxacağıq, baxmayaraq ki, tələbat da artır. Çünki əhali artır.

Amma əfsuslar olsun ki, biz özümüzü taxılla hələ uzun illər tam təmin edə bilməyəcəyik. Özümüzü buğda ilə təminetmə əmsalı Azərbaycanda bu ilin əvvəlinə 62 faiz idi. Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi və bunun nəticəsində əminəm ki, ərzaqlıq buğdanın Azərbaycanda istehsalı kəskin artacaq. Ancaq bu, vaxt tələb edəcək. Mən hesab edirəm ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır. Ona görə taxılın qiymətinin dünya bazarlarında qalxması bütün ölkələrə təsir göstərir. Ancaq bugünkü vəziyyət ondan ibarətdir ki, təkcə qiymətdən söhbət getmir, eyni zamanda taxıl qıtlığı yaşanır. Bildiyiniz kimi, Rusiya-Ukrayna müharibəsi nəticəsində bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə, taxılla təmin edə bilmirlər. Çünki taxılın əsas ixtracatçıları Rusiya və Ukrayna olduğu halda, indi müharibə əlbəttə ki, bu məsələdə çox böyük əngəllər törətmişdir. Ancaq Azərbaycanda bu sahədə heç bir problem yoxdur. Biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq. Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində Azərbaycana istədiyimiz qədər həm gübrə, həm taxıl ixrac edilir və ediləcək. Gübrəyə gəldikdə isə, bildiyiniz kimi, biz özümüz də artıq gübrə istehsalçısı olmuşuq və hətta karbamid gübrəsini ixrac edirik. Amma digər gübrələr Azərbaycana idxal olunur.

Bir sözlə, bax, bu amillər reallıqdır və biz real həyatda yaşayırıq. Özümüzü bütün problemlərdən tam sığortalamaq üçün praktiki işlər aparırıq və aparacağıq. Əminəm ki, növbəti illərdə həm bu gün mövcud olan əkin sahələrində daha bol məhsul götürmək üçün suvarma layihələri, düzgün aqrotexniki tədbirlərin görülməsi və digər tədbirlər, subsidiyalar nəticəsində biz məhsuldarlığı böyük dərəcədə artıra biləcəyik. Eyni zamanda biz artıq azad edilmiş torpaqlarda da əkin-biçinlə məşğuluq. Mənim göstərişimlə vaxt itirmədən əkin işləri aparılmışdır, minalardan təmizləmə işləri aparılmışdır. Hesab edirəm ki, gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda yetişdiriləcək məhsullar, o cümlədən ərzaq təhlükəsizliyimizin tam təmin edilməsində bizə böyük kömək göstərəcək.

**- Elə bu mövzunun davamı olaraq, erməni işğalından azad edilmiş torpaqlarımızda Sizin göstərişinizlə əkin işləri aparılır. Azad edilmiş ərazilərdə, ümumiyyətlə, kənd təsərrüfatı sahəsində hansı işlər görülür?**

- Azad edilmiş ərazilərdə həm kənd təsərrüfatı, həm maldarlıq, həm bitkiçilik üçün çox münbit iqlim və təbii şərait var. Biz, əlbəttə ki, maksimum dərəcədə bundan səmərəli şəkildə istifadə etməliyik. Eyni zamanda ərzaq təhlükəsizliyi ilə bağlı mövcud olan məsələlər, bu günün məsələləri deyil. Sadəcə olaraq, Rusiya-Ukrayna müharibəsi nəticəsində bu məsələlər daha da kəskinləşir. Əlbəttə, torpaqlarımız işğalçılardan azad olunandan sonra mən dərhal göstəriş verdim ki, biz vaxt itirmədən bu torpaqlarda əkin-biçinlə məşğul olmalıyıq. Bu il 50 min hektarda taxıl əkilmişdir və artıq məhsul yığımı da sona çatmaq üzrədir. Düzdür, məhsuldarlıq çox aşağıdır, bu da təbiidir. Çünki uzun illər bu torpaqlar istifadəsiz qalmışdır, suvarma da yoxdur, dəmyə şəraitində taxıl yetişdirilir və birinci ildir ki, əkin aparılmışdır. Ona görə hektardan orta məhsuldarlıq təqribən 1 tondan aşağıdır. Ancaq əminəm ki, növbəti illərdə məhsuldarlıq daha da artacaq, əkin sahələri artacaq. Mən hesab edirəm ki, biz azad edilmiş torpaqlarda taxılçılıq üçün ən azı 100 min hektarı dövriyyəyə buraxmalıyıq və əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə. Xüsusilə nəzərə alsaq ki, bizim əsas çaylarımız da erməni işğalına məruz qalmışdı. Mənfur düşmən bizi öz suyumuzdan da məhrum etmişdi. Bildiyiniz kimi, Tərtər çayının suyundan biz faktiki olaraq istifadə edə bilmirdik. Həkəri çayın suyundan, Bazar çayın suyundan istifadə edə bilmirdik. Bunlar, azad edilmiş torpaqlarda əsas çaylardır, amma o çayların sayı daha da çoxdur.

Ona görə bu amili nəzərə alsaq və azad edilmiş torpaqlarda kənd təsərrüfatının müasir planlı şəkildə ixtisaslaşma əsasında təşkili bizə imkan verəcək ki, oraya qayıdacaq insanlar əkin-biçinlə məşğul olmaqla öz güzəranını özləri təmin edəcəklər, yaxşı vəsait əldə edəcəklər, eyni zamanda ölkəmizin ərzaqla təminatı və ixrac imkanları böyük dərəcədə artacaq. Məsələn, Kəlbəcər, Laçın, Zəngilan rayonlarında heyvandarlığın çox böyük perspektivləri var və biz vaxt itirmədən artıq ikinci ildir ki, çobanları qoyun sürüləri ilə oraya göndərmişik və bunun nəticəsini görürük. Arıçıları göndərmişik. Artıq Kəlbəcər və Laçın rayonlarında yüzlərlə arıçı öz təsərrüfatını qurub və bol məhsul götürür. Artıq biz bal ixracatçısına çevrilmişik.

Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı rayonlarında taxılçılıq, o cümlədən üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri inkişaf etməlidir. Yəni, dövlət öz tövsiyələrini verəcək. Fermerlərə, oraya qayıdacaq vətəndaşlara həm dəstək göstərəcək, subsidiya verəcək, tövsiyə verəcək, onların yetişdirdikləri məhsulu bazarlara çıxarmaları üçün dəstək olacaq. Bu bölgələrdə - Şərqi Zəngəzur və Qarabağ bölgələrində kənd təsərrüfatının inkişafı, yenə də deyirəm, ən müasir əsaslar üzərində qurulmalıdır. Çünki biz faktiki olaraq işlərə sıfırdan başlayırıq, ona görə səhvə yol verə bilmərik. Vaxtilə Azərbaycanda aparılmış kənd təsərrüfatı islahatı zamanı buraxılan səhvlərə yol verə bilmərik. Hər şey düzgün, şəffaf olmalıdır və əminəm ki, bunun nəticəsində ən böyük məhsuldarlıq məhz işğaldan azad edilmiş torpaqlarda olacaq.

**- Cənab Prezident, məlum olduğu kimi, avqustun əvvəllərində erməni təxribatı nəticəsində Qarabağda qarşıdurma baş verdi. Bu hadisə ilə bağlı nə deyə bilərsiniz?**

- Bəli, Ermənistan tərəfi növbəti dəfə silahlı təxribata əl atdı. Bu hərbi təxribat nəticəsində bir hərbçimiz şəhid oldu. Allah ona rəhmət eləsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq hər kəs gördü və görməlidir ki, şəhidimizin qanı yerdə qalmadı. Biz dərhal "Qisas" əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq. Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatı cəza tədbiri idi. Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq və heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz. Biz öz torpağımızda istənilən əməliyyatı istənilən zaman apara bilərik. Sadəcə olaraq, "Qisas" əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir, eyni zamanda biz yeni müharibə istəmirik. Çünki İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi və biz istədiyimizə hərbi və ondan sonra hərbi-siyasi yollarla nail olduq. Digər arzularımıza da çatacağıq, zaman gələndə onlara da çatacağıq. Bizim gündəliyimizdə həm taktiki, həm strateji addımlarımızın təsbit edilməsi reallıqdır. Əminəm, Ermənistan da bilir ki, biz bilirik nəyi nə vaxt etmək lazımdır və nəyi deyiriksə, onu da edirik. Dəfələrlə Ermənistana xəbərdarlıq etmişdik ki, odla oynamasınlar, özlərini yaxşı aparsınlar, yeni reallıqları qəbul etsinlər və hərbi təxribatlara əl atmasınlar. Əfsuslar olsun ki, bu dəfə də onlara dərs verməli olduq. Ümid edirəm ki, bu dəfə bu dərs onların yaddaşında qalacaqdır. "Qisas" əməliyyatı təkcə şəhidimizin qisasının alınması məqsədi daşımırdı. Digər məqsədlər, vəzifələr Ali Baş Komandan kimi mənim tərəfimdən qarşıya qoyulmuşdu və bütün vəzifələr icra edildi. Nəticə də bəllidir, bu barədə çox danışmaq istəmirəm. Təkcə onu demək istəyirəm ki, nə istəmişiksə, onu da etmişik, artıqlaması ilə və qarşı tərəf bunu bir daha qəbul etməyə məcburdur.

Prinsip etibarilə gələcəkdə Ermənistanın bu vəziyyətlə, yeni reallıqla barışması labüddür, çünki başqa yolu yoxdur. "Qisas" əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz, nə kiminsə bəyanatı, nə kiminsə açıqlaması, nə hansısa telefon zəngi. Heç nə və heç kim. Bunu Azərbaycan xalqı yaxşı bilir. İkinci Qarabağ müharibəsi bunu göstərmişdir. Əminəm ki, qarşı tərəf də bunu bilir. Sadəcə olaraq, hərdənbir bunu unudur. Ona görə bax bu faciəvi hadisələr baş verir.

Biz müharibədə Zəfər çalmışıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Nə üçün bizim övladlarımız müharibədən sonra ölməlidir? Nə üçün ermənilər tərəfindən öldürülməlidir? Biz buna imkan verə bilmərik. Bir daha demək istəyirəm, əgər yenə də buna oxşar təxribat təkrarlanarsa, cavab daha da sərt olacaq, daha da peşman olacaqlar, daha da gur səslə imdad diləyəcəklər. Amma yenə də deyirəm, bizim niyyətimiz yeni müharibə başlamaq deyil. Kifayətdir. Biz istədiyimizə nail olmuşuq. Biz istəyirik ki, erməni silahlı birləşmələri Qarabağı birdəfəlik tərk etsin. Bu, Ermənistanın öhdəliyidir, 10 noyabr 2020-ci ildə Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında təsbit edilib və biz buna nail olacağıq və nail oluruq.

Onu da bildirməliyəm ki, "Qisas" əməliyyatından sonra yüzlərlə erməni hərbçisi Qarabağ bölgəsindən çıxarılıb. Bu onu göstərir ki, əfsuslar olsun ki, belə əməliyyatların təsiri var. Ona görə "əfsuslar olsun" deyirəm ki, buna gətirib çıxarmaq lazım deyildi. Sadəcə olaraq, Ermənistan bizim xəbərdarlıqlarımızı düzgün təhlil edib düzgün nəticə çıxarsaydı, buna ehtiyac qalmazdı. Hər halda, birinci biz başlamamışıq. Biz istədiyimizi təmin etmişik, öz torpağımızda möhkəmlənmişik və möhkəmlənəcəyik.

**- Cənab Prezident, Azərbaycan tərəfi Ermənistana vaxt vermişdi ki, bu il avqust ayının sonuna qədər Laçın şəhəri, Zabux və Sus kəndlərini boşaldaraq geri qaytarsın. Bununla bağlı məsələ nə yerdədir?**

- Əslində, bu tarixi Qarabağda Rusiyanın sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi ərazidə yaşayan yerli ermənilər bizdən xahiş etmişdilər. Biz də buna razılaşdıq. Onu da bildirməliyəm ki, 10 noyabr 2020-ci il Bəyannaməsində açıq-aydın göstərilir ki, yeni yol çəkiləcək və üç il ərzində bu yolun planlaşdırılması və razılaşdırılması təmin edilməlidir. Onu da bildirməliyəm ki, bu bəndi üçtərəfli Bəyanata saldıran məhz mənəm. Çünki 2020-ci il noyabrın 9-da son danışıqlar aparılarkən, - danışıqlar Rusiya Prezidenti Vladimir Putin vasitəsilə aparılırdı, Ermənistan rəhbərliyi, o cümlədən Rusiya özü də bu danışıqlarda fəal iştirak edirdi, - mən çox təkid edirdim ki, mütləq bu bənd salınmalıdır. Çünki Ermənistanı Xankəndi ilə birləşdirən yol Laçın şəhərinin içindən keçir. Əgər bu bəndi mən saldırmasaydım, o zaman Laçın şəhəri həmin bu beş kilometr enində olan zonaya düşəcəkdi və tez bir zamanda oraya keçmiş köçkünləri qaytarmaq mümkün olmayacaqdı. Ona görə mən təkid edirdim və buna nail oldum ki, bu, məhz o məqsədlə sənədə salındı.

Əlbəttə ki, bütün Qarabağda və Şərqi Zəngəzurda bildiyiniz kimi, indi genişmiqyaslı işlər aparılır, o cümlədən bu yolun tezliklə inşa edilməsi mənim tərəfimdən əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Biz bu yolu cəmi bir il ərzində inşa etdik, 32 kilometr uzunluğunda olan bir yoldur. Ondan əvvəlki dövrdə, İkinci Qarabağ müharibəsindən dərhal sonra biz bu yolun marşrutu ilə bağlı Rusiya tərəfi ilə danışıqlara başlamışdıq. Yəni bu yol öz-özünə yaranmadı. Biz bu yolu razılaşdırdıq. Bir neçə marşrut var idi və nəticədə bu marşrut seçildi. Rusiya Müdafiə Nazirliyi ən yüksək səviyyədə bu marşrutu bizimlə razılaşdırdı və təsdiqlədi. Əgər başqa cür olsaydı, biz Rusiyanın müvəqqəti nəzarətində olan ərazidə necə yol inşa edə bilərdik? Yəni, bu, təbiidir. Əgər kimsə bizi ittiham etmək istəyir ki, biz nəyisə qanunsuz etmişik, yaxud da hansısa birtərəfli addım atmışıq, qətiyyən belə deyil. Biz istənilən səviyyədə bunu sübut edə bilərik. İndi Rusiyanın rəsmi orqanlarına sorğu göndərilə bilər, necə bu yol tikilib bütün sənədlər var, bütün razılaşmalar var. Bu marşrut razılaşdırılmışdır. Əlbəttə ki, biz bu marşrutu Ermənistanla razılaşdırmalı deyildik. Çünki Ermənistanın buna heç bir aidiyyəti yoxdur. Sadəcə olaraq, Ermənistana bildirildi ki, Ermənistan sərhədinə çıxış hansı nöqtədən olacaq və onlar da öz tərəfindən yeni yolu o nöqtəyə gətirib çatdırmalı idilər. Amma əfsuslar olsun ki, bunu etmədilər. Nə üçün? Vaxtı uzatmaq üçün. Bunun başqa səbəbi yoxdur.

Biz bu yeni Laçın yolunu inşa etməyə başlayanda Rusiya tərəfi vasitəsilə Ermənistana müraciət etdik və dedik ki, - çünki mən təxmin edirdim ki, onların necə deyərlər, belə hoqqabazlığı olacaq, - təklif etmişdik ki, gəlin biz də sizin ərazidə yol tikək. Orada cəmi 8-9 kilometrdir. İmtina etdilər bundan. Dedilər ki, yox, biz özümüz edəcəyik. Və nə vaxt buna başladılar?! Özü də buna başlamaq demək mümkün deyil, çünki elə ancaq texniki-iqtisadi əsaslandırmasını bunlar indi işləyirlər. O vaxt ki, biz artıq rəsmi məktubla Rusiya tərəfinə bildiriş göndərdik. Bildiriş göndərdik ki, bu yolu biz başa çatdırırıq avqustun 5-də və xahiş edirik ki, siz sülhməramlı kontingentin postlarını köhnə yoldan yeni yola keçirin. Bu da təbiidir. Biz bu məktubu onlara göndərəndə yəqin ki, Ermənistan tərəfi də o məktubla tanış oldu, ondan bir gün sonra Ermənistan bəyan etdi ki, biz bu yolun iqtisadi əsaslandırmasını başlamaq istəyirik və 2023-cü ilin sonuna qədər biz bunu inşa edəcəyik. Yəni, bu, faktiki olaraq manipulasiyadır. Tamamilə qeyri-ciddi və qeyri-adekvat addımdır. Biz dedik, əgər belədirsə, onda biz avqustun 5-də Laçın dəhlizinə giririk, postlar qururuq və baxarıq sonra siz necə hərəkət edəcəksiniz. Ondan sonra aləm dəydi bir-birinə və Qarabağda yaşayan ermənilər bizə müraciət etdilər, xahiş etdilər. Dəfələrlə xahiş etmişdilər ki, onlara avqustun sonuna vaxt verilsin. Biz də buna razı olduq. Çünki indi avqustun 5-i olmasın, 25-i olsun, sentyabrın 1-i olsun böyük fərq etmir. Eyni zamanda Qarabağda yaşayan ermənilər bizə müraciət etdilər ki, Ermənistan sərhədinə birləşdiriləcək nöqtəyə qədər 4 kilometr qrunt yolu da Azərbaycan tiksin. Ona da biz razılaşdıq. Amma əlbəttə ki, Laçın şəhərindən, Zabux və Sus kəndlərindən qanunsuz məskunlaşmış insanlar çıxarılmalıdır. Bu, təbiidir. Onların orada qalması, əslində, hərbi cinayətdir. Çünki o, Cenevrə konversiyalarının qaydalarına ziddir. İşğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz. Bu, hərbi cinayətdir. Bəlkə də orada yaşayanlar Suriyadan, Livandan gəlmiş ermənilər bunu bilmirlər, amma Ermənistan rəhbərliyi bunu yaxşı bilir. Ona görə oradan bəzi xəbərlər gəlir, biri deyir ki, mən çıxmayacağam, o biri deyir ki, mən çıxmayacağam. Özləri bilər. Onlar hərbi cinayətkardırlar. Yenə də bizi, bizim səbrimizi sınağa çəkməsinlər. Öz xoşu ilə oradan çıxıb getsinlər. Haraya gedirlər bizi maraqlandırmır.

Biz Laçına qayıtmalıyıq, Zabuxa, Susa qayıtmalıyıq. Mən Dövlət qaçqınkoma göstəriş verdim, Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı ilə əlaqə saxlasınlar və biz onları yaxın zamanlarda öz doğma yerlərinə qaytaracağıq.

Yəni hadisə belə cərəyan etmişdir və buradan, bu hadisədən bir neçə nəticə çıxarmaq olar. Birincisi, Azərbaycan üzərinə götürdüyü bütün öhdəliklərinə sadiqdir. Biz bu yolu da və digər addımlarımızı da bu öhdəliklər əsasında atmışıq və işləri görmüşük. Ermənistan isə, sadəcə olaraq, yenə də fitnəkarlıqla məşğuldur. Bir də ki, onlar başa düşməlidirlər, vaxt uzatmaq onlara heç nə verməyəcək. Əgər onlar fikirləşirlər ki, bir ildən, ya ilyarımdan sonra nəsə dəyişəcək bunların xeyrinə, səhv edirlər. Nəsə dəyişə bilər, amma bizim xeyrimizə. Çünki dünyada, bölgədə gedən geosiyasi vəziyyət göz qabağındadır. Böyük siyasətçi olmaq lazım deyil ki, bunu hər kəs görsün. Azərbaycanın artan gücü, həm hərbi, həm iqtisadi, həm siyasi gücü, Ermənistanın faktiki olaraq, əgər belə demək mümkündürsə, təklənməsi və nə üçün təklənməsi ona görədir ki, onlar haqsızdırlar. Onlar nahaq iş görürlər. Onlar hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyiblər. Halbuki mən onlara birbaşa demişəm özü də rəsmi qaydada. Əl çəkin ərazi iddialarından. Əl çəkməsəniz, o zaman biz də ərazi iddiası qaldıra bilərik Ermənistana qarşı. Ona görə vaxt uzatmaq onlara bir şey verməyəcək və eyni zamanda onlar başa düşməlidir bir nəticə də odur ki, Azərbaycan istədiyinə nail olur. Kimin hansı mövqedə olmasından asılı olmayaraq, nail olur və biz bir nöqtəyə vururuq və nəticə də hasil edilir.

Digər nəticə ondan ibarətdir ki, - mən bunu ilk dəfə deyirəm, çünki artıq bu prosesin təzahürləri var idi, sadəcə olaraq, yeni Laçın yolunun hadisəsi bunu daha da qabarıq şəkildə göstərdi, - Ermənistan hakimiyyəti Qarabağda yaşayan ermənilərə öz təsir imkanlarını itirirlər. Bu, həqiqətdir. Əksinə, Azərbaycan hakimiyyəti öz təsir imkanlarını artırır. Bu, reallıqdır. Bunun səbəbi, məncə, ondan ibarətdir ki, Qarabağda yaşayan ermənilər açıq-aydın gördülər ki, Ermənistan hakimiyyəti onların problemlərini həll etmək iqtidarında deyil - nə təhlükəsizlik, nə iqtisadi, nə maliyyə, nə başqa. Heç bir problemi həll etmək iqtidarında deyil. Əksinə, gördü ki, Azərbaycan hakimiyyəti onlara öz vətəndaşları kimi yanaşır və mən bunu demişəm, birinci dəfə deyil. Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Nə qədər onlar bunu tez dərk etsələr və bu proses artıq başlayır, o qədər də hamımız üçün yaxşı olar.

Bu gün Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesində Qarabağ mövzusu yoxdur. Belə cəhdlər olub, amma mən buna heç vaxt razılıq verməmişəm. Ermənistanın buna nə dəxli var? Bu, bizim daxili işimizdir. Bu gün danışıqlar masasında hər hansı bir statusdan, ümumiyyətlə, söhbət belə getmir. Nədən söhbət gedir? Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizliyi. Mən də demişəm bəli, onların hüquqları da, təhlükəsizliyi də Azərbaycan dövləti tərəfindən təmin ediləcək və mən nəyi deyirəmsə, onu da həmişə icra edirəm. Yeni Laçın yolunun inşası zamanı biz bunu gördük. Çünki mən deyə bilərəm ki, biz bu yolu təzə inşa etməyə başlayanda rus sülhməramlıları bizim inşaatçıları elə bil ki, qoruyurdu yerli əhalidən, ya da ki, onları bizdən, bizim inşaatçılardan. Bilmirəm kimi kimdən qoruyurdu, amma hər halda onlar var idi orada. Bir müddətdən sonra onlar çıxıb getdilər və təqribən son 6-7 ay ərzində, ümumiyyətlə, yol boyunca bir dənə də Rusiyanın sülhməramlıları yox idi, ehtiyac yox idi. Bizim inşaatçılar oradakı kəndlərdə yaşayan yerli ermənilərlə təmasda idilər, hətta onların bəziləri gəlib kömək edirdi, təşəkkürünü bildirirdi ki, belə keyfiyyətli yol tikirik. Nəinki Qarabağın, Ermənistanın tarixində belə keyfiyyətli yol olmayıb. Onların tikdirdiyi yollar indi dağılır, bir il hələ keçməyib. Ona görə bu təmaslar artıq gedir və bu, çox önəmlidir, mən də bunu alqışlayıram. İnsanlar arasındakı təmaslar uzunmüddətli, sülhə xidmət göstərəcək.

Yenə də qayıdıram bu əsas mövzuya. Bu hadisələrin nəticələrindən, önəmli nəticələrindən biri də odur ki, Ermənistan öz təsir imkanlarını itirmək üzrədir, Azərbaycan hakimiyyətinin müsbət təsiri artır və artacaq. Qarabağda yaşayan ermənilər düzgün addım atmalıdırlar, başa düşməlidirlər ki, onların gələcəyi ancaq Azərbaycan cəmiyyətinə inteqrasiyadan keçir. Başqa cür mümkün deyil. Yəni, biz real həyatda yaşayırıq. Həm iqtisadi, həm coğrafi, həm nəqliyyat nöqteyi-nəzərdən Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarix nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən tərkib hissəsidir. Əgər Qarabağda kimsə yenə də, bilmirəm, hansısa populizm naminə, yaxud da ki, indi, necə deyərlər, kimdənsə qorxduğu üçün hansısa statusdan, müstəqillikdən söhbət aparırsa, bilmək lazımdır ki, o, erməni xalqının birinci düşmənidir. Çünki Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə müstəqilliyi olacaq, nə də ki, hansısa xüsusi imtiyazı olacaq. Azərbaycan vətəndaşları necə, onlar da elə. Azərbaycan vətəndaşlarının hüquqları necə qorunursa, onların da elə. Azərbaycanda yaşayan xalqların hüquqları necə qorunursa, onların da elə. Ancaq budur yol. Bu hadisələr onu göstərdi ki, biz yenə də anlayışla yanaşdıq. Biz deyə bilərdik ki, yox, ayın 5-idir vəssalam, çıxın gedin, biz gəlirik, dururuq, kim bizi dayandıra bilər? Heç kim bizi dayandıra bilməz. Yüz minlik ordunu kim dayandıra bilər? Özü də Laçın yolu bizim ayağımızın altında. Etmədik onu. Nə üçün? Çünki bizdən xahiş etdilər. Biz də dedik ki, yaxşı gözləyək, ayın sonuna qədər. Yəqin ki, eşitmisiniz, indi orada yerli ermənilər, yəni, nüfuz sahibləri orada yaşayan insanlara deyirlər ki, amanın günüdür, evləri yandırmayın, damları uçurmayın, o santexnikanı çıxarmayın, aparmayın. Yəni, iki il bundan əvvəl bunu deyirdilər? Yox! İki il bundan əvvəl onlar qürurlanırdılar bundan. Ayıb olmasın, bəzi əşyaları belinə alıb harasa aparır, bütün dünyanın gözü qarşısında rəzil oldular. Amma indi deyirlər ki, sənin evin deyil. Sən buraya gəlmisən, nə vaxt gəlmisən sən buraya? 1994-cu ildə. Bəs o vaxta qədər kim yaşayıb burada? Azərbaycanlı yaşayıb, çıx get.

Bax belə, vəziyyət bundan ibarətdir və deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən təxminən iki il keçir, amma görün bu iki il ərzində nə qədər böyük dəyişikliklər baş verib? Mən hələ orada apardığımız bərpa, yenidənqurma işlərini kənara qoyuram, bunlar hamısı göz qabağındadır. Şüurda nə qədər dəyişikliklər baş verir? Nəyə görə? Düzgün siyasətimizə görə. Çünki müharibə başa çatandan dərhal sonra mən demişəm ki, bizə sülh lazımdır. Biz Ermənistanla sülh danışıqlarına başlamalıyıq. Hələ ki müsbət cavab almamışıq, amma ümid edirəm ki, alacağıq. Delimitasiya komissiyası yaradılmalıdır. Ona da etiraz edirdilər, nəticədə razılaşdılar. Zəngəzur dəhlizi lazımdır, ona da etiraz edirdilər. İndi yaxın həftələrdə Zəngəzur dəhlizinin marşrutunu biz onlardan gözləyirik. Qarabağda yaşayan ermənilər, onlar da gördülər ki, Azərbaycandan onlara ancaq xeyir gələ bilər.

Ona görə mən gələcəyə nikbinliklə baxıram. Bir daha demək istəyirəm, biz istədiyimizə həmişə nail oluruq. İstədiyimiz də odur ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibə olmasın, Azərbaycan uğurla inkişaf etsin, xalqımız yaxşı, firavan yaşasın.

**- Çox sağ olun, cənab Prezident, müsahibəyə görə təşəkkür edirəm.**

- Sağ ol.

**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 24 oktyabr (cümə axşamı günü) tarixli XXI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Pəncşənbə, 17 məhərrəmülhəram sənə 1337. 24 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELANİ-RƏSMİ

Bilümum [ümumiyyətlə] Bakı və ətrafı əhalisinə:

1. Qadın və erkək, böyük və kiçik, hər hansı milliyyət, din, sinif və təbəədən olursa olsun, Bakı və həvalisi [ətrafı] sakini bilcümlə əhali: kəndi ev və məhəllələri heyəti-idarə və ixtiyariyyəsindən [idarə və ixtiyar heyətindən] namlarına mühərrər [adlarına yazılmış], isim, pədər [ata] ismi, məmləkət, məhəllə və soqaq [küçə], xanə nömrəsi, yaş, əşkal və əlaməti-fariqə [görünüş və fərqləndirici əlamət], sənət və ya məmuriyyət və sair xüsusatimətlubəyi [tələb olunan xüsusları] göstərən "hüviyyət [şəxsiyyət] vərəqə"sindən birər dənə edinməyə [hərə bir ədəd əldə etməyə] məcburdurlar.

2. Tarixi-elandan iyirmi gün sonra çarşı, bazar, soqaq və evlərdə surəti-məxsusədə [xüsusi surətdə] sıxsıx yapılacaq yoxlamalarda kəndi hüviyyət vərəqəsini ibraz [təqdim] edəmməyən hər kəs cəza görəcək və şübhəliədd [hesab] edilərək daxili-məmləkətə [ölkənin içlərinə] sövq olunacaqlardır.

3. Hüviyyət vərəqəsi olmayan şəxsin dəvairi-rəsmiyyəcə [rəsmi qurumlarda] heç bir işi görülməyəcəyi kimi, bey'üşəra [alqı-satqı], əqdi-icar [kirayə müqaviləsi] və sairə kimi işlərdə hüquqi-mədəniyyədən saqit [mədəni hüquqları əlindən alınmış] ədd ediləcək [sayılacaq] və hər hansı bir yerə səyahətində kəndisinə heç bir surətlə səyahət vərəqəsi verilməyəcəkdir.

4. Hüviyyət vərəqəsi olmayanları; ev, mağaza, otel, yazıxana, ticarətxana, fabrika və dəvairi-rəsmiyyəyə qəbul edənlər, şübhəli əşxası [şəxsləri] hökumətin nəzəri-təftişindən saxlamış ədd ədilərək və müxalifi-qanun hərəkətlərindən naşi [qanuna müxalif hərəkətlərinə görə] şədidən [şiddətli] cəza görəcəklərdir.

5. Tarixi-elandan iyirmi gün sonra hüviyyət vərəqəsini ibraz edəmməyən hər kəsi zabitə [asayiş keşikçiləri] tövqif və əxbara [həbs etməyə və xəbər verməyə] məcburdur.

6. İşbu əmr, tarixi-elanından etibarən Bakıda müntəşir [nəşr olunan] bil-ümum qəzetələrcə bir həftə müddətlə mütəmadiyyən nəşr olunacaqdır.

*Polis Müfəttişi-ümumisi Bəhaəddin*

## ELAN
## BAKI ZİRAƏT VƏ DÖVLƏT ƏMLAKI İDARƏSİNDƏN

Qusarçay, Xudat, Ləcət, Yalama və Samur mövqifləri [stansiyaları], habelə işbu mövqiflərə yavuq dövlət meşələrində naməlum zəvata [şəxslərə] məxsus olmaq üzrə külli miqdarda hazırlanmış odun mövcuddur.

Odun sahiblərinə təklif olunur ki, təşrini-saninin [noyabrın] 5-ə kimi bu barədə məlumat versinlər. Məlumatı təhrirən [yazılı surətdə] Bakı Ziraət İdarəsinə verməlidir. Məlumat ilə bərabər oduna sahib olmağı isbat edəcək vəsiqələr də pişnihad [təqdim] edilməlidir.

Təşrini-saninin 5-ə kimi məlumat verməyənlər mallarından məhrum olacaqlar. Odunlar xəzinə nəfinə [xeyrinə] zəbt olunacaqdır.

*Azərbaycan Meşələri müdiri vəzifəsini ifaya müvəzzəf [icra edən]: Nəcəf bəy Vəzirov*
*Bakı Ziraət İdarəsinin müvəqqəti naziri vəzifəsini ifaya müvəzzəf: Şpitalski*

## ELAN

Azərbaycan əhalisindən gərəksə Bakı və gərək Gəncə vilayətindən on doqquz, iyirmi, iyirmi bir, iyirmi iki, iyirmi üç, iyirmi dört yaşında olan cavanlardan qunduraçı [çəkməçi], bərbər, dərzi, mühəndis, konduktor, gəmiçi, betonçu, maranqoz [xarrat], dülgər və daha sair sənət sahibi olanlar Bakıdakı qitəyə [hərbi hissəyə] veriləcəkdirlər. Həman [dərhal] Bakı şöbəsinə müraciətlə qeydlərini yapdırsınlar. İyirmi beş, iyirmi altı, iyirmi yeddi, iyirmi səkkiz, iyirmi doqquz, otuz yaşlarındakı cavanlardan işbu sənətlərə aşina olub da könüllü olaraq əsgər olmaq istərlərsə, onlar da əxzi-əsgər dairəsinə [hərbi xidmətə çağırış qurumuna] pasportlarıyla müraciət və qeyd olunsunlar. Bu iş təşrini-əvvəlin [oktyabrın] otuzunda qurtarılacağından istical olunmaq [tələsmək] gərəkdir.

*21 təşrin fi sənə 34*

## ELAN
## ƏRAZİ NƏZARƏTİNDƏN

Ərazi naziri müstədini [ərizəçini] qəbul edir şənbə və səşənbə [çərşənbə axşamı] günləri saat 12-dən 2-yə kimi.

Azərbaycan Meşələri naziri qəbul edir, hər gün saat 12-dən 2-yə kimi.

Bakı quberniya Ərazi və Dövlət Əmlakı İdarəsi müdiri qəbul edir saat 12-dən 2-yə kimi.

Qəbul edilmək arzusunda olanlar hər gün saat 10-dan 12-yə kimi növbətçi məmura özlərini yazdırmalıdırlar: Ərazi Nəzarəti dəftərxanasında hər gün saat 11-dən 1-ə kimi. Ərizə qəbul olunub məlumat verilir.

*705*

## ELAN

Sinni-mükəlləfiyyətə [mükəlləfiyyət yaşına] daxil olmuş 1895, 1896, 1897, 1898, 1899, 1900 təvəllüdündə bulunan cavanlardan əksərisinin mollalarda mövcud can dəftərlərində adları yoxdur. Bu səbəblə, bu cavanlar da əsgər düşmədim və yaxud da məni çağırmadılar deyə şöbəyə müraciət etməyirlər.

On doqquzdan iyirmi dörd yaşına qədər bütün cavanlar (gərək çağırılsın və gərək çağırılmasın) təşrini-əvvəlin [oktyabrın] nəhayətinə qədər Əxzi-əsgər [hərbi qulluğa çağırış] şöbəsinə müraciət edərək kəndini qeyd etdirməyə məcburdurlar.

Təşrini-əvvəlin [oktyabrın] nəhayətinə qədər kəndilərini qeyd etdirməyən cavanların xaini-vətən [vətən xaini] ədd [hesab] edilərək haqlarında fərari müamiləsi tətbiq ediləcəyi elan olunur.

*23-10-34*
*İslam Ordusu*
*Əxzi-əsgər Rəyasəti*

## ELAN

İslam Ordusu Komandanlığının məlumat və vəsiqəsi olmadıqca, heç bir möhürçü rəsmi möhür həkk etməyə səlahiyyətdar [səlahiyyət sahibi] deyildir. Əks halda qanunun ən ağır cəzası ilə təcziyə edilər [cəzalandırılar].

*23-10-34*
*Mərkəz Komandanlığı*

## HÖKUMƏT QƏRARDADI

**Ədliyyə Nəzarəti [Nazirliyi] əmri**
**18 oktyabr 1918, Bakı**

Gəncə nahiyə məhkəməsinin müddəi-ümumisi [ittihamçısı] Sergey Nikolayeviç Nikolayev və Bakı nahiyə məhkəməsinin üzvü Vladimir Aleksandroviç Nazarov oktyabr ayının 1-indən vəzifələrindən və bu xidmətdən həmişəlik kənar edilirlər.

Xidmətində saxlanan Tiflis nahiyə məhkəməsi üzvü Vladislav Adolfoviç Visort, Bakı məhkəmə şöbəsində məhkəmə müdiri müavinliyinə və mülkiyyə işlərinə baxmaqdan ötürü Bakı 3-üncü məhkəməsi müdiri təyin edilir.

Bakı nahiyə məhkəməsinin müddəi-ümumi [ittihamçı] müavini Pavel Mitrofanoviç Krasnokutski, 24 iyun 1918 sənəsi hökumət qərardadına müvafiq, vəzifəsindən və xidmətindən həmişəlik kənar edilir.

Bakı nahiyə məhkəməsində məhkəmə xidməti üçün namizəd olan İsmayıl bəy Soltanov Ədliyyə Nəzarətinə [Nazirliyinə] təyin edilir.

*Ədliyyə naziri: T. Makinski*

**Əmr nömrə 93**
**Səhiyyə və Nafiə Nəzarətində [Səhiyyə və Sosial Təminat Nazirliyində]**

Bakı quberniyası Göyçay nahiyəsi Kürdəmir hissəsinin feldşeri Skarjetovski, 1918 sənəsi oktyabr ayının 1-indən Zərdab hissəsinə təyin edilir.

*30 sentyabr 1918*
*Səhiyyə və Nafiə naziri Rəfibəyov*

## ORDU QƏRARGAHINDAN TƏBLİĞİ-RƏSMİ

Dərbənd cəbhəsində 21.10.34-də süvarilərimiz Qayakənd istiqamətində irəliləmişdir.

## TELEQRAF XƏBƏRLƏRİ

**Gürcüstan Teleqraf Acentəliyinin oktyabrın 18-ində aldığı teleqraflar**

Berlin Qərb cəbhəsindən xəbər verilir ki, Brügge ilə Lis arasında düş-mənin dəfələrlə etdiyi hücumları dəf edilmişdir. Kortreyk cənub-qərbində, Maas çayının şərq sahilində axırıncı müharibələrdən sonra müvəqqəti dayanmış olan düşmən dəstələri Kort-reyk şimal-şərqində bizim əsgərlərimiz tərəfindən geri atılmışdır. Düşmən nəhrdən keçmək istəmişsə də, müvəffəq ola bilməmişdir. Lill və Duedən şərqə tərəf Le-Kato və Uaza arasında olan Ask Tamplev Flin Market xəttində düşmən təqibat yapmaqdadır. Le-Kato cənub-şərqində düşmənin güclü hücumları davam etməkdədir. Bazuel yanında düşmən meşəyə soxulmuşdur. Cəbhənin qeyri yerlərində düşmən hücumları böyük tələfat ilə dəf edilmişdir. Bazuel hücum ilə işğal edilmişdir.

Berlin Axşam alınan xəbərlərdə deyilir ki, Flandriyada Le-Kato və Uaza arasındakı müharibə meydanında bütün gün sakitliklə keçmişdir. Laon şimalında ingilis hücumları müvəffəqiyyətsiz qalmışdır. Busyer şimal-şərqində düşmən dəstələri sağ sahildə möhkəmlənmişlərdir. Maasda təzə bir şey olmamışdır.

İstanbul Cəbhələrdə təbəddülat yoxdur.

Vyana İtaliya müharibə meydanından verilən xəbərlərə görə, cəbhənin bir çox yerlərində güclü surətdə kəşfiyyat əməliyyatı vaqe olmaqdadır.

Balkan müharibə meydanından bildirilir ki, Qərbi Morava yaxınlığındakı təzə mövqelərdə Müttəfiq əsgərləri düşmənlə təzədən müsadiməyə [çarpışmaya] başlamışlardır. Aleksinaç şimalında serb dəstələri dəf edilmişlərdir. Şərqə tərəf vaqe olan hücumlarda bir çox əsirlər alınmışdır.

Moskva Mərkəzi Komitənin Mətbuat bürosu xəbər verir ki, qərb cəbhəsində Müttəfiqlərin hücumu davam etməkdədir. Almanlar Ostende, Rube, Due və Lill şəhərlərini təxliyə etmişlərdir. İngilis əsgərləri Ostendeyə daxil olub, fransızlar isə Tiqilkur şəhərini işğal etmişlərdir. Amerika əsgərləri Lis ilə Uaza arasında möhkəmlənmişlərdir. Müharibələr təzələnmişdir.

Cənub cəbhəsindən Albaniyada serblər Qərbi Moravaya qədər soxulmuşlardır. Müttəfiq dövlət əsgərləri Niş şimalında hərəkətdə bulunub 32 top ilə əsirlər alınmışdır.

Berlin Oktyabrın 20-sində qərb cəbhəsindən xəbər verirlər ki, Flandriyada təxliyə hərəkatı başlanıb. Brügge və Tielt-Kortreyki boşaltdıqdan sonra təzə mövqelər tutmuşuq. Təxliyə zamanında qabaq dəstələr arasında şiddətli müsadimələr olmuşdur. Axşama yaxın düşmən Sluis cənub-şərqində Beqlo yanında Belçika-Holland sərhədində dayanmışdır. Maldegemdən qərbə və Kortreyk şimal-şərqində düşmən Kortreyk cənubunda meşəyə soxulmuşdur. Düşmən Kort-reyk Turne şosesinə çatıb, Duenin hər iki tərəfindən təqibatda bulunmaqla, Orşi Muşen şərqi xəttinə qədər çatmışdır. Le-Kato ilə Uaza arasında dünən müharibələrə fasilə verilmişdir. Sambra-Uaza kanalı ilə Uazadakı təzə xəttimizdə düşmən ilə müsadimələr [çarpışmalar] vaqe olmaqdadır. Ser və Suş tərəfdə bütün gün düşmən güclü hücumlarda bulunmuşdur. Bu hücumlar Sakson əsgərləri tərəfindən əks hücumla dəf edilmişdir. Kresidən cənuba Laon Marl şosesi yanında böyük qüvvələrlə hücum etməkdə olan düşmən əsgərləri Suasondakı mövqelərimizdən bəzilərini zəbt etmişsə də, şiddətli müharibələrdən sonra dəf edilmişdir. Düşmən En nəhrinin şimali sahilində güclü top atəşi ilə bizim mövqemizi Sen-Jermenmondan şərqə tərəf sıxışdırmağa müvəffəq olmuşdur. En cəbhəsində Attini ilə Olizi arasında düşmənin müharibə hərəkatı şiddətlənməkdədir.

Berlin Axşam alınan xəbərlər. Kort-reyk şərqində düşmən hücumu davam etməkdədir. Solesm və Le-Katonun hər iki tərəfində şiddətli müharibələr vaqe olmaqdadır. Geniş dairədə olan düşmən hücumları dəf edilmişdir. Serdə müvəffəqiyyətli müharibələr olmaqdadır. Busyerdən şərqə tərəf Qərbi Endə vaqe təpələrdə düşmən hücumları dəf edilmişdir.

Berlin Busyerin hər iki tərəfində təzələnən hücumlardan sonra düşmən Şərqi En sahilində möhkəmlənmişdir. 99-cu piyada alayının generalı Putt-kamer düşməni dayandırmağa müvəffəq olmuşdur. Olizi-Qrandpre arasında Vandidən şərqə tərəf vaqe hündürlüklərdə təzələnmiş olan düşmən hücumları öz xətləri qarşısında Holşteyn alayı və nişançı əsgərləri tərəfindən dəf edilmişdir. Maas nəhrinin hər iki kənarında təxrib edici atəş ilə müharibələr vaqe olmuşdur.

Paris Oktyabrın 20-sində verilən xəbərlərdə deyilir ki, əhvalın müsaid olmasına baxmayaraq, fransız əsgərləri Uaza ilə Ser arasında öz mövqelərini genişləndirmişlərdir. Verneyl şərqində fransız əsgərləri Şantruva nəhrini keçib Konde-sur-Syuipp qərbindəki təpələrdə möhkəmlənmişlərdir. Düşmənin şiddətli əks-hücumlarına baxmayaraq, fransız əsgərləri öz mövqelərini əldən verməmişlərdir. Busyer şərqində fransız əsgərləri Perri kəndinə çatıb, Landep və Valez dairəsində iləri hərəkət etməklə 20 top almışlardır.

**Trablusqərb və Benqazidə türklər**

"Norddöyçe alqemayne zeytunq" qəzetəsinə nəzərən, "N. R. K." qəzetəsinin Balkan müxabiri [müxbiri] türklərin Trablusqərbdə müstəhkəm [möhkəmləndirilmiş] limanlar əldə etməklə nəticələnən müvəffəqiyyətlərindən və Xüms, Ləbdə, Benqazi və Dernadan ibarət bulunan bu limanların Sənusilər tərəfindən işğal edilmiş olduğundan bəhslə deyir ki: "Türklər üçün Trablus daxilində toplarla, xəstəxanalarla minlərcə əsgərdən mürəkkəb bir qüvvət təşkil etməyə nə surətlə imkan hasil olduğu bir sirr olaraq qalacaqdır. Bundan üç ay əvvəl Prins Osman Fuad əfəndi Trablusa çıxmış və əhali tərəfindən məhəbbətlə qarşılanmışdır. Osman Fuad əfəndi ülumi-əsgəriyyə və siyasiyyəni [hərbi və siyasi elmləri] Almaniyada təhsil etmişdir. Məzkur limanlar 6 təmmuzdan [iyuldan] bəri mütəmadiyən [ardıcıl] bombardman edilməkdədir. Təhtəlbəhr [sualtı] fəaliyyəti nəticəsində iki aydan bəri dənizdən münaqəlat [nəqliyyat] və müxabərat [xəbərləşmə] imkanı bulunmadığından, italyanlar telsiz teleqrafla müxabirə etməkdədirlər [xəbərləşməkdədirlər]."

**Hindlilərin teleqrafı**

Berlindən Hindistan milliyyətpərvərlərinin Avropadakı mərkəz komitəsi Xidivi-Misir [Misir valisi] Abbas Hilmi paşaya bərvəchiati [aşağıdakı] teleqrafnaməni göndərmişdir:

"Təqdim edilən şu ərizəmizlə, İngiltərənin cəbr və təzyiqinə məruz qalmış olan və Misirin məşru [qanuni] və müəzzəm [böyük, əzəmətli] rəisi bulunan zati-fəximanələrindən [uca şəxsinizdən] alman torpağında salamlarımızın qəbul buyurulmasını təmənni edəriz. Hal-hazırda milliyyət düsturu və millətlərin ingilis ribqeyi-əsarətindən [əsarət kəməndindən] təxlisi [xilası] üçün mücadilə etməkdə olan hindlilər, Misir əhalisinin iztirab və alamından [əzablarından] dolayı son dərəcə mütəəssir bulunmaqdadırlar. İttifaqi-Mürəbbenin [Dördlər İttifaqının] qələbə və müzəffəriyyəti sayəsində misirlilərin, irlandiyalıların və hindlilərin hürriyyəti-milliyyələrini [milli azadlıqlarını] istehsal edəcəklərinə [qazanacaqlarına] layətəzəlzəl [sarsılmaz] əmniyyət [əminlik] və etimadımız vardır.

**Berlində türkcə**

Berlin Darülfünunu [Universiteti] Şarlot Lorens namında bir madmazelə türkcə imtahanındakı müvəffəqiyyəti üzərinə fəlsəfə doktoru ünvanını vermişdir.

*"Azərbaycan"ın təfriqəsi 5*
*Zəfər yolunda*
*Ənvər paşa həzrətlərinə!*

**Məhməd Əmin bəy**
**Ordunun dastanı**

*Çanaqqala qəhrəmanlarına*

O nəsliz ki, qəhrəmanlıq meydanları
Yenə bu gün dörd rüzgara bizi sorar;
Ərzin bütün şərəfləri və şanları
Başlarımız kimi böyük başlar arar.

İrəliyə! Türkün alnı
Yalnız rəbbə səcdə edər.
Onun əsil, hürr vicdanı
Taxtda xaqan görmək istər.

Bizlər rəbbin ən sevgili millətiyiz;
Göyə baxan diyarların ümidiyiz.
Uca dağlar, yalçın daşlar
Bizim altun ordumuza əyiləcək.
Zalım qəlblər, məğrur başlar
Bizim dəmir pəncəmizlə əziləcək.
Bizə görə, Allah üçün gedilən yol,
Millət üçün hayqıran səs müəzzəzdir.
Şu mübarək vətən üçün savaşan qol,
Hüquq üçün tökülən qan müqəddəsdir.

Haydın, yenə qəhrəmanlıq günü gəldi,
Bu dəqiqə – zəfərlərin bir saatı.
Təkbirlərlə, türkülərlə
Bir səmavi qəzəb kimi hücum edin!
Bombalarla, süngülərlə
Xainləri birə qədər həp gəbərdin!
Bizi o gün bəkləyir ki, şairlərə
Altun sazla şahnamələr hayqırtdırar.
Əllərində çələnglərlə bakirlərə
Şan və şərəf türküləri çağırtdırar.

İrəliyə! Türkün alnı
Yalnız rəbbə səcdə edər.
Onun əsil, hürr vicdanı
Taxtda xaqan görmək istər.

İrəliyə! Göy, yer, dəniz
Basqınlarla inildəsin!
Bizim erkək səslərimiz
Hər sipərdə "Vur! Kəs!" desin.

* * *

İştə, görün! Hər meydanda qanlı, tökük bir çox silah;
Burda bir çox başlar əzik.
Orda bir çox qollar qırıq, şurda bir çox gövdə, kəmik.
Hər tərəfdə qan, kül, duman; hər tərəfdə min səs, min ah!..
Burada bütün siyah geymiş ovalarda, qorularda
Şən yuvalar xarab olmuş, dağlar, daşlar yas tutuyor.
Ərquvani torpaqlarda, havalarda və sularda
Canlı-cansız hər şey susmuş, yalnız ölüm uğulduyor.
Şu saatda dan yerindən doğan günəş dörd bucaqda
Yüz min qanlı cənazənin üzərinə parlamaqda.
Ağdənizin dalğaları
Yaşıl, qırçıl sahillərə ölüləri sürüməkdə.
Şəhərləri, səhraları
Bir çox qara xəbərlərlə müsibətlər bürüməkdə.
Yarım milyard əhalinin yaşadığı beş yüz bəldə
O məscidlər, kəlisələr, paqodlarla həp matəmdə!..
Şübhə yox ki bu ölülər artıq Qərbdən uzaqdalar,
Həpsi al qan içindələr.
Artıq hirs, kin, qürur, tamah duyammayan bu gövdələr
Gəbərtilmiş birər vəhşi sırtlan kimi yatmaqdalar.
Bu atəşsiz, səfil qəlblər artıq gözəl Parislərin
Çılpaq, səfeh qızlarıyla Roma ömrü sürməyəcək.
Bu günəşsiz, sönük gözlər artıq böyük Taymislərin
Bir ərimiş altun kimi axışını görməyəcək.
Varsın, hər leş, qarğaların hayqırdığı bu ellərdə,
Çaqqallara yuva olan daşlıqlarda, sarp bellərdə
Ziyarətsiz və duasız
Kirli, qanlı bir paçavra taleyiylə torpaq olsun.
Burda hər bir qəbrə yalnız
Acı Batı rüzgarının ıslıq çalan səsi dolsun.
Zira bunlar hürriyyətə, ədalətə düşmandılar,
Vətənlərə, millətlərə qanlı məzar qazandılar.
Bu cəng, türkün zalımlarla gördüyü bir hesabıdır,
Silahıyla əsarətə,
Qəzəbiylə intiqama, namusuyla həqarətə,
Zəfəriylə hirsə, kinə verdiyi bir cavabıdır.
Bu gün burda tük ürpərtən şu acıqlı lövhələrdən
Bizim əziz yurdumuzu çığnadanlar utansınlar.
Əsarətin zəncirinə əydirəcək baş arayan,
O hərislər bu qövmün də varlığına inansınlar.
Əvət, əlli əsrlik bir ömrü olan türklərin də
Qaç kərə fəth etdikləri şu dünyanın üzərində
Bir vətəni, bir xaqanı,
Bir tarixi, səltənəti, bir şərəfi, hüququ var.
Bir diləyi, bir imanı
Və bunlara can verəcək milyonlarca çocuğu var.
Böyük Turan dühasını parladacaq yeni dünya,
Bu gün bizim alnımızı oxşayan bir milli röya!
Şu Osmanın sancağı ki, bayraqların gözəlidir,
Ay-ulduzu şanımızın,
Qızıl rəngi fəth və zəfər üçün axan qanımızın,
Yanıqları eşqimizlə əzmimizin timsalıdır.
O, yeddi yüz ildən bəri Avropada, Afrikada
Və Asyada qorxu, hörmət dağıdaraq savaşmışdı.
Qütblərin ətəyində, sıcaq xətti-istivada
Ağ köpüklü ümmanlarda şərəflərlə dolaşmışdı.
Fəqət yarın onun hüma qanadının kölgələri
Əzanların ağladığı bütün məzlum ölkələri

## «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 24 oktyabr (cümə axşamı günü) tarixli XXI nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Atəşi gül sabahlarla
Səadətlər gətirici əllər kimi oxşayacaq.
Qurtarıcı silahlarla
Bu talesiz ellərdə də hürr millətlər
yaşayacaq.
Artıq Şərqin üfüqləri altındakı hər
diyarın
Tacı, taxtı, səadəti, hər bir şeyi
şərqlilərin!..

### RUŞƏN ƏŞRƏF BƏY

Əsrlərdən bəri biri-birindən uzaq düşmüş bir nənənin övladı olan Osmanlı türkləri ilə Azəri türkləri, həmd olsun, bu gün pək uzun sürən bir ayrılığın pəncəsindən yaxanı qurtardılar. İki qardaşın sevincini görən və duyan al bayraq, bunların başları üzərində dalğalanıb, çırpınmasıyla bu bayrama yoldaş olduğunu söyləməkdədir. Bu gün minarələrin səsi qulaqlara daha açıq gəlməkdə, toplarının üstündə parçalanıb da sevdiyi yurdunu öyləcə düşmənə təslim eyləyən mərd xanların mərd ruhu, buludların arasından bizdən pək məmnun qaldığını bizə sevinərək anlatmaqdadır. Allahın sevgili qulları bulunan babalarımızın ruhunu şad etdikdən sonra, tutacağımız bir yolda yavaş-yavaş da olsa yürüyürüz və bu yürüşümüzlə sevgili Turana, mövud [vəd edilmiş] cənnətə yaxlaşdığımızı hiss etdiyimiz üçün köksümüz daha da qabarır. Gələcək məsud günləri bir an əvvəl yaxlaşdırmaq üçün lazım olan imani qüvvəni cənabi-Allahdan niyaz eyləriz.

Ey, böyük Tanrı! Türklər sənin himayənə sığındılar. Lütfünü görüb, mərhəmətini təcrübə etdilər. Göndərdiyin dinin uğrunda tökülən şəhidlərimizin qanı hörmətinə olsun, bizləri məyus etmə!

***

Əvət, bu gün Azəri türkləri müstəqil bir dövlət təşkil etdilər. Bu dövlətin yeganə hamisi Osmanlı türkləri olduğunu söyləməyə hacət yox.

Bu iki türk hökumətinin biri-birini daha yaxından tanıması, söz yox ki, bunların əlaqəsini bir qat daha gözəlləşdirər və hər iki məmləkətin yüksəlməsinə yardımı toxunar. Bizim tanımaq dediyimiz, siyasi tanışlıq və diplomatlıq deyildir. Bu vardır. İstanbulda bizim bir heyətin bulunduğu kimi, onların da bizdə siyasi nümayəndələri yox deyildir.

Günlər keçdikcə bir mühərririn ətrafında toplanan siyasi gedişləri görüb seviniriz. İşin siyasət cəhətini o yolun mütəxəssislərinə buraxıb, biz məqsədimizə keçəlim.

Bir qaç ildir aramızdakı yolu, qardaşlıq yolunu bağlayan səddi ordumuzun sövləti [hücumu] devirdi. Əvvəlkinə nisbətən biri-birimizlə daha çabuq dərdləşə biləcək bir dövrəyə girdik. O zaman biz zənn etdik ki, ordunun arxasınca Osmanlının İstanbulu, İstanbulun gəncliyi qafilələr və dəstələr ilə Türkiyəni bizə, bizi də Türkiyəyə bir an əvvəl tanıtmaq üçün şitab edəcək [tələsəcək]. Osmanlı qəzetə mühərrirləri yurdumuzu hörümçək ağı [toru] kimi sarıb, Azəri türkünün, Qafqaz müsəlmanının səmimi salamlarını Osmanlı əfkari-ümumiyyəsinə [ictimai fikrinə] bildirəcək, arasıra ictimai, elmi ehtiyaclarımızdan bəhs etməklə, onların təmini yolunda bizə mənəvi bir yardımda bulunacaqdır.

Fəqət, acı bir təəssüflə mülahizəmizin doğru çıxmadığını gördük. Bu gün nə Osmanlı türkü Qafqazı, nə də Qafqaz türkü Osmanlını həqiqi mənası ilə tanımayır və bu tanımamazlığı isbat edəcək minlərcə nöqsanları şahid olaraq göstərmək kimi əlimizdə dəlillər vardır. Bir az daha cəsarət edib, biz Osmanlıları tanıdığımız kimi, onların bizləri tanımadıqlarını və bu son günlərə qədər də bu uğurda bir təşəbbüsdə bulunmadıqlarını ərz edə bilərəm. Bizdə heç olmazsa az-çox qəzetə ilə uğraşan birisi, müəllimlər və mütəəllimlər [tələbələr] Osmanlı türkünün Nədimini, Nəf'isini və vətənpərvər Kamalını bilməkdə, onların birər-ikişər misrasını dilinə təsbeh etməkdədir. Gənclər oradakı "Milli ədəbiyyat" cərəyanına – "Qızıl Alma"ya dörd gözlə baxmaqda, milliyyətə doğru atılan hər bir doğru addımı ürəkdən alqışlamaqdadır. Hələ tarın tellərinə sorunuz. İlk əvvəl sizə "Altun dastan"dan bəhs edəcəkdir. Emin bəyi bilməyən bir məktəbli çocuq belə yoxdur. Arasıra ələ düşən "Yeni məcmuə"nin nüsxələri, bulunmaz bir kimya [çox qiymətli bir nemət], bir çox dostları biri-birindən küsdürdüyünü də ərz edərsək, buraların Osmanlı türkünü tanımaq üçün bəslədiyi iştiyaqın dərəcəsini ölçə bilərsiniz zənn edirəm. Osmanlı türkünü tanımaq bizə bir ehtiyacdır. Bu ehtiyacın da təmini şübhəsiz Osmanlı gənclərinin və mətbuat müntəsiblərinin [mətbuatla əlaqəli şəxslərin] əlində...

Yazıq [təəssüf] ki, onlar kəndilərini bizə tanıtmaq üçün pək ağır davranırlar və bizi tanımaq üçün pək gec hərəkət edirlər.

***

Biz, yuxarıda[kı] sözlərimizlə orada bizim üçün çarpan ürəklərin bulunmadığına hökm etməyiriz. Yalnız əlimizə düşən qəzetə və məcmuələrdən orada pək əski bir sualın hələ də təkrar olunduğunu anladıq:

Millətə doğru gedəlim!
Salonu nasıl buraxalım?

İstanbul bu sualın üzərində münaqişəyə tutuşmuş ikən, pək yaxından bəri meydana çıxan "Yeni gün" qəzetəsi çıxdığı gündən tanışmaq ehtiyacını açıq duydu və kəndisinin mühərrirləri arasından ən istedadlı birisini seçib bizə göndərdi. O zat da yuxarıda adlarını yazdığımız Ruşən Əşrəf bəydir. Ruşən Əşrəf bir mühərrir olduğu kimi, gənc türk ədəbiyyatının da əhatəli bir ədibidir. Mənsub bulunduğu qəzetəyə həvadis [xəbərlər] verməklə bərabər, Azəri ədəbiyyatını da tətəbbö [tədqiq] etmək üçün bütün Azərbaycanı və Şimali Qafqazı dolaşacaqdır. Bizim onlarla mülaqatımız [söhbətimiz] bu uğurda müvəffəq olacaqlarına qənaət verdi. Ruşən Əşrəf, öyrəndiyi milləti ürəkdən sevir. Onun səlis qələminin ifadəsi bulunan iki kitabını oxuya bildik. Böylə gözəl bir qələmə, saf bir ürəyə malik olan məsləkdaşımızın bu xeyirli məqsəd üçün müvəffəq olmasını təmənna etməklə bərabər, müşarünileyhin [adı çəkilən şəxsin] birinci türk mühərriri olaraq müstəqil Azərbaycana təşrifindən dolayı ürəkdən "xoş gəldin" söyləyiriz.

*Cavad*

### ƏRZAQ

Necə ki məlumdur, Bakı alınmadan müqəddəm [əvvəl] burada çörəyin girvənkəsi on səkkiz, iyirmi manata satılmaqdaydı. Bakı qəhrəman türk qoşunları tərəfindən işğal edildi. Bakıya sərbəst olaraq azuqə gətirib satmaq üçün hər kəsə icazə verildi. Odur ki, Azərbaycanın hər tərəfindən buğda, arpa və qeyri şeylər gətirildi. Çörəyin girvənkəsi dörd manatdan artıq olmaması barəsində hökumət tərəfindən bir əmr sadir oldu [meydana qoyuldu]. Şimdi həman vaxtdan bəri qara çörəyin girvənkəsi dörd manata satılmaqda davam edir.

Azərbaycanın qeyri vilayətlərində çörəyin girvənkəsi bir manatdan iki manatadək olduğu halda, güman etmək olardı ki, Bakıda da get-gedə ucuzlaşar. Çünki taxıl gətirilən yerlərdən Bakıyadək necə hesab edilsə, kirayə [yük daşıma pulu] on manatdan artıq deyil. Bu isə girvənkədə ancaq iyirmi beş qəpik təfavüt [fərq] eylər. Amma Bakıda həman bir ay bundan qabaqkı qiymət, yəni girvənkəyə dörd manat qiyməti davam edib durmaqdadır. Çörəyin keyfiyyəti də təğyir tapmamışdır [dəyişməmişdir]. Həman qara arpa qarışıqlı, torpaqlı, zibilli çörəkdən başqa bazarda yaxşı çörək görünməyir.

Məlum olur ki, bu hala nəzər yetirib islahına çalışan bir Ərzaq İdarəmiz yoxdur. Ərzaq İdarəsi işin içindən birdəfəlik "sərbəstiyiticarət" elan etməklə çıxaraq, bütün ərzaq işlərini yalnız rəqabətə və "insaflı" tacirlərin öhdəsinə buraxmışdır. Doğrudur, ticarətdə qiymətlərin nizama düşməsi, ucuzlaşması və malların xalisləşməsi rəqabət sayəsində hasil olduğu bir həqiqətdir. Fəqət, rəqabətə o vaxt ümid bəsləmək olardı ki, ticarət meydanına çıxarmağa kifayət edəcək miqdarda məta [ticarət malı] olaydı. Mallar aylarla körpülərdə, vağzallarda müştərisiz qalaydı. Yəni, lazımı miqdardan artıq olduğundan, qiyməti ucuzlaşaydı. Ama biz görürüz ki, bu müharibə illərində azuqə kifayətindən ziyadə deyil, hətta ehtiyac miqdarında belə tapılmır. Azərbaycanın bu ilki ziraət statistikası bunu göstərir ki, Azərbaycanın bu il özünə lazım olan miqdarda taxılı olmayıb, xaricdən on milyon pud taxıl gətirmək məcburiyyətindədir. İştə bundan dolayıdır ki, azadə ticarət və rəqabətdən bir şey hasil olmayıb, qiymətlər gündən-günə artır. Gətirilən taxıllar xüsusi şəxslər tərəfindən alınaraq anbarlara vurulub, özləri üçün yaxud ticarət məqsədi ilə saxlanır və bazara çıxarılmır. Digər tərəfdən o tacirlər ki, ətraf mahallardan taxıl alıb gətirirlər, burada böyük qiymətə satmaqla öz ciblərini doldurur və çörəyin ucuzlaşmasına imkan vermirlər. Belə ki, Qarabağda, ya Şəki mahalında buğdanın pudu qırxəlli manat və kirayəsi ən artığı on manat olduğu halda, burada gətirib pudunu yüz qırx manata satırlar. Deməli pudda yetmiş-səksən manat, yəni hər vagonda yetmiş-səksən min manat pul qazanırlar. Bu isə nə kəndlinin cibinə gedir, nə sair əhalinin nəfinə. Yalnız bəzi tacirlərin cibi dolur. Diqqət edilsin: əkinçi on iki ay şiddətli soyuqda, yandırıcı gün qabağında yüz məşəqqətlə taxıl biçib pudunu qırxəlli manata satır. Heç zəhmət çəkməyən bir tacir isə bir həftə içində Bakıya neçə vaqon taxıl gətirərək hər vaqonda yetmişsəksən min manat pul qazanır. Əgər Ərzaq İdarəmiz tacirlərin yaptığı bu muamiləni, yəni gedib ərzağı məhəllindən [yerindən] alıb Bakıya yeritməyi kəndi öhdəsinə götürsəydi, əvvəla tacirlərin qazandıqları paranın bir hissəsi millət xəzinəsinə getmiş olardı. Saniyən [ikincisi] camaat girvənkəsi dörd manata yediyi çörəyi iki manata, bəlkə daha ucuz bir qiymətə yeyərdi. Ərzaq İdarəsinin nəzərdiqqətini bu xüsusa cəlb və bu uğurda lazımı təşəbbüsatda bulunmasını arzu edəriz.

*Oruc*

### NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Srağa gün Rəisi-vükəla [Baş nazir] Fətəli xan Xoyski Almaniya nümayəndəsi fon der Qoltsu ziyarət etmişdir.

"Zaman" qəzetəsinin verdiyi məlumata görə, Azərbaycan maliyyəsini intizama salmaq üçün Osmanlı Bankası idarəsi üzvü Həmid bəy İstanbuldan Bakıya gələcəkdir.

Maliyyə nazirinin məruzəsinə görə Zaqatal nahiyəsi Balakən kəndində ikinci dərəcə, Alazan nəhrində Maqalins mə'bəri [keçidi] yanında üçüncü dərəcə gömrükxana təsis edilməsi qərara alınmışdır. Bundan əlavə, Alazan çayında Qazaxçöl mə'bəri yanında, Mazım çayında Balakəndən on beş verst və Lacadaqdan beş verst məsafədə və Salahlı ilə Poylu stasyonlarında iki gömrükxana qaraqolxanası təsis ediləcəkdir.

Azərbaycanda təbabət işlərinin təzədən təşkil edilməsi layihəsi hökumət tərəfindən təsdiq edilmişdir.

Oktyabrın iyirmi birində vaqe olan hökumət iclasında Bakı Kazyonnı palatasının Azərbaycan palatasına əvəz edilməsi və həmən palata fəaliyyətinin bütün Azərbaycana şamil olunması qərara alınmışdır.

Yenə oktyabrın iyirmi birində vaqe olan hökumət iclasında Daylidinin Litva Hökuməti işlərinin vəkili olmasına icazə verilmişdir.

**Məclisi-Müəssisan seçkiləri**

Oktyabrın iyirmi birində vaqe olan hökumət iclasında Məclisi-Müəssisan seçkiləri qanunu hazırlamaq üçün zeyldəki [aşağıdakı] şəxslərdən ibarət bir komissiya intixab edilmişdir [seçilmişdir]:

Sədr: Səhiyyə və Nafiə naziri Musa Rəfiyev. Üzvlər: Doktor Həsən bəy Ağayev, Qasım Qasımov, A. Leontyeviç, M. Məhərrəmov, Ş. b. Rüstəmbəyov, Q. Ter-Stepanov, Qasım Cəfərov, Y. N. Smirnov, M. Y. Şor, R. b. Axundzadə və Manandyan.

Tezliklə seçki qanunları layihəsi hazırlayıb hökumətə təqdim edilməsi məzkur [adı çəkilən] komissiyaya həvalə edilmişdir.

Maliyyə Nəzarətinin məmurin [məmurlar] heyəti hökumət tərəfindən təsdiq edilmişdir.

**Gömrük vergisinin ləğvi**

Hökumət binagüzarlığı [sərəncamı] ilə şərabdan başqa Azərbaycana gətiriləcək şeylər gömrük vergisindən azad edilmişlərdir.

### BAKI XƏBƏRLƏRİ

Hökumətin axırıncı qətnaməsinə binaən [görə] əhalinin ərzaq cəhətdən təminini hökumət kəndi öhdəsinə götürəcəkdir. Azərbaycan Hökuməti özgə yerdən taxılı mal əvəzinə alacaqdır. Bu təriqlə [yolla] Şəhər İdarəsi ancaq ərzağı əhali arasında paylamaqla kifayət edəcəkdir.

**Ərzaq heyətində**

Ərzaq heyətinin on üç təşrini-əvvəl [oktyabr] iclasında buğdanın məzənnəsini dəyişməyib, lakin çörəyə yeni qiymət təyin edilməsi təhti-qərara alınmışdı [qərarlaşdırılmışdı]. Lakin unçular tərəfindən verilən bəzi məlumat, heyətin nəzərini büsbütün dəyişmişdir.

Unçuların hesabına görə, unun pudu yüz altmış bir manat əlli qəpik olmalıdır. Bunlar; məsələn beş manat buğdanın üyütməyi üçün və on faiz, yəni on dörd manat altmış qəpik də "naməlum xərc" istəyirlər.

Çörəkçilərin hesabına görə, çörəyin girvənkəsi kiçik dükanlarda üç manat əlli qəpik və böyük dükanlarda isə üç manat qırx qəpiyə başa gəlir. Ərzaq heyəti hər iki tərəfin hesablarını namüvafiq görüb qət etmişdir ki, çörək məzənnəsini ləğv etməklə bəlkə çörəyin əsl qiymətini anlaşdırsın.

**150 milyonluq bələdiyyə istiqrazı**

Bakı Bələdiyyə rəisi və Ərzaq şöbəsi naziri imzaları ilə Azərbaycan Hökuməti Şurasına zeyldəki [aşağıdakı] məalda [məzmunda] bir məktub göndərilmişdir:

"Necə ki, Bələdiyyə Şurasının qətnaməsindən anlaşılır, Bakı bələdiyyəsi hökumətdən rica edir ki, şəhər üçün ərzaq ehtiyatı hazırlamaq işini hökumət öz öhdəsinə alsın və hərgah bu xahiş qəbul edilərsə, o zaman bələdiyyə idarəsi yalnız ərzağın təqsimi [bölünməsi] işlərini öz boynuna alacaqdır.

Hökumət ərzaq ehtiyatı almaq işini öz öhdəsinə almaq istəməzsə, o zaman lazım gəlir ki, hökumət bələdiyyə idarəsinə maddi müavinətdə bulunsun və bunun üçün də lazımdır ki:

a) Ərzaq ehtiyatını almaq üçün hökumət bələdiyyə idarəsinə 150 milyon manat borc versin və əgər qənd, çay və ya ki qənd əvəzinə işlənən kişmiş ehtiyatlarını hökumət özü almaq istərsə, o zaman 130 milyon manat pul verməк kifayətdir.

b) Hərgah hökumət 150 milyon rubləni verə bilməzsə, o zaman lazımdır ki, hökumət bu məbləğ müqabilində bələdiyyə idarəsinə neft versin ki, idarə o nefti satıb nəğd paraya döndərsin.

Bələdiyyə idarəsi bunu da hökumətin nəzərinə ərz edir ki, şəhərdə ərzaq mövcudu get-gedə əskilməkdə olduğundan, gərək bu məsələ bilatəxir [təxirə salınmadan] həll edilsin."

---------

Bakıdan 1083 yəhudi qaçqınının Qubaya göndərilməsi üçün Bakı valisi dəmiryolu müdirindən lazımi miqdarda vaqon istəmişdir.

---------

Bir para dəvaları [dərmanları] qayırmaqdan ötrü Aptekçilər İttifaqına qənd buraxılmamışdır. Bu yaxınlarda Bakı üçün göndərilməsi gözləndiyindən, İttifaq, həkimlərə müraciətlə bundan sonra naxoşlara, ələlxüsus uşaqlara şirin dəvalar yazmamalarını xahiş etmək məcburiyyətindədir.

---------

Azərbaycan Müfəttişi-ümumisi Mərkəzi Ev Komitəsinə camaat arasında paylanılmaq üçün külli miqdarda "xüsusi şəhadətnamə" vərəqələri göndərmişdir.

Bu vərəqələrdə hər kəs adını, atasının adını, familiyasını, doğulduğu məkanını, küçənin adını, ev nömrəsini, yaşını, məzhəbini, təbəiyyətini, ailə vəziyyətini və məşğuliyyətini yazıb göstərməlidir. Bu vərəqələrin üzərində sahiblərinin fotoqrafı [fotoşəkli] olub, sabiq pasport əvəzinə işləniləcəkdir.

**İrandan gəlmiş paraxod**

Srağa gün axşam İrandan "Arxangelsk" nam paraxod gəlmişdir. Həmin paraxodla 600-ədək müsəlman, rus və ermənidən ibarət sərnişin gəlmişdir ki, bunlar Bakı faciəsindən sonra İranda yaşayırmışlar.

**Üzeyir bəyin vürudu**

Mart hadisatından [hadisələrindən] sonra İrana getmiş olan məşhur musiqişünas və müsənnif [bəstəkar] Üzeyir bəy Hacıbəyov, dün "Arxangelsk" paraxodu ilə Bakıya gəlmişdir.

**Bələdiyyə Şurasının iclası**

Pəncşənbə [cümə axşamı] günü oktyabrın 24-ündə Bələdiyyə Şurasının iclası olacaqdır. Məhəlli-müzakirəyə qoyulacaq məsail [məsələlər] şu qərar üzrədir:

1) Bələdiyyə Şurasına məruzə;
2) Bələdiyyə İdarəsi indində [yanında] Təftişat Komitəsi təşkili;
3) 19-uncu xəstəxana imarətinin təmiri;
4) Tiraj Komissiyasının intixabı [seçilməsi];
5) Yer işləri;
6) Nəqdiyyə Komissiyasının Bələdiyyə İdarəsi üzvlərinin maaşının artması xüsusunda layihəsi.

**Çörək nırxının ləğvi**

Srağa gün Şəhər İdarəsinin iclasında Ərzaq şöbəsinin sədri Smirnov bir məruzə oxuyaraq, çörək nırxının ləğv edilməsini təklif etmişdir.

Onun dediyinə görə, bazarda çörək çoxaldığından, məzənnədən də aşağı satılır.

Şəhər İdarəsi çörək məzənnəsinin ləğv edilməsini təhti-qərara almışdır.

**Mərkəzi Ev Komitəsində**

Bu yaxında qənd və çay paylanacağından, Mərkəzi Ev Komitəsi məhəllə komitələrinə yazıb, aşağıda yazılan tədbirləri ittixaz etmələrini [həyata keçirmələrini] istəmişdir.

1 Məhəllədəki əhalinin müəyyən [dəqiq] miqdarını Mərkəzi Ev Komitəsinə təqdim etsinlər.

2 Məhəllədəki əhalinin siyahısını tələb edib məhəllə komitəsində saxlasınlar.

3 Verilən siyahılar məhəllərində [yerində] təshih edilsin [yoxlansın].

4 Ev komitələri hər nəfərə 30 qəpik məhəllə komitələrinə verməlidir. Ev komitələri bu pulu öz məxaricinə sərf edərsə, şəhadətnamələr pişnihad [təqdim] edəcəkdir.

**Tapmışam**

Bir balaca bağlama tapmışam. İçində qızıl zənanə [qadınlara məxsus] əşya vardır. Sahibi nişanını desə, ala bilər. Müraciət üçün ünvan: Kamenisti,132. Əhməd Məhəmmədəli oğlu.

**Elan**

Təcrübəli aşpaz yer axtarır.

Ünvan: Spasski və Tserkovnı küçələrin tinində Cəfər Musaxanovun zərgər dükanı.

*218-4/1*

**4 yaşında bir çocuq itmişdir**

Xüsusi nişanları: boz arxalıqlı, açıq rəng tüklü. Çocuğun nərədə olmasını bilən əşxasdan [şəxslərdən] rica olunur ki, işbu ünvana müraciət buyursunlar: Çadrovı caddə, ev nömrə 6, Xançı Qulam oğlu.

**Arvad diş həkimi Moiseyeva-Levin**

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.

Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

*216 25-1*

**Arvad diş həkimi Z. A. Şexter xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi.

Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Müsəlman diş təbibəsi Ayna xanım**

Malakan bağının qarşısında Zeylidsonun kabinəsində hər gün xəstə qəbul və hər növ diş emal və tədavi [müalicə] edir. Zabitan və əfradın [zabitlərin və əsgərlərin] dişləri əhvən şəraitlə [münasib şərtlərlə] tədavi və emal edilir.

*213*

**Diş müalicəxanası**
**S.M. İtkinin süni diş laboratoriyası**

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Morskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

*208*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

### TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Elan***

*"21 təşrin fi sənə 34": Burada tarix rumi təqvimlə verilmişdir. Miladi təqvimlə 21 oktyabr 1918-ci ilə uyğundur.*

***Elan***

*"23-10-34": Qəzetdə bu tarix səhvən "23-10-24" kimi getmişdir. Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 23 oktyabr 1918-ci ilə uyğundur.*

***Elan***

*"23-10-34": Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 23 oktyabr 1918-ci ilə uyğundur.*

***Ordu Qərargahından***

*"21.10.34": Burada il, rumi tarixlə göstərilmişdir (1334-cü il). Miladi tarixlə 21 oktyabr 1918-ci ilə uyğundur.*

***Teleqraf Xəbərləri:***
***Gürcüstan Teleqraf Acentəliyininin...***

*"...qərb cəbhəsində Müttəfiqlərin hücumu davametməkdədir.": Antanta bloku nəzərdə tutulur.*

*"Sakson əsgərləri": O dövrdə Almaniya İmperiyasının tərkibində yer alan Saksoniya Krallığı nəzərdə tutulmuşdur.*

*"Kresi": Fransada "Kresi" adıyla bir çox kommuna vardır. Burada, şimal kommunalarından Kresi-sür-Ser nəzərdə tutulmuşdur.*

*"Holşteyn": Qəzetdə "Qoldşteyn" kimi getmişdir.*

*"nişançı əsgərləri": "Atıcı tabur" nəzərdə tutulur.*

*"Düşmənin şiddətli əks-hücumlarına baxmayaraq, fransız əsgərləri öz mövqelərini əldən verməmişlərdir." Qəzetdə "mövqelərini" əvəzinə "müvəffəqiyyətlərini" getmişdir.*

***Teleqraf xəbərləri:***
***Trablusqərb və Benqazidə türklər***

*"N. R. K.": "Nive Rotter-damşe kurant" qəzeti nəzərdə tutulur.*

***Teleqraf xəbərləri:***
***Hindlilərin teleqrafı***

*"Xidivi-Misir": Osmanlı Dövlətinin idarəsindəki Misir valilərinə "xidiv" deyilirdi. Xidivlik ünvanı atadan oğula keçirdi.*

*"Abbas Hilmi paşa": Burada söhbət, 1892-ci ildə Misir xidivi təyin edilən II Abbas Hilmi paşadan gedir.*

*"İttifaqı-Mürəbbe": (Dördlər İttifaqı) Birinci Dünya müharibəsinin tərəflərindən biri olan Almaniya, Avstriya-Macarıstan, Osmanlı İmperiyası və Bolqarıstandan ibarət Mərkəzi Dövlətlər nəzərdə tutulmuşdur.*

***"Ordunun dastanı" şeiri***
***üçün lüğət***

*müəzzəz: əziz, müqəddəs*
*kəmik: sümük*
*koru: meşəlik*
*ərquvani: ərquvan çiçəyinin rəngi; bənövşəyi ilə qırmızı arasında bir rəng*
*sırtlan: sırtlan, kaftar*
*paçavra: əsgi parçası*
*ıslıq: fit*
*dağıtmaq: saçmaq*
*xətti-istiva: ekvator xətti*
*kəlisə: kilsə*
*paqod: Uzaq Şərq ölkələrinə xas, buddizm, hinduizm və daosizm məbədləri, paqoda*

*Ordunun dastanı*

*"Ağdəniz" (yaxud Akdəniz): Türkiyədə Aralıq dənizinə verilən ad.*

*"Taymis": İngiltərədə, London şəhərinin mərkəzindən keçən Tamis (yaxud Temza) çayı nəzərdə tutulur.*

*"Böyük Turan dühasını parladacaq yeni dünya": Qəzetdə "dühasını" yerinə "duasını" yazılmışdır. Şeirin 1915-ci ildə İstanbulda kitabça şəklində çap edilən variantında bu misra bizim düzəltdiyimiz kimidir. (Bax. Məhməd Əmin, Ordunun dastanı", Mətbəeyi-Əhməd İhsan və şürəkası, [İstanbul], 1331 [1915], səh. 37).*

*"Şu Osmanın sancağı ki...": Osmanlı imperiyasının banisi I Osman nəzərdə tutulur.*

*"Fəqət yarın onun hüma qanadının kölgələri": Qəzetdə "hüma" yerinə "həman" yazılmışdır. Şeirin 1915-ci ildə İstanbulda kitabça şəklində çap edilən variantında bu misra bizim düzəltdiyimiz kimidir. (Bax. Məhməd Əmin, Ordunun dastanı", Mətbəeyi-Əhməd İhsan və şürəkası, [İstanbul], 1331 [1915], səh. 37).*

*"Bu talesiz ellərdə də hürr millətlər yaşayacaq": Qəzetdə "hürr millətlər" yerinə "hörmətlər" yazılmışdır. Şeirin 1915-ci ildə İstanbulda kitabça şəklində çap edilən variantında bu misra bizim düzəltdiyimiz kimidir. (Bax. Məhməd Əmin, Ordunun dastanı", Mətbəeyi-Əhməd İhsan və şürəkası, [İstanbul], 1331 [1915], səh. 38).*

***Ruşən Əşrəf bəy***

*"...mərd xanların mərd ruhu": Burada Gəncə xanı Cavad xan nəzərdə tutulmuşdur.*

*"Nədim": XVIII əsr türk şairlərindən Əhməd Nədim.*

*"Nəfi": XVII əsr türk şairlərindən Ömər Nəfi.*

*"Kamal": XIX əsr türk şairlərindən Namiq Kamal.*

*"Milli ədəbiyyat" cərəyanı: Türkiyədə xüsusilə 1910-1923-cü illərdə özünü göstərən və ədəbiyyatda milliyyətçiliyi ön plana çıxaran cərəyan.*

*"Qızıl Alma" [Kızılelma]: Türk şairi Ziya Gökalpın 1914-cü ildə çap edilən kitabının adıdır.*

*"Altun dastan": Türk şairi Ziya Gökalpın Turan fikrini ələ aldığı məşhur şeiri.*

*"Emin bəy": Türk şairi Məhməd Əmin Yurdaqul.*

*"Cavad": Bu imza Əhməd Cavada məxsusdur.*

***Ərzaq***

*"Oruc": Bu imza Oruc Orucova məxsusdur.*

***Nəzarətlərdə***

*"...Alazan nəhrində Maqalins mə'bəri...": Qəzetin rus dilində olan versiyasında bu xəbərdə "Магалинский паром через реку Алазан" deyilir (bax. "Азербайджан", N-16, 23 oktyabr 1918). Azərbaycan versiyasındakı "Maqalins mə'-bəri" ifadəsinin ruscadan mexaniki surətdə tərcümə edildiyi anlaşılır. Çox güman ki, hal-hazırda Zaqatala rayonu ərazisində, Gürcüstan sərhədi yaxınlığında yerləşən Muğanlı kəndi nəzərdə tutulmuşdur.*

*"Mazım çayında": Qəzetdə səhvən "Mazıl çayında" kimi getmişdir.*

*"Lacadaq": Gürcüstanın Laqodexi rayonu nəzərdə tutulur.*

***Bakı xəbərləri:***
***İrandan gəlmiş paraxod***

*"...bunlar Bakı faciəsindən sonra İranda yaşayırmışlar.": "Bakı hadisələri" deyərkən, Azərbaycanlılara qarşı Mart soyqırımı nəzərdə tutulur.*




# 2022-ci il "Şuşa ili"dir

● Qarabağ Azərbaycandır!

**Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın incisi Şuşa şəhəri tarix boyu çox möhtəşəm tədbirlərin keçirildiyi məkan olub. Bu qədim və əsrarəngiz şəhər Qafqazın konservatoriyası, Azərbaycanın musiqi beşiyi sayılıb. Şuşa yalnız muğam sənətimizin, musiqimizin, poeziyamızın inkişafında özünəməxsus yeri və rolu olan şəhər deyil. Elmin, təhsilin tərəqqisində də Şuşanın, müxtəlif sahələrdə böyük nailiyyətlər əldə etmiş, uğurlar qazanmış şuşalıların adı, şöhrəti var.**



# Şuşada keçirilən tədbirlər dünyaya səs salır

XX əsrin son onilliyinə qədər bu şəhərdə vaxtaşırı yüksəksəviyyəli, yaddaqalan tədbirlər düzənlənib. 1992-ci il mayın 8-də Şuşa Ermənistan silahlı qüvvələrinin işğalına məruz qalıb. Otuz ilə yaxın yağı düşməndən qurtulacağı, ayrılmaz bir hissəsi olduğu Azərbaycana qovuşacağı günü gözləyən Şuşanın sakinlərinin, bütövlükdə xalqımızın arzuları 2020-ci il noyabrın 8-də çin oldu. Müzəffər Azərbaycan Ordusu tərəfindən bu şəhər azad edildi. Ermənistan ordusu yalnız Şuşada deyil, bütün Qarabağda və Şərqi Zəngəzurda biabırçı məğlubiyyətlə üzləşdi, işğalda saxladıqları müddətdə belə onların olmamış, hər zaman yad kimi yaşadıqları Azərbaycan ərazilərini tərk etmək məcburiyyətində qaldılar. O zaman Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bütün azərbaycanlıların adından Şuşaya gözaydınlığı verdi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

Tezliklə işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı və sürətli tikinti-bərpa, quruculuq işlərinə start verildi. Beləliklə, Qarabağın və Şərqi Zəngəzurun tarixində yeni dövr başladı. Otuz ilə yaxın davam edən işğal müddətində erməni vandallarının dağıtdıqları, tarixi görkəmini dəyişməyə çalışdıqları Şuşa da qürur və sevinc dolu çağlarına qədəm qoydu.

Hələ 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad edilməsi münasibətilə xalqa müraciətində demişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək, özünün əvvəlki şöhrətini qaytaracaq.

Prezident İlham Əliyev çıxışlarında erməni təcavüzkarlarının işğalına uğradıqdan sonra Şuşada yarımçıq qalan silsilə beynəlxalq tərbirlərin yenidən keçiriləcəyinin də müjdəsini verir.

Vətən müharibəsindən sonra hər bir azərbaycanlı düşmənin uzun illər vurduğu maddi ziyanın, mənəvi yaraların nə qədər ağır olduğunu daha açıq, aydın gördü. Erməni vandalları yalnız Azərbaycan üçün deyil, bütün bəşəriyyət üçün misilsiz tarixi əhəmiyyətini nəzərə almadan qədim abidələri uçurub dağıtmış, saxtalaşdırmağa çalışmışdılar. İndi Azərbaycan dövləti, Azərbaycan xalqı işğalçı ermənilərin otuz ilə yaxın vurduqları böyük maddi ziyanın və mənəvi zərbələrin nəticələrini aradan qaldırmaqla məşğuldur. Təbii ki, qısa müddətdə həyata keçirilən işlər, reallaşdırılan layihələr azərbaycanlıları sevindirir.

İndi Şuşa başdan-başa quruculuq meydanına çevrilib. Eyni zamanda şəhərdə bir-birindən maraqlı yerli və beynəlxalq səviyyəli tədbirlər keçirilməkdədir.

Pezident İlham Əliyevin sərəncamı ilə 2022-ci ilin ölkəmizdə "Şuşa ili" elan edilməsi də əlamətdar hadisə oldu. Bu münasibətlə ölkəmizdə, eləcə də mədəniyyət paytaxtımız Şuşada silsilə tədbirlər təşkil edilir.

Bu ilin fevralında "Müharibə cinayətləri mədəni irsə qarşı: Qarabağ münaqişəsinin tarixi kontekstində" adlı XI Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Ermənistanın işğalından azad edilmiş Şuşa şəhərində səfərdə olublar. Əvvəlcə onlar Azərbaycanın görkəmli sənətkarları Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri olan Şuşa şəhərinin mərkəzi meydanına gəliblər. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşları Qış Məktəbinin iştirakçılarına şəhər və güllələnmiş heykəllər barədə ətraflı məlumat veriblər. Sonra Qış Məktəbinin iştirakçıları Xurşidbanu Natəvanın evi və Xan qızı bulağı olan ərazi, Bülbülün ev-muzeyi, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Yuxarı Gövhər ağa məscidi, Qazançı kilsəsi ilə tanış olub, Cıdır düzünə gediblər.

Şuşada keçirilən yaddaqalan tədbirlərdən biri də görkəmli müğənni, Azərbaycan vokal məktəbinin banisi, dahi Bülbülün anadan olmasının 125 illiyinə həsr olunan Vokalçıların Bülbül adına VIII Beynəlxalq müsabiqəsi olub. Müsabiqədə Azərbaycan, Rusiya, İsrail, Türkiyə, Monqolustan, Özbəkistan, Ukrayna, Meksika, Qazaxıstan və digər ölkələrdən 100-ə yaxın ifaçı iştirak edib.

"Şuşa ili" çərçivəsində bu ilin 12-14 may tarixlərində keçirilən V Xarıbülbül Beynəlxalq Folklor Festivalı Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Şuşa Şəhəri Dövlət Qoruğu tərəfindən təşkil edilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva festivalın açılışında iştirak ediblər.

Beynəlxalq festivala Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri, eləcə də bir sıra xarici ölkələrdən gələn müxtəlif folklor üslublarının ifaçıları, rəqs kollektivləri çıxış ediblər. İlk dəfə 1989-cu ildə keçirilmiş "Xarıbülbül" festivalı Vətən müharibəsində qazanılmış parlaq zəfərdən sonra - ötən ilin 12-13 may tarixlərində Şuşada Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən təşkil olundu. O zaman "Xarıbülbül" festivalının açılış mərasimində dövlət başçısı "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək", - demişdi.

Ötən il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsinin bir ili tamam oldu. Şuşa Bəyannaməsində iki ölkə arasında tarixin sınaqlarından keçmiş ortaq strateji maraqlara söykənən hərbi-siyasi və təhlükəsizlik məsələsi əksini tapıb. Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Şuşa Bəyannaməsinin imzalanmasından və ratifikasiyasından sonra hüquqi müstəviyə keçdi. Beynəlxalq hüquqa istinad olunmuş Şuşa Bəyannaməsinin həm qlobal, həm də regional əhəmiyyəti olduqca böyükdür.

Bu il iyunun 15-də Bəyannamənin birinci ildönümü münasibətilə Şuşa şəhərində "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev konfransın iştirakçılarına müraciətində bir il əvvəl - 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə dost, qardaş və strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini diqqətə çatdırdı: "Şuşa Bəyannaməsinin Azərbaycan xalqı və dövləti üçün əlamətdar tarix olan 15 İyun Milli Qurtuluş Günündə imzalanmasının və bir il sonra bununla bağlı beynəlxalq konfransın təşkil olunmasının rəmzi xarakteri, mənəvi önəmi də vardır. İki qardaş ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi türk dünyasının parlaq şəxsiyyətləri - "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deyən Mustafa Kamal Atatürkün və "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" deyən Heydər Əliyevin irsinə sadiqliyin ifadəsi, gələcək nəsillər üçün örnəkdir".

Artıq beynəlxalq tədbirlərin, musiqi festivallarının, elmi konfransların əsl ünvanına çevrilmiş Şuşada bu il iyulun 22-də Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Milli Mətbuat Günü münasibətilə "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumu keçirilib. Forumda Azərbaycanın media nümayəndələri, ekspertləri və rəsmi şəxslərlə yanaşı, xarici media təmsilçiləri də iştirak ediblər.

Tədbirdə Şuşada təşkil edilən bu forumun gələcəkdə belə beynəlxalq tədbirlərin keçirilməsi üçün möhkəm zəmin yaradacağı diqqətə çatdırılıb.

İyulun 25-29-da respublikamızda keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammiti çərçivəsində Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərini birləşdirən Gənclər Təşkilatı yaradılıb.

Şuşa Akkordu (Şuşa razılaşması) kimi tarixdə qalan Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılmasına dair sənədin qəbulu ilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın adı bu mötəbər qurumun tarixinə yazılıb.

Xatırladaq ki, Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin yaradılması Azərbaycan Prezidentinin təşəbbüsü əsasında Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin yaradılmasından sonra ikinci mühüm təşəbbüsdür. Təşkilatın mənzil-qərargahı Bakıda yerləşəcək. Eyni zamanda üzv dövlətlərin təmsil etdikləri digər bölgələrdə regional ofislər təsis ediləcək. Təşkilata sədrlik qarşıdan gələn üç il müddətinə Azərbaycan nümayəndəsi tərəfindən edilməsi nəzərdə tutulub.

Bu təşkilatın yaradılması Qoşulmama Hərəkatı Gənclər Sammitində iştirak edən üzv dövlətlərin nümayəndələri tərəfindən müsbət qarşılanıb və dəstəklənib. Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərini birləşdirən bu mühüm təşəbbüsə görə Azərbaycan tərəfinə minnətdarlıq ifadə edilib.

Ötən il oktyabrın 4-də Azərbaycanın təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin Qoşulmama Hərəkatı Gənclər Təşkilatına çevrilməsi ilə Hərəkata üzv ölkələrin gənclərini birləşdirən bu təsisat beynəlxalq platformalara daha rahat çıxış imkanı əldə edib.

Qoşulmama Hərəkatı Gənclər Sammiti çərçivəsində Şuşaya səfər edən nümayəndə heyətlərinə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal altında saxlanması, işğal dövründə baş vermiş dağıntılar barədə məlumat verilib. Onlar həmçinin Azərbaycan Hökumətinin həyata keçirdiyi bərpa-yenidənqurma işləri, o cümlədən Şuşa şəhərinin tarixi və memarlıq abidələri ilə tanış olublar.

Vətən müharibəsində torpaqlarımız azad edildikdən, ərazi bütövlüyümüz bərpa olunduqdan sonra həyata keçirilən böyük quruculuq layihələri inzibati, tarixi və mədəni abidələrin bərpası ilə yanaşı, tarixi ərazilərimizdə illərdir keçirilməyən respublika və beynəlxalq səviyyəli tədbirlər Qarabağ və Şərqi Zəngəzur başdan-başa yenidən qurulduqdan sonra da davam edəcək və daha da genişlənəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Musiqi Alətləri Fabriki

# Xoş niyyətin, saf arzuların ünvanı

**Şuşa 250 yaşı olan qədim Azərbaycan şəhəridir. Şuşa strateji əhəmiyyəti olan coğrafi məkan, ərazi vahididir... 250 yaşı olan bir şəhərin vətəndaşları var, orada doğulub boya-başa çatmış insanları var, Şuşa o insanların vətənidir. O insanlar qürurla "Şuşa mənim vətənimdir", deməkdə tam haqlıdırlar. Kimin Şuşa haqqında nə düşündüyünü dəqiq bilməsəm də, düşüncəmizə görə, Şuşa nə adı coğrafi məkan, nə də tariximizin yadigarı olan adi bir şəhərdir... Şuşa rəmzdir. Uca şiş qayaları əzəmətimizin, qürurumuzun rəmzidir. Sərin buz bulaqları duruluğumuzun, şəffaflığımızın, təmiz havası saflığımızın rəmzidir. Gülündə, çiçəyində, adicə otunda, çəmənində bir məna var Şuşanın. Dillərdə dastan olan xarıbülbülü sədaqət rəmzidir... Bir də ki 44 günlük Vətən müharibəsində qazandığımız böyük qələbənin, vətən sevgisinin rəmzidir Şuşa. Qəhrəmanlıq tariximizin ən şanlı səhifəsi, ölümün üstünə gedib ölməzlik qazanan oğullarımızın tarix yazdığı müqəddəs məkandır. Xoş niyyətin, saf arzuların ünvanıdır.**



## Şuşa sülh şəhəridir

Bu məqamda çox maraqlı bir məsələyə diqqət çəkmək istəyirəm. 250 il yaşı olan Şuşada bu günə kimi bir silah emalatxanasının, silah istehsal edən sexin olması barədə rəsmi bir məlumata rast gəlməmişik. Şuşadan söz düşərkən bu qədim şəhərin mədəniyyətimizin, musiqimizin beşiyi olduğundan iftixarla danışırıq. Bu şəhərdə tariximizin yadigarı olan yüzlərlə abidə var. Buradan konkret olaraq belə bir nəticəyə gəlmək olur ki, Şuşa yaranışdan sülhün, qardaşlığın şəhəri olub. Ona sığınanlara doğmalıqla qucaq açıb, yer verib. Şuşanın havası kimi insanları da safdır. İnanclıdırlar... Əl açıb üstünə gələni heç vaxt naümid geri qaytarmazlar. Çox təəssüf ki, bir zamanlar yazıq bilib yer verdiklərimiz sonradan ilan kimi zəhərlərini üstümüzə tökdülər. Dost bilib üzlərinə qapı açdıqlarımız üstümüzə düşmən kimi gəldilər...

## Şuşa Şərq Musiqi Alətləri Fabriki regionda yeganə müəssisə idi

Müdriklər deyirlər ki, şəhərlər də insanlar kimidir. Öz talelərini yaşayırlar. Şuşa da öz taleyini yaşayırdı. Tarixən buradan dünyaya gözəl səs, xoş səda yayılırdı. Gözəl xanəndələri məclislər yaraşığı idi. Tanınmış korifey sənətkarları dünya musiqi xəzinəsinə, dünya mədəniyyətinə əvəzsiz töhfələr bəxş ediblər. Ən maraqlısı da budur ki, keçmiş SSRİ məkanında yeganə olan və Şərq musiqi alətlərini istehsal edən fabrik də Şuşada yerləşirdi. Tədqiqatçı jurnalist Vasif Quliyev deyir ki, 1962-ci ildən sex kimi fəaliyyət göstərən fabrikdə o zaman tar, saz, kamança, ud, nağara, qaval, qoşanağara istehsal edilirdi. 1972-ci ildən fabrikin istehsal imkanları genişləndiyi üçün Moskvadan, Tbilisidən, Leninqraddan təzə avadanlıqlar alınaraq yeni bina ilə təmin edib, fabrik statusu alır. O zaman Şuşa Şərq Musiqi Alətləri Fabrikində istehsal olunan məhsullar dövlət keyfiyyət nişanı alaraq dünyanın bir sıra ölkələrinə - Hindistana, Qazaxıstana, Özbəkistana, Dağıstana, Gürcüstana və digər ölkələrinə ixrac olunurdu. Fabrikin məhsulları Ümumittifaq və Beynəlxalq sərgilərdə nümayiş olunaraq yüksək mükafatlara layiq görülürdü.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdir. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. 1992-ci ildə erməni vandalları Şuşanı işğal etdikdən sonra Şuşada olan digər tarixi mədəni abidələr kimi, Şuşa Musiqi Alətləri Fabrikini də dağıdaraq viran qoydular. Şuşa Musiqi Alətləri Fabrikinin taleyinə də qaçqın, köçkün həyatı yaşamaq düşdü. Musiqi mədəniyyətimizin tarixini yaşadan insanlar bu illər ərzində zülm, sitəm gördülər...

## Şuşa musiqi məktəbi

Şuşanın qədim mədəniyyət ocaqlarından bir də Şuşa musiqi məktəbidir. XIX əsrin ikinci yarısında Azərbaycanın bir sıra bölgələrində musiqi məclisləri, dərnəkləri təşkil etmək bir adət halını almışdı. Belə musiqi məclislərindən biri də Azərbaycan mədəniyyətinə böyük korifeylər bəxş etmiş Şuşada o dövrün görkəmli sənətkarlarından olan Xarrat Qulu Yusifi tərəfindən təşkil edilmişdi. Bu məktəbin başlıca məqsədi yeni xanəndələr nəsli yetişdirmək, xanəndəlik sənətini xalq arasında geniş yaymaq və klassik Azərbaycan muğamlarını daha da inkişaf etdirmək idi. Musiqişünas Xarrat Qulunun yaratdığı bu məktəb Azərbaycan musiqisinin inkişafında müstəsna rol oynamışdır.

XIX əsrin ikinci yarısında Şuşada muğam aşiqi Kor Xəlifə musiqi məktəbi açır. O, tələbələrə muğam oxumağı, tarda və kamançada çalmağı öyrədirdi.

XX əsrin əvvəllərində Şuşanı Qafqazın konservatoriyası, Azərbaycanın musiqi beşiyi adlandırırdılar. Bu sənət məbədində yetişib gözəl səsi, xoş avazı ilə Azərbaycanı bütün Şərqdə, Avropanın bir sıra ölkələrində tanıdıb təmsil edən böyük şöhrət qazanmış görkəmli sənətkarlar nəsli yetişməyə başladı. Şuşada elmin, mədəniyyətin və incəsənətin sürətli inkişafı üçün geniş imkanlar yarandı. Azərbaycan vokal sənətinin banisi, dünyaşöhrətli görkəmli müğənni Bülbülün təşəbbüsü ilə Azərbaycan SSR Xalq Maarif Komissarlığının 10 oktyabr 1932-ci il tarixli qərarına əsasən, Şuşa Musiqi Məktəbi yaradıldı. Onu da qeyd edək ki, bu, həm də Azərbaycanda yaradılan ilk uşaq musiqi məktəbi idi. Məktəb Xurşidbanu Natəvanın evi olmuş binada fəaliyyətə başlamışdır. Bu təhsil ocağında tar, kamança, fortepiano, skripka və vokal şöbələri fəaliyyət göstərirdi. Musiqi məktəbi tez bir zamanda Şuşanın mədəniyyət və incəsənət mərkəzinə çevrildi. Sonralar bu məktəbin məzunları mədəniyyətimizin və incəsənətimizin ən layiqli təmsilçiləri kimi musiqi mədəniyyətimizin dünyada ən gözəl təbliğatçısı oldular.

Əməlləri "dağıtmaq", "viran qoymaq", "xarabazarlığa çevirmək" ifadələri ilə eynilik təşkil edən ermənilər Şuşamızı işğal etməklə bu musiqi beşiyini də viran qoydular...

Lakin zaman ən gözəl həkim, ən ədalətli hakimdir. Gec-tez öz ədalətli hökmünü verir. Ədalətli qərar isə 2020-ci il sentyabrın 27-də verildi. Azğınlığa, vandalizmə, qeyri-insani davranışlara və özbaşınalığa son qoymaq məqsədilə bir olan xalqın qəzəbi yumruğa döndü... 8 noyabrda həsrətin, sevginin, xoş arzuların, niyyətin və mədəniyyətimizin paytaxtı Şuşa qəhrəman oğullarımızın şücaəti, Müzəffər Ali Baş Komandanın qətiyyəti ilə düşməndən azad edildi.

## Şuşanın yeni həyatı

Tariximizin böyük qələbəsindən sonra Şuşa yeni həyatına başladı. Qısa bir zamanda Şuşada tarixi abidələrimizin, dini ocaqlarımızın yenidən bərpa edilməsi prosesi başlandı. Gözüyaşlı, sinəsi dağlı Şuşa da dirildi, canlandı. Öz gözəl keçmişinə baxıb uğurlu gələcəyə doğru inamlı addımlarla irəliləməyə başladı. Namərdlik yağıya qaldı. Düşmənin dağıdıb viran qoyduqlarına bu gün yenidən əbədi həyat verilir. Nə xoş ki, Şuşa Musiqi Alətləri Fabriki, Şuşa musiqi məktəbi də yenidən daha gözəl formada qurularaq uğurla yolunu davam etdirməyə hazırlaşır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Mİneral su mənbələri

# Müalicəvi bulaqlar şairlərin poetik misralarında da yer alıb

**Qədim Şuşanın təbii gözəlliyinə, gəzməli, görməli, süfrə açıb istirahət etməli yerlərinə çalar qatan bulaqları sırasında məşhur Turşsu və Qotur bulağının da öz yeri var. Həmin bulaqlar şairlərin poetik misralarına, bəstəkarların qanadlı nəğmələrinə çevrilib, xatirə ünvanı və müalicəvi əhəmiyyəti ilə həmişə insanların yaddaşında yaşayır.**





Xatırladaq ki, mineral su mənbəyi olan Turşsu Şuşa şəhərindən 17 kilometr cənub-qərbdə, Zarıslı çayının dərəsində 1700 metr hündürlükdə çıxır. Suyu faydalı mikroelementlərlə, əsasən, karbon qazı, hidrogen-karbonat, maqnezium, natruim, kalsiumla zəngindir. Minerallaşma dərəcəsi 2,4 qr/l, temperaturu 5-10 dərəcə C-dir. Suyu içilir, vanna edilir, mədə-bağırsaq, öd kisəsi yuyulur və s. Burada ürək-damar, qanazlığı, qaraciyər, öd yolları, öd kisəsi və böyrək xəstəliklərindən əziyyət çəkənlər müalicə olunurlar.

Təbii dərman, əvəzsiz mineral su olan şəfalı Turşsu, eyni zamanda bir çox başqa xəstəlikləri də müalicə edir. Orqanizmdə maddələr mübadiləsi pozulmalarını nizama salır, daxili orqanların xəstəliklərinə qarşı profilaktik təsir göstərir. Müalicəvi əhəmiyyətinə görə Şırlan mineral suyu da çox dəyərlidir. Şırlan mineral suyu Şuşa şəhərindən 18 kilometr qərbdə Sarıbaba dağının ətəyində çıxan üç bulağın ümumi adıdır. Mənbələrin məlumatına görə, karbonatlıdır. Temperaturunun aşağı olması və tərkibində maqneziumlu komponentlərin çoxluğu ilə seçilir. Şırlan suyundan əsasən, mədə-bağırsaq, qanazlığı, maddələr mübadiləsinin pozulması və s. xəstəliklərin müalicəsində istifadə olunur.

Hələ sovetlər dönəmindən dünyada ən uzun mineral su kəməri kimi tanınan Narzan tipli Şırlan suyunun 32 kilometrlik məsafədən şəhərə çəkilməsi Şuşanın kurort şəhəri kimi şöhrətini daha uzaqlara yaymışdı. Gündə 342 min litr su verən Turşsu pavilyon qalereyası bu diyarın kurortoloji əhəmiyyətini artırmış, onu dağ-iqlim kurortu səviyyəsindən çıxararaq balneoloji kurorta çevirmişdi.

Turşu yaxınlığındakı narzan tipli böyük mineral su mənbəyi olan Dəmir bulağın suyu isə qazlıdır. Qazlılıq etibarı ilə Narzandan daha yüksəkdir, bəzən onu "Azərbaycan Narzanı" da adlandırırlar. Bu suda dəmir qarışığı olduğundan "Dəmir su" adlandırılıb. Qanazlığına və dəri xəstəliyinə tutulanlara bu su ilə edilən müalicə gözəl nəticələr verir.

Şuşanın adı dillər əzbəri olan Qotur bulağı da həyat üçün çox gərəklidir. İlin bütün fəsillərində soyuq və duru olan bulağın suyunun müalicəvi əhəmiyyəti hamını, xüsusilə müalicə-sağlamlıq baxımından bir çox insanları təkrar bu yerlərə çəkir. Tərkibi minerallarla zəngin olan Qotur bulağın suyu bədəndəki qoturu, dəmrovu, ləkələri müxtəlif yaraları sağaldır, duzlaşmanı aradan qaldırır. Qotur xəstəliyinin dərmanı olduğuna görə ona bu ad verilib. Şuşa həbsxanasından aşağıda Daşaltı çayının kənarında çıxan Qotur bulağı sal bir qayanı yararaq dörd metr hündürlükdən əlvan çınqıllığın içinə tökülür, gümüş cığır yaradaraq qıvrıla-qıvrıla axıb gedir. Yay aylarında bulağın suyundan içməyə gələnlər yaxınlığındakı bağda günəşə çətir tutan nəng ağacların kölgəsində dincəlməkdən zövq alırlar.

İnsanları sevindirən odur ki, Müzəffər Ali Baş Komandanın uzaqgörən siyasəti və Milli Ordumuzun qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsində əldə olunan tarixi zəfər ilə bu yerlər erməni işğalından azad edilib, xalqımızın 30 ilə yaxın ayrılığına, həsrətinə son qoyulub. Dövlət başçısının diqqət və qayğısı ilə əhatə olunan Qarabağda, o cümlədən Şuşada həyat əvvəlkindən də yaxşı öz axarına düşür. Bu qayıdışda həm də görünən odur ki, Şuşanın təbii gözəlliyinə çalar qatan müalicə əhəmiyyətli bu bulaqlar qısa vaxtda möhtəşəm turizm marşrutlarına çevriləcək.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*



# 7 körpü, tunel, 30 yeraltı keçid

## Zəfər yolundan sonra mədəniyyət paytaxtımıza gedən Əhmədbəyli-Füzuli-Şuşa yolunun tikintisi sürətlə davam etdirilir

Şanlı zəfərimizlə bitən Vətən müharibəsindən ötən 1 il 9 ay ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında böyük tikinti-quruculuq işləri həyata keçirilməkdədir. Əlbəttə ki, bu ərazilərdə hərəkətin tənzimlənməsi üçün ilk növbədə, yolların yenidən qurulması, körpü və tunellərin tikintisi xüsusi əhəmiyyət daşıyır. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit-logistik baxımdan yolların inşası təxirə salınmadan həyata keçirilir.





Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların təməlini qoyur və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir. Hazırda dövlət büdcəsindən ayrılmış vəsait hesabına işğaldan azad edilmiş ərazilərimizdə 14 avtomobil yolunun tikinti işləri davam edir.

### Laçından yan keçən yol hazırdı, bu il daha 7 yolun tikinti işləri yekunlaşdırılacaq

Tikintisi cəmi bir ilə həyata keçirilən Zəfər yolu ilə indi ölkə vətəndaşları, xarici qonaqlar Şuşaya rahat səfər edə bilirlər.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir.

Bu layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, o, ilk növbədə, öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksəksəviyyəli həyat və yaşayış standartının yaradılmasına xidmət edir.



Hazırda azad edilmiş ərazilərimizdə inşa edilən 14 avtomobil yolunun 8-nin tikinti işlərinin bu il başa çatdırılması gözlənilir. Avqustun 11-də mühüm yollardan biri sayılan Laçından yan keçən avtomobil yolunda tikinti işlərinin yekunlaşdığı barədə məlumat verilib. Tikinti işləri davam edən 7 yolun - Füzuli - Hadrut, Hadrut-Tuğ-Azıx mağarası, Bərdə-Ağdam, Qubadlı-Eyvazlı, Qubadlı-Mahmudlu-Yazdüzü-Ermənistan sərhədi, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan, Kəlbəcər və Laçın rayonları ərazisində reallaşdırılan layihələrin son mərhələsi icra edilir.

İnşa edilməkdə olan daha 7 yol - Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl- Hadrut, Ağdam-Füzuli, Əhmədbəyli-Füzuli-Şuşa, Əhmədbəyli-Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Kəlbəcər-Laçın və Toğanalı-Kəlbəcər-İstisu yol layihələrinin növbəti illərdə yekunlaşacağı bildirilir.

### Dörd rayonu birləşdirməklə Şuşaya aparan ikinci yol

Qələbəmizin simvolu olan Şuşaya ikinci alternativ yol da çəkilir. Zəfər yolu ilə yanaşı, mədəniyyət paytaxtımıza Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu da çəkilir.

Prezident İlham Əliyev tərəfindən ötən il yanvarın 14-də təməli qoyulan bu yolun əhəmiyyətini dəyərləndirərkən dövlət başçısı vurğulayıb ki, Əhmədbəylidən Şuşaya olan məsafə o qədər də böyük deyil. Xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində bu yolla Şuşa şəhərinə gedə biləcəklər.





İlham Əliyev keçən il iyunun 14-də bu yolda aparılan tikinti işləri ilə tanış olub və yolun Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməlini qoyub.

Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,6 km uzunluğa malik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir.

Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı məlumatda bildirilir ki, bu yol birinci texniki dərəcəyə uyğun olaraq 4-6 hərəkət zolaqlı olmaqla inşa edilir. Belə ki, yolun ilk 48 km-i 6, 48-81,6 km arası isə 4 hərəkət zolağından ibarətdir. Müvafiq olaraq yol yatağının eni 29,5 və 21,5 metr təşkil edir.

Yolboyu 137 müxtəlif diametrli suötürücü boru, 30 yeraltı keçid, 7 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Tunellər şərti olaraq T1A (3 303 m), T1 (351.5 m), T2 (550 m), T3 (681.5 m), T4 (570 m), T5 (478.5 m) və T6 (526 m) adlandırılıb.

Artıq T4, T5 və T6 tunelləri üzrə tikinti işləri son mərhələdə icra edilir. Belə ki, qeyd olunan tunellərdə qazıntı, püskürtmə beton, kəmər betonu, drenaj və kabel boruların inşası işləri tamamlanıb. Hazırda tunel daxili, həmçinin tunellərin giriş və çıxış yollarında yeni asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur. T1, T2 və T3 tunellərində qazıntı, püskürtmə, beton işləri yekunlaşıb. Hazırda tunellərdə daxili drenaj, kabel borularının inşası və kəmər betonlama işləri davam etdirilir.

T1A tunelinin sol istiqaməti üzrə ümumi 1426 metr, sağ istiqaməti üzrə isə ümumi 1604 metr məsafədə qazma və dəmir-beton dəstəkləmə işləri görülüb. Hazırda qeyd olunan işlər digər məsafələrdə davam etdirilir. Layihə üzrə tikintisi nəzərdə tutulmuş 9 viadukun (dərə üzərində inşa edilən körpü) 8-də hazırda inşaat işləri davam etdirilir. Viadukların 3-nün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilir. Qeyd olunan üsulla betonlama işləri yolun 79,7-ci km-də inşa edilən və ortalama uzunluğu 380 m (sol-410 m, sağ-350 m) olan viadukda tamamlanmaq üzrədir. Hazırda bu istiqamətdə viadukda işlər yekunlaşdırma mərhələsindədir.

### Bu yol qovşaqla Zəfər yoluna birləşəcək

Layihə üzrə avtomobil körpülərinin, alt keçidlərinin, suötürücü dairəvi boru və düzbucaqlı monolit boruların tikintisi davam etdirilir. Süni qurğu işlərinin ümumi görülmə faizi 70 faizdən çoxdur. Hazırda yolboyu torpaq işlərinin icrası da davam edir. Belə ki, layihə üzrə genişləndirmə, yamacların kəsilməsi, qazma-dolğu işləri ilə yeni yol yatağının inşası, həmçinin optimal-qırmadaş və qum-çınqıl qarışığından istifadə olunmaqla yol əsasının tikintisi işləri davam edir. Yol əsası hazır olan hissələrdə asfaltlanma işlərinə start verilib.

Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

Göründüyü kimi, artıq əksər yolların tikinti prosesinin böyük hissəsi yekunlaşıb. Əminliklə deyə bilərik ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

İkinci Qarabağ müharibəsindəki şanlı qələbədən sonra yaranan yeni reallıq göz önündədir. Qarşıya qoyulan birnömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır. Tezliklə bu yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Prezidentin yaxın gələcək üçün hədəfi aydındır

## Ölkə iqtisadiyyatını gözlənilən resessiyadan maksimum qorumaq

Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə maraqlı bir məqama toxunaraq xüsusi qeyd etmişdir ki, Azərbaycanın büdcəsi yalnız neftin qiyməti hesabına böyüməmişdir: "...dünyada neftin qiyməti qalxıb, amma, eyni zamanda dünyanın kapital bazarları çöküb, bunu da hər kəs bilməlidir. Bəzən kimsə fikirləşir ki, neftin qiyməti artıb, Azərbaycan daha çox zənginləşib. Bəli, neftin qiyməti artıb, amma bizim ehtiyatlarımız, əsasən, istiqrazlardadır, səhmlərdədir. Açsınlar baxsınlar, dünyanın kapital bazarları necə çöküb... Ancaq biz öz işimizlə, islahatlarla elə işləyirik ki, heç kim bunu hiss etmir".

Dünyanın kapital bazarlarının çökməsinin nə demək olduğunu anlamaq üçün adi bir iqtisadi xəbəri nəzərdən keçirək. "Ötən ayın 16-da cümə axşamı qlobal bazarların çöküşü sürətləndi. Buna səbəb ABŞ Federal Ehtiyat Fondunun (FEF) əsas uçot dərəcəsini birdən-birə 75 baza bəndi yüksəltməyə qərar verməsi oldu. Bu barədə məlumat yayan "Yahoo Finance" bildirir ki, ABŞ-ın ən yaxşı 500 şirkətinin səhmləri üçün göstərici olan S&P 500 indeksi 3 faiz azalmışdır. İndeksin hazırda "ayı bazarı"nda qərar tutması bir neçə ay ərzində kotirovkaların sürətlə azalması deməkdir. ABŞ-ın ən yaxşı 30 şirkətini izləyən Dow Jones sənaye indeksi elə həmin cümə axşamı günü 2,3 faiz geriləmişdi ki, bu da ötən ilin yanvarından bəri ən aşağı səviyyədədir. ABŞ fond bazarının əsas texnoloji indeksi Nasdaq Composite kapitallaşmasını 3,5 faiz itirərək 2020-ci ilin oktyabr ayından bu yana ən aşağı səviyyəyə düşmüşdür. Beləliklə, FEF-nin qərarından sonra bankların monetar siyasətinin gücləndirilməsi fonunda bazar iqtisadi tənəzzüldən ehtiyatlanır. Məsələn, Avropada Stoxx 600 indeksi 2,36 faiz, Asiyada isə FTSE 1,4 faiz ucuzlaşmışdır".

Bu rəqəmlər bizə imkan verir ki, Azərbaycanın inkişaf modelinin üstün tərəflərini görək. Ölkəmizdə aparılan islahatların uğurlu məcraya istiqamətləndirilməsinə iqtisadiyyatın müxətif sahələrinə investisiyaların düşünülmüş tərzdə diversifikasiyası əsas amil kimi təsir edir. İqtisadiyyatın belə mükəmməl diversifikasiyası bir tərəfdən qeyri-neft sektorunda məhsul çeşidinin zənginliyinə səbəb olur, digər tərəfdən makroiqtisadi və maliyyə sabitliyini təmin edir.

Bu yerdə vacib bir məqamı mütləq qeyd etmək lazımdır. Biz həmişə super dövlətlərin sərt təsirindən, kommunikasiyaların azlığından və erməni işğalçılarının tətbiq etdiyi blokadalardan əziyyət çəkmişik. Prezident İlham Əliyevin isə gücü ondadır ki, Azərbaycanda maraqları toqquşan bütün dövlətlərin ambisiyalarını möhtəşəm bir əməkdaşlığa çevirə bilir. Bu hesaba ölkəmiz Şimalla Cənubu, Şərqlə Qərbi birləşdirən nəhəng nəqliyyat qovşağına çevrilmişdir. Dövlət başçısının uzun illər yükdaşımalar sahəsində həyata keçirdiyi strategiya imkan vermişdir ki, Azərbaycan bütün ölkələrlə kommunikativ əlaqələr qursun, hamı üçün əhəmiyyətli və sərfəli tərəfdaşa çevrilsin. Bu barədə Prezident belə demişdir: "Tranzit yüklərin həcmi təxminən 30 faiz artıb. Mən hələ 5 ayın nəticələrini deyirəm, 30 faiz artım çox böyük artımdır. Bəzi istiqamətlər üzrə, xüsusilə "Şimal-Qərb" nəqliyyat dəhlizi üzrə artım 300 faizdir. Bizim coğrafi yerləşməyimiz və yaradılmış infrastruktur əlbəttə imkan verir ki, biz çox önəmli tranzit ölkəsinə çevrilək. Onsuz da Azərbaycan üzərindən tranzit yüklərin daşınması hər il artır, amma bu il biz daha kəskin artım görürük. Əlbəttə, burada Zəngəzur dəhlizinin imkanları da nəzərə alınmalıdır. Ona görə biz Zəngəzur dəhlizinin yaradılmasına daha sürətlə çalışırıq".

Şübhəsiz, qoyulan investisiyaların əhəmiyyətli hissəsi neft-qaz sektoruna yönəldilir. Dünya bazarlarında enerji qiymətlərinin artımı, enerji sektorunun cəlbediciliyinin davam etməsi və Azərbaycanda neft-qaz strategiyasına olan etimad sözügedən sektora sərmayə qoyuluşunu artırır. Buna baxmayaraq, qeyri-neft sektorunda aparılan islahatlara yatırılan vəsaitlərin məbləği də az deyil. Üstəlik, ölkəmizdə qeyri neft-qaz sektoruna qoyulan daxili və xarici investisiyalar bir sıra hallarda idxalın artmasına da səbəb olur. Yəni istehsalyönümlü investisiyalar, müəssisə tikintisi, habelə neft-qaz sektorunda həyata keçirilən icraatların bir çox hissəsi maşın-avadanlıq və malların idxalı hesabına formalaşır.

Bütün bunlarla birlikdə dövlət başçısı iqtisadiyyatın inkişafına mane olan kölgə iqtisadiyyatına qarşı mübarizədə müsbət nəticələrə nail olmağın zəruriliyini də qeyd edir: "Kölgə iqtisadiyyatı, əlbəttə, hər ölkədə var, əsas məsələ onun həcmidir, dövlətin, hökumətin buna münasibətidir. Dövlətin və hökumətin buna münasibəti belədir ki, bu, Azərbaycanda olmamalıdır və bizim əlimizdədir ki, bu, olmasın". İlham Əliyev belə hesab edir ki, texnologiyalar inkişaf etdikcə yeni nəzarət imkanları yaranır. İnstitusional tədbirlər - dövlət nəzarəti, ictimai nəzarət və kadrların düzgün seçilməsi kölgə iqtisadiyyatının qarşısını alır.

Dövlət başçısı neftin qiymətinin artmasına da fərqli baxış sərgiləyir: "Mən artıq qeyd etdim, biz hamımız yadda saxlamalıyıq, çox güman ki, dünya iqtisadiyyatında tənəzzül, yəni resessiya qaçılmazdır və buna hazır olmaq lazımdır. Resessiya, əlbəttə, əgər baş verərsə, ilk növbədə neftin qiymətinə mənfi təsir göstərəcək. Ona görə gələn ilin büdcəsində neftin qiyməti düzgün seçilməlidir. Biz bu barədə hələ danışacağıq, vaxta var. Amma biz dünyada gedən prosesləri əlbəttə ki, izləməliyik. Çünki Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır".

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*

# REGİONLAR



## Hər ay Ağdam RİH-də Qazilər günü olacaq

Ağdam Rayon İcra Hakimiyyətində bir qrup qazi ilə görüş keçirilib. Görüşdə rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov qaziləri salamlayaraq Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfərdən bəhs edib.

Vaqif Həsənov şanlı tarix yazan igidlərimizin qəhrəmanlığından, əsgər və zabitlərimizin rəşadətindən danışaraq əldə olunan uğurları Prezident-xalq birliyinin şərtləndirdiyini xüsusi vurğulayıb. Görüşdə qazilərin səhhəti və qayğıları ilə maraqlanan RİH-in başçısı onların daim diqqətdə saxlanıldıqlarını qeyd edib.

V.Həsənov Ağdam rayonunun Xıdırlı kəndindən məcburi köçkün, hazırda Bakıda məskunlaşmış Birinci Qarabağ müharibəsinin II qrup əlili Rzayev Tahir Yelmar oğlunun ötən ay yanmış evinin təcili təmir olunmasını Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə razılaşdırıldığını diqqətə çatdırıb.

O, həmçinin növbəti aydan etibarən hər ayın ikinci həftəsinin ikinci günü Ağdam Rayon İcra Hakimiyyətində Qazilər günü olacağını bildirib.

***L.QULİYEV,***
***"Azərbaycan"***

## İnzibati rayon kimi yaşı 92 olsa da...




Tovuzun inzibati rayon kimi yaradılmasından 92 il ötür. Bu illər ərzində rayon müasir, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl diyara çevrilmişdir.

Şərəfli keçmişə malik və babaların hünərinə şahidlik etmiş qədim Tovuz əzəli yurd yerlərimizdəndir. Yaşı 8 min ildən çox olan Göytəpə arxeoloji abidə tariximizin ululuğundan xəbər verir. Beynəlxalq səviyyədə elmi cəhətdən təsdiq olunmuşdur ki, Tovuzdakı bu protoşəhər Qafqazda ən qədim nümunələrdəndir.

Tovuzlular bu torpağın qəhrəmanlıq tarixini həmişə uca tutmuşlar. Rayonda gənclərin vətənpərvərlik tərbiyəsinə həmişə həssaslıqla yanaşılmışdır. Səmərəsi Qarabağ uğrunda gedən döyüşlərdə bir daha özünü göstərmişdir. 2020-ci ilin iyul ayının 12-dən başlayaraq Ermənistan tərəfindən Tovuz rayonu istiqamətində törədilən təxribatların qarşısının alınmasında qüdrətli ordumuzla möhtəşəm birlik nümayiş etdirən tovuzlular bu dəfə də tarixin sınağından alnıaçıq, üzüağ çıxmışlar.

Ötən 92 ildə Tovuz rayonu sürətli inkişaf yolu keçmişdir. Həmin yolun ən şərəfli hissəsi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərə təsadüf edir. Ulu Öndər dəfələrlə Tovuzda olmuş, rayonun hərtərəfli inkişafı üçün əməli tədbirlər görmüşdür. Son illər Tovuza tez-tez səfər edən Prezident İlham Əliyev isə rayonun sosial-iqtisadi inkişafı ilə bağlı 28 sərəncam imzalamışdır.

Tovuz gündən-günə inkişaf edir, rayonda yeni-yeni layihələr icra olunur, genişmiqyaslı tikinti-quruculuq və abadlıq işləri həyata keçirilir, əhalinin güzəranı durmadan yaxşılaşır. Odur ki, tovuzlular ölkədə həyata keçirilən siyasi kursu Azərbaycanı xoşbəxt gələcəyə aparan yeganə yol kimi görür və həmişə bu siyasətə sadiq qaldıqlarını nümayiş etdirirlər.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Tərtərdə qəhrəmanlıq ovqatı sönməyib

Zəfər tariximizə çevrilmiş İkinci Qarabağ müharibəsinin yaratdığı xoş ovqat, yüksək əhval hələ də varlığımıza hakimdir. Xalq-ordu birliyinin yenilməz qüdrəti 30 ildən bəri gözlədiyimiz günü gerçəkləşdirdi, "dəmir yumruq" düşmənin başında ildırım kimi çaxdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman əsgərlərimiz, vətən sevdalı igid oğullarımız cənnət Qarabağı erməni işğalçılarının caynağından xilas etdilər.





Hə xoş ki, azadlığa qovuşan torpaqlarımız, ər oğulların qanı ilə yaralarına məlhəm qoyulan Vətənimiz indi rahat nəfəs alır. Cənnət Qarabağ buludların arxasından çıxan yaz günəşi kimi yenidən üzə gülür, bu yerin əsl sahiblərinə "gəl-gəl" deyir. Xalqına, vətəninə sonsuz məhəbbətlə bağlı, ömrünün mənasını Azərbaycanın parlaq gələcəyi uğrunda mübarizədə görən Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur indi yenidən qurulur, erməni faşistlərinin misli görünməmiş qəddarlıqla odlara qalayıb viran qoyduqları kəndlər, şəhərlər dirçəlir. Fərəhlidir ki, yeni salınmış "ağıllı kənd" artıq öz sakinlərini qəbul edib. Dövlətin qayğıkeşliyindən qaynaqlanan quruculuq işləri sürətlə davam edir. İşğaldan azad olunmuş ərazilərdə böyük sürətlə müasir tələblərə cavab verən yollar çəkilir, körpülər salınır, tunellər tikilir, yaraşıqlı binalar, evlər inşa olunur, vacib sosial infrastruktur yaradılır.

Bu bir həqiqətdir ki, zəfər bizə hədiyyə edilməyib. Biz onu qanlar, qurbanlar bahasına qazanmışıq. Bu müqəddəs savaşda övladlarımız qəhrəmanlıqla döyüşüb şəhid olmuş, əbədiyyətə qovuşmuşdur. Müharibədən sağlamlığını itirib qazi kimi dönən oğullarımız da var. Bu gün şəhid ailələri, qazilər dövlətin və Prezidentin himayəsi ilə əhatə olunublar. Dövlət başçısı İlham Əliyev əhalinin bu zümrədən olan təbəqəsinə diqqətin onun üçün prioritet olduğunu dəfələrlə bəyan etmişdir.

İkinci Qarabağ savaşında ziyan görən rayonlardan biri də Tərtər olmuşdur. 44 günlük müharibədə rayon mərkəzinə və kəndlərə 16,2 mindən çox qrad, tank, artilleriya mərmisi, qadağan olunmuş 21 raket atılmışdır. Nəticədə rayonun infrastrukturuna, yaşayış evlərinə, sosial obyektlərə, o cümlədən 12 körpələr evi-uşaq bağçasına, 16 ümumtəhsil məktəbinə, ilk peşə ixtisas məktəbinə, Gənclər Mərkəzinə, 10 tibb və 7 mədəniyyət müəssisəsinə, məscidə, inzibati binalara, nəqliyyat vasitələrinə, kənd təsərrüfatına böyük ziyan dəymişdir, xeyli dağıntılar olmuşdur. 60 fərdi yaşayış evi və mənzil, 2 sosial və 6 sahibkarlıq obyekti, 8 nəqliyyat vasitəsi yararsız vəziyyətə düşmüş, 5344 fərdi yaşayış evi və mənzildə təmir-bərpa işlərinə zərurət yaranmışdır. Hazırda dövlətin ayırdığı vəsait hesabına müharibənin həmin fəsadları aradan qaldırılır.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov deyir ki, müharibə təkcə dağıntılar törətməmiş, eyni zamanda mənəvi-psixoloji problemlər də yaratmışdır: "Dağılan evi bərpa etmək, yenidən tikmək mümkündür. Dövlətimizin güclü iqtisadi durumu bunu uğurla qarşılayır. Mənəvi-psixoloji zədələri sağaltmaq isə çox çətindir, xüsusi yanaşma, həssas münasibət, səbir, təmkin, qayğı və diqqət tələb edir. Xüsusi qayğıkeşliyə ehtiyacı olan insanlara, şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sərgilədikləri isti və doğma münasibət bizim üçün, hər bir dövlət məmuru üçün örnək və nümunədir. Rayonda 45 nəfər hərbi, 16 nəfər mülki şəhid ailəsi vardır. Müharibə əlillərinin sayı 48, müharibə iştirakçılarının sayı isə 1554 nəfərdir. Onların hər biri xalqımız üçün hörmət və ehtiramın, sevgi və məhəbbətin, qayğıkeşliyin və diqqətin dəyişməz ünvanıdır. Dövlətimiz də, xalqımız da şanlı zəfər üçün məhz onlara borcludur. Bu şərəfli borcu layiqincə ödəmək üçün Tərtərdə bütün qüvvələr, mövcud imkanlar səfərbərdir. Biz onların qayğılarını öyrənmək, hansısa bir işlərinə yardımçı olmaq üçün qapılarını döyməkdən, ayaqlarına getməkdən qürur duyuruq".

RİH-in başçısından öyrənirik ki, Tərtər şəhərində 7 küçəyə şəhid adı verilib, şəhid ailəsi üzvlərindən 17 nəfər münasib işlə təmin olunub, 4 şəhid ailəsi mənzillə təmin edilib, "Şəhidlər abidə kompleksi" yenidən qurulub, 17 şəhid ailəsi və 15 qazi əkin üçün torpaq sahəsi ilə təmin olunub, 11 şəhid ailəsinə və qaziyə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün yer ayrılıb, 5 şəhid ailəsinə və qaziyə həyətyanı torpaq sahəsi verilib.

Tərtər şəhər sakini şəhid atası Cəmil Hacıyev bizimlə söhbətində əhatə olunduqları qayğıkeşlik və diqqətdən minnətdarlıqla söz açdı:

- Ölüm haqdır, vaxtı çatanda hər kəs bu dünyanı tərk edir. Şəhid olmaq isə insan ömrünü ölümsüzləşdirir. Oğlum Qubad öz qəhrəmanlığı ilə adını canından artıq sevdiyi vətənin tarixinə yazdı. Bu gün onun adını təkcə doğma ailəsi deyil, bütün el-oba ehtiramla yad edir. Bir ata olaraq bu, mənə qürur verir. Dövlətimizin, Prezident İlham Əliyevin şəhid ailələrinə münasibətindən çox razıyıq. Biz övladlarımız şəhid olub deyə kiməsə minnət vurmamalıyıq. Ehtiyac yaranarsa, bu vətənə qurban getməyə hamımız hazır olmalıyıq. Azərbaycan hamımızın vətənidir, onun azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda döyüşmək hər kəs üçün şərəfdir.

Bu günlər Tərtərdə yenidən qələbə ovqatı yaşanır. Ordumuzun erməni təxribatlarına verdiyi tutarlı cavab, uğurla reallaşan "Qisas" əməliyyatı bölgədə yüksək əhvali-ruhiyyə yaradıb. Tərtərlilər öz qəhrəmanlıq ənənələrinə yenə də sadiqdilər. Onlar silaha sarılaraq Ermənistan silahlı quldurlarının tör-töküntülərini ərazilərimizdən qovub çıxarmaq üçün döyüşlərə atılmağa hazırdılar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Əmək yarmarkasında qazilərə və şəhid ailələrinə üstünlük verilir

Sahibkarlığın inkişafına Ağstafa rayonunda da ciddi diqqət yetirilir. Cəlb edilmiş investorlar hesabına rayonda bir neçə özəl müəssisə fəaliyyətə başlamışdır ki, bunun da sayəsində həm rayon iqtisadiyyatı böyümüş, həm də əhalinin məşğulluğu qismən təmin olunmuşdur.

Belə müəssisələrdən biri də "KÜR FRUT" MMC-dir. 2017-ci ildən fəaliyyət göstərən müəssisə qısa vaxt ərzində öz fəaliyyətini xeyli genişləndirmişdir. Düzdür, MMC-nin istehsal etdiyi məhsullar hələlik ölkə daxilində realizə olunur. Ancaq kollektivin əsas məqsədi xarici ölkələrə də çıxmaqdır. Bunun üçün ekoloji cəhətdən təmiz və rəqabətədavamlı müxtəlif növ kənd təsərrüfatı məhsullarının istehsalı üçün hazırlıq işləri görülür. İlk növbədə meyvə bağlarının sahəsi genişləndirilir, əkin sahələrində yeni texnologiyalar tətbiq olunur.

Məlum məsələdir ki, istehsal sahələri genişləndikcə, əlavə işçi qüvvəsinə ehtiyac yaranır. MMC-nin bir neçə gün əvvəl əmək yarmarkası keçirməsinin də səbəbi bu olmuşdur. Qazax-Tovuz Regional Məşğulluq filialının dəstəyi ilə keçirilən yarmarkada "KÜR FRUT" MMC ilə yanaşı, rayonda fəaliyyət göstərən digər idarə və təşkilatlar da iştirak etmişlər. Yarmarka iştirakçıları təklif olunan inzibatçı, aqronom, ofis meneceri, sürücü, budama mütəxəssisi, bağban, anbardar və s. işlərə qəbul olunmuşlar. Bir neçə saat davam edən əmək yarmarkasında şəhid ailələrinin üzvlərinə, qazilərə və müharibə iştirakçılarına üstünlük verilmişdir.

***"Azərbaycan"***



## Vətənə canlarını əsirgəməyənlərə vətən də himayəsini əsirgəmir

Ölkənin bütün şəhər və rayonlarında olduğu kimi, Ağstafa rayonunda da şəhid ailələrinə və qazilərə böyük diqqət və qayğıkeşlik göstərilir. Qeyd edək ki, 44 günlük Vətən müharibəsində Ağstafa rayonu 52 şəhid vermişdir. 226 nəfər isə cəbhədən qazi kimi qayıtmışdır.

226 yaralıdan 64-nə əlillik dərəcəsi təyin olunmuşdur və proses davam edir. Əlillik dərəcəsi təyin olunan qazilərdən 1 nəfər 1-ci, 18 nəfər 2-ci, 45 nəfər 3-cü qrupdur. Əlillik dərəcəsi alanlar ev növbəsinə götürülmüşlər. Qazi Amin Musayev və Nurlan Məmmədov ev və maşınla təmin olunmuşlar. Bundan əlavə, evlərinin təmirə ehtiyacı olan qazilərə tikinti materialları ilə kömək göstərilmişdir. Müalicəyə ehtiyacı olan qazilər isə "YAŞAT" Fondu və Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən xəstəxanalara göndərilmişlər.

Şəhid ailələrinin və qazilərin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində saxlanılır. Qısa vaxt ərzində 108 qazi və Vətən müharibəsi iştirakçısı özünüməşğulluq proqramına cəlb edilmişdir.









Rayonda qazilərə və şəhid ailələrinə xüsusi diqqət olmasının göstəricilərindən biri də icra strukturları rəhbərlərinin mütəmadi olaraq onlarla görüşüb problemlərini və təkliflərini dinləmək və tədbir görməkdir. Sonuncu görüşlərdən biri Ağstafa şəhərindəki Səməd Vurğun parkında keçirilmişdir. Rayon rəhbərliyi çay süfrəsi arxasında qaziləri dinləmiş və onların qaldırdıqları problemlərin həlli üçün aidiyyəti üzrə tapşırıqlar vermişdir. Həmin görüşdən sonra ehtiyacı olan bir neçə qaziyə maddi yardım edilmiş, evini təmir etdirmək istəyənə tikinti materialları verilmiş, iş üçün müraciət edənlər, sağlamlığı işləməyə imkan verməyən qazilərin isə ailə üzvləri işlə təmin olunmuşdur.

Ağstafada da şəhid ailələri dövlətin diqqət və qayğıkeşliyini hiss edir. Rayonda 45 küçəyə və bir neçə məktəbə şəhidlərin adları verilmişdir. Vətən Müharibəsi Qəhrəmanı şəhid Yusifli Azər Nazim oğlunun adı verilmiş küçədə onun barelyefi qoyulmuşdur. Bundan əlavə, yaşadığı Böyük Kəsik kəndindəki məktəbə onun adı verilmiş, məktəbin önündə büstü qoyulmuşdur.

Şəhid ailələrinin işlə təminatı da diqqət mərkəzində saxlanılır. Qısa vaxt ərzində şəhid ailələrinin 33 üzvü işlə təmin olunmuşdur. Bütün idarə, müəssisə və təşkilatlarda uyğun vakant iş yeri olan kimi növbəli şəkildə şəhid ailələrinin üzvləri işlə təmin edilirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

**Replika**

## Bir körpünün min dərdi

Neftçala rayonunun Kürqarabucaq kəndində Kür çayı üzərindəki körpü keçən əsrin 70-ci illərində tikilmişdir. Körpü Salyan-Neftçala magistral şose yolunun təxminən 100 metrliyində yerləşir.

Həmin illər belə bir körpü Neftçala şəhərində də inşa olunmuşdur. İllər boyu bərə ilə çayı keçən Bankə qəsəbəsi və ətraf kəndlərin əhalisi körpülər istifadəyə verildikdən sonra qorxu-ürküdən, əzab-əziyyətdən, vaxt itkisindən azad olmuşlar. Onu da qeyd edək ki, hər iki körpü o dövr Neftçala Rayon Partiya Komitəsinin birinci katibi işləmiş mərhum İbrahim Qurbanovun təşəbbüsü və əzmkarlığı ilə salınmışdır. Bu xeyirxah əmələ görə yerli əhali onun ruhuna hələ də dua edir.

İndi isə keçək mətləbə. Kürqarabucaq kəndindəki körpünün sağ sahilinin girəcəyində təxminən ayyarım əvvəl bir kvadratmetr ölçüdə oyuq açılmışdır. Əlaqədar qurum bundan xəbər tutan kimi körpünün hər iki tərəfində ağırtonlu avtomobillərin və texnikaların hərəkətinə qadağa qoymuş və elə bununla da işini bitmiş hesab etmişdir. Nəticədə Kür çayının Şirvan tayındakı kəndlərin əhalisi çətin vəziyyətə düşmüşdür. O üzdən ki, əraziyə yük avtomobilləri girib-çıxa bilmir. Ən başlıcası isə körpü "MKT-İK" MMC-nin texnikalarının da üzünə bağlıdır. Bunun üçün onlar ya Salyan şəhərindəki, ya da qeyd etdiyimiz Neftçala-Bankədəki körpüdən keçməlidirlər ki, bu da ən azı 40-50 kilometr artıq məsafə, əlavə vaxt, izafi yanacaq, üstəgəl becərmə işlərinin yubanması deməkdir.



Qarşıdan pambıq yığımı gəlir. Belə getsə, həmin ərazidə ağırtonlu pambıqyığan maşınların məhsuldar işləməsi, yəni pambığın vaxtında yığılması üçün yerdəyişməsi (dislokasiyası) müşkül məsələ olacaq. Defaliyasiya aparan, habelə yığılan məhsulun daşınmasında iştirak edəcək texnika da çətinliklə üzləşəcək. Bunları nəzərə alaraq Neftçala Rayon İcra Hakimiyyəti, eləcə də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əlaqədar təşkilatı təcili tədbir görməlidirlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Kənd təsərrüfatı məhsulları istehsalı 3,1 faiz artıb



**Ötən ilin yanvar-iyul ayları ilə müqayisədə cari ilin müvafiq dövründə kənd təsərrüfatı məhsulları istehsalı 3,1, o cümlədən heyvandarlıq məhsulları istehsalı 2,7, bitkiçilik məhsulları istehsalı 3,4 faiz artıb.**

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari il avqust ayının 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 2 milyon 852,8 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 7,3 faiz az dənli və dənli paxlalı bitkilər, 677 min ton (4,1 faiz çox) kartof, 1 milyon 194,4 min ton (0,9 faiz çox) tərəvəz, 388,7 min ton (1,8 faiz çox) bostan məhsulları, 308,9 min ton (5,7 faiz çox) meyvə və giləmeyvə, 7,8 min ton (0,7 faiz çox) üzüm, 621,3 ton (21,9 faiz az) yaşıl çay yarpağı, 2,9 min ton (0,1 faiz çox) günəbaxan və 1,7 min ton (36,3 faiz az) tütün yığılıb.**

# V İslam Həmrəyliyi Oyunları



## İslamiadada qələbə estafeti - Azərbaycanın 33 medalı

V İslam Həmrəyliyi Oyunlarında idmançılarımız daha 8 medala sahibləndilər



Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunları davam edir. Azərbaycan təmsilçiləri İslamiadada 24 idman növündən 22-sində iştirak edir.

56 ölkəni təmsil edən 4200 idmançı 483 dəst medal uğrunda mübarizə aparır.

Dünən yarışların səkkizinci günündə Azərbaycan atletləri 8 idman növündə güclərini sınayıblar.

Yüngül atletika üzrə yarışların uzunluğa tullanma idman növündə Nazim Babayev finala vəsiqə qazansa da, zədə üzündən qələbə uğrunda mübarizəni davam edə bilməyib.

Taekvondo yarışlarında isə Fatimə Məcidova (62 kq), Məhəmməd Məmmədov (74 kq) və Radik İsayev (+87 kq) dayanq üzərinə çıxıblar. Bu idmançılar dünən mükafatçılar sırasında yer almasalar da, ümumilikdə taekvondoçularımız yarışları müxtəlif əyarlı 5 medalla başa vurublar.

Kişi həndbolçulardan ibarət Azərbaycan millisi qrup mərhələsi çərçivəsində İran seçməsi ilə üz-üzə gəlib. Bu görüşdə daha təcrübəli rəqib qələbə əldə edib.

Qadın voleybolçulardan ibarət millimiz isə B qrupunun oyunları çərçivəsində Kamerun millisini sınağa çəkib və ardıcıl 3-cü qələbəsini qazanaraq yarımfinala adlayıb.

23 yaşadək futbolçulardan ibarət milli komandamız da Mərakeş seçməsi ilə oyunda sərfəli nəticə əldə edərək (2:2) yarımfinala vəsiqə qazanıb.

Stend atıcılığının trap növünün qarışıq komanda yarışında Aydan Camalova - Əli Hüseynli cütlüyü mübarizə aparıb və yekunda 4-cü olub.

Yunan-Roma güləşi yarışlarında isə Eldəniz Əzizli (55 kq), Taleh Məmmədov (63 kq), Ülvi Qənizadə (72 kq), Rafiq Hüseynov (82 kq), Arif Niftullayev (97 kq), Elnurə Məmmədova (55 kq) və Elis Manolova (65 kq) döşək üzərinə çıxıblar və ölkəmizə daha 5 medal qazandırıblar.

Ağırlıqqaldırma yarışlarında Tehran Məmmədov (61 kq) və İsa Rüstəmov (67 kq) mübarizə aparıblar və müvafiq olaraq 6-cı və 8-ci yerlərdə qərarlaşıblar.

## Daha 5 güləşçimiz medal daxılımızı zənginləşdirib

### Eldəniz Əzizli və Rafiq Hüseynov İslamiadanın qalıbləridir



Dünən günün birinci yarısında V İslam Həmrəyliyi Oyunlarında Azərbaycanın daha üç güləşçisi bütün görüşlərini qələbə ilə başa vuraraq finala yüksəliblər. Belə ki, Eldəniz Əzizli (55 kq) yarımfinalda qazaxıstanlı Amangali Bekbolatova 3:1, Rafiq Hüseynov (82 kq) türkiyəli Emrah Kuşa 2:1, Elis Manolova (65 kq) isə kamerunlu Berte Emilyeyə 2:1 hesabı ilə qalib gələrək həlledici mərhələyə adlayıblar.

Bundan əvvəl isə yunan-Roma güləşçimiz Ülvi Qənizadə (72 kq) uğurla çıxış edərək finala çıxıb. İdmançımız final uğrunda mübarizədə qırğızıstanlı Bek Konurbayevə 9:0 hesabı ilə qalib gələrək həlledici mərhələyə vəsiqə qazanıb.

Elis Manolova həlledici görüşdə qazaxıstanlı Yelena Şalıqinaya məğlub olaraq İslamiadanı gümüş medalla başa vurub.

Eldəniz Əzizli final görüşündə özbəkistanlı Jasurbek Ortikboyevlə üz-üzə gəlib. Rəqibini 10:1 hesabı ilə məğlub edən güləşçimiz İslamiadanın qalibi olub.

"Əsas gücümü ikinci hissəyə saxlamışdım. Rəqibin parterdə mən heç nə edə bilməyəcəyini bilirdim. Şükürlər olsun ki, arzuma çatdım". Bunu Eldəniz Əzizli jurnalistlərə açıqlamasında deyib. O, gələn ay Serbiyanın paytaxtı Belqradda keçiriləcək dünya çempionatındakı hədəfini də açıqlayıb: "Azərbaycanın yunan-Roma güləşi tarixində 2 qat dünya çempionu yalnız Fərid Mansurovdur. Mən bu sevinci bir dəfə yaşamışam. Məqsədim ikinci dəfə dünya çempionu olmaqdır".

Bu arada Azərbaycanın qadın güləşçisi Elnurə Məmmədova bürünc medal qazanıb. 55 kq çəki dərəcəsində çıxış edən idmançı tunisli Faten Hammamiyə qalib gəlib.

Ülvi Qənizadə isə gümüş medalla kifayətlənib. İdmançımız finalda iranlı Mahmud Rüstəmiyə 8:9 hesabı ilə uduzub və 2-ci yeri tutub.

Azərbaycanın daha bir güləşçisi Rafiq Hüseynov qızıl medal uğrunda qarşılaşmada qırğızıstanlı Kalidin Asikeyevlə görüşüb. Rəqibinə 6:3 hesabı ilə qalib gələn idmançımız fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Beləliklə, Azərbaycan güləşçiləri günü 5 medalla başa vurublar.

Güləşçilərimizin medallar uğrunda çıxışlarını gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibi Azər Əliyev və gənclər və idman nazirinin müavini Mariana Vasileva da izləyiblər.

## Qadın voleybolçularımızdan 3-cü qələbə



Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında növbəti qələbəsini qazanıb.

Eldar Yusubovun rəhbərlik etdiyi komandamız B qrupundakı son qarşılaşmasında Kamerun yığmasına 3:1 (29:31, 25:12, 25:8, 28:26) hesabı ilə qalib gələrək yarımfinala yüksəlib.

Qeyd edək ki, yığmamız qrupda keçirdiyi hər 3 oyunda qələbə qazanıb. Bundan əvvəl voleybolçularımız Seneqal və Əfqanıstan komandalarını eyni hesabla məğlub edib - 3:0.

Konyadan aldığımız son məlumata görə, voleybolçularımız finala gedən yolda, A qrupunu 2-ci pillədə bitirən İran seçməsi ilə qarşılaşacaq. Görüş avqustun 14-də baş tutacaq.

Digər yarımfinal matçında Türkiyə millisi Kamerun yığmasını sınağa çəkəcək.

Final oyunu avqustun 15-də keçiriləcək.

## Azərbaycan futbolçuları yarımfinala vəsiqə əldə edib



Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarının qrup mərhələsində 23 yaşadək futbolçulardan ibarət Azərbaycan millisi son oyununu keçirib. B qrupunda mübarizə aparan komandamız bu qarşılaşmada Mərakeş millisi ilə üz-üzə gəlib. Oyun qollu heç-heçə ilə başa çatıb- 2:2.

Komandamızın qollarını 5-ci dəqiqədə İsmayıl İbrahimli və 49-cu dəqiqədə penaltidən Rüfət Abdullazadə vurublar. Mərakeşlilərdən isə 11-ci dəqiqədə Reda Slim və 90+ 2-ci dəqiqədə Həmzə Reqraqui fərqləniblər. Bu nəticədən sonra millimiz 3 xalla qrupda ikinci yeri tutaraq yarımfinal mərhələsinə vəsiqə qazanıb. Azərbaycan milli komandasının baş məşqçisi Samir Əliyev sonra Mərakeşlə matçdan sonra AFFA-nın rəsmi saytına açıqlamasında deyib ki, son çempion kimi əsas məqsədimiz layiqli mübarizə aparmaq idi. Komandanın hər bir üzvünə həm ilk, həm də ikinci oyunda bütün bacarıqlarını nümayiş etdirdiklərinə görə təşəkkür edirəm. Havanın isti olması, rəqiblə müqayisədə fiziki durumun istənilən səviyyədə olmaması komandanın oyununa təsir göstərib. Birinci hissədə əzmkarlıq nümayiş etdirdik və fasiləyə hesabda üstün yollandıq. Rəqibin oyununu təhlil etmişdik. Bilirdik ki, oyunun gedişində müəyyən boşluqlar buraxacaqlar. Ehtimalımız özünü doğrultdu. Təəssüf ki, imkanlardan tam istifadə edə bilmədik. Epizodları dəyərləndirə bilsəydik, hesab fərqli olardı, yarımfinala heç-heçə ilə yox, qələbə qazanaraq vəsiqə qazanardıq. Əsas odur ki, mərhələni adlayıb yarımfinala vəsiqə qazandıq. Uşaqlar nümayiş etdirdiyi futbolla, əzmkarlıqla, əziyyətləri ilə buna layiq olduqlarını göstərdilər.

Əliyev yarımfinalda Türkiyə millisi ilə qarşılaşmaq ehtimalının böyük olduğunu və növbəti oyunda indiyə qədər meydana çıxmayan futbolçulara da şans verməyi düşündüyünü bildirib.

Yarımfinal oyunu avqustun 14-də Bakı vaxtı ilə saat 18:00-da keçiriləcək.

## Stend atıcılarımız medalın bir addımlığında…

Dünən Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında Qarışıq komandalar arasında stend atıcılığının trap növünün yarışı keçirilib. Azərbaycanı bu yarışda Aydan Camalova və Əli Hüseynli təmsil ediblər.

Stend atıcılarımız bürünc uğrunda görüşdə Mərakeş idmançıları ilə qarşılaşıblar. Təəssüf ki, Əli Hüseynlinin son atəşi hədəfdən kənar olub və atıcılarımız 4-cü yerlə kifayətləniblər.

## Ağırlıqqaldıranlarımızın çıxışları davam edir

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ağırlıqqaldırma üzrə Azərbaycan komandası 10 idmançısı (3 qadın, 7 kişi) ilə təmsil olunub. Dünən yarışda Tehran Məmmədov 61 kiloqram çəki dərəcəsində və İsa Rüstəmov (67 kq) mübarizəyə qoşulublar.

Tehran Məmmədov birdən qaldırma hərəkətində 116 kiloqramı ram edib. Təkanla qaldırmada isə o, 141 kiloqramı başı üzərinə qaldırıb. Toplam 257 kiloqram (116+141) nəticə ilə ağır atletimiz yekun sıralamada 6-cı yeri tutub.

67 kq çəki dərəcəsində mübarizə aparan İsa Rüstəmov isə 8-ci nəticə göstərib.

## Taekvondoçularımız İslamiadanı 5 medalla başa vurublar

Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarının səkkizinci günündə üç taekvondoçumuz dayanq üzərinə çıxıb.



Turnirdə 74 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Məhəmməd Məmmədov ilk görüşündə qabonlu Mussa Amar Sisseye qalib gəlib. Ancaq dörddəbir finalda idmançımız Özbəkistan təmsilçisi Casurbek Casurova məğlub olaraq mübarizəni dayandırıb. Millimizin digər üzvləri Fatimə Məcidova (62 kq) və Radik İsayev (+87 kq) ilk görüşdə məğlub olublar.

Beləliklə, Azərbaycan taekvondoçuları V İslamiadanı 1 qızıl, 2 gümüş və 2 bürünc medalla başa vurublar. Belə ki, Fəridə Əzizova (67 kq) qızıl, Minayə Əkbərova (46 kq), Cavad Ağayev (68 kq) gümüş, Patimat Abakarova (49 kq) və Həşim Məhəmmədov (58 kq) isə bürünc medallara yiyələniblər.

***Hazırladı:***
***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

## Şəhidlərin təltif olunduqları ordenlər ailələrinə təqdim edilib





30 illik vətən həsrətinə, erməni işğalına son qoyulması ilə nəticələnən 44 günlük Vətən müharibəsində abşeronlu gənclər də böyük qəhrəmanlıq nümayiş etdirmişlər. Belə oğullardan biri də şəhid Fərid İlyasovdur.

F.İlyasov Prezident İlham Əliyevin sərancamı ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Abşeron Rayon İcra Hakimiyyətində ordenin ailəsinə təqdimetmə mərasimi keçirilib. Tədbirdə Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinin rəisi, polkovnik Cəfər Rəcəbov, Naxçıvan Muxtar Respublikasının "N" saylı hərbi hissənin zabiti, polkovnik-leytenant İntiqam Ağasıyev, şəhidin babası Əlövsət İbrahimov və anası Bəsirə İlyasova iştirak ediblər. Çıxışlarda bildirilib ki, ordumuzun döyüş meydanında əldə etdiyi şərəfli qələbədə igidlərimizin göstərdiyi şücaətlər danılmazdır. Hazırda işğaldan azad olunan ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Kəndlərimiz, şəhərlərimiz yenidən qurulur və artıq soydaşlarımız öz dədə-baba yurdlarına köçməyə başlayıblar. Həmçinin qeyd olunub ki, ölkəmizdə, o cümlədən Abşeron rayonunda şəhid ailələrinə və qazilərə dövlət səviyyəsində böyük diqqət və qayğıkeşlik göstərilir.

Şəhidin ailəsi adından çıxış edənlər övladlarının Vətən müharibəsində göstərdiyi şücaətə görə ordenlə təltif olunmasından iftixar hissi keçirdiklərini deyiblər və onlara göstərilən diqqətə görə dövlət başçısına minnətdarlıq ediblər.

Sonda orden şəhidin ailəsinə təqdim olunub.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

* * *

Xəbər verildiyi kimi, Prezidentin 25 iyun 2022-ci il tarixli sərəncamı ilə xüsusi təyinatlıların kəşfiyyat komandiri, Şuşa şəhəri ətrafında gedən döyüşlərdə şəhid olan kapitan Mikayıllı Samir Sabir oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ağcabədi rayonunda ordenin şəhidin ailəsinə təqdimat mərasimi keçirilib. Mərasimdə YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun "N" saylı hərbi hissəsinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə komandir müavini, polkovnik-leytenant Cəbrayıl Nəbiyev, hüquq-mühafizə orqanlarının nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağcabədi rayon şöbəsinin məsul işçiləri, Ağcabədi Rayon İcra Hakimiyyətinin əməkdaşları, Salmanbəyli kənd sakinləri, şəhid ailələri, müharibə iştirakçıları, qazilər, bir qrup əsgər və zabitlər iştirak ediblər. Mərasim iştirakçıları öncə şəhid Samir Mikayıllının dünyaya göz açdığı Salmanbəyli kəndində onun adına inşa edilmiş "Şəhid Samir Mikayıllı adına xatirə parkını" ziyarət edib, xatirəsinə ucaldılmış büstün önünə tər çiçəklər düzüblər.

Ağcabədi Rayon İcra Hakimiyyətində davam edən təqdimat mərasimində torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib. Çıxış edənlər şəhid Samir Mikayıllının keçdiyi şərəfli döyüş yolundan, onun Şuşa uğrunda gedən döyüşlərdə göstərdiyi xüsusi qəhrəmanlıqlarından danışıblar.

Sonda polkovnik-leytenant Cəbrayıl Nəbiyev 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenini şəhidin ailəsinə təqdim edib.

*Gündüz SEVİNDİK,*
*Ağcabədi*

## Lənkəranda daha bir şəhidin adına bulaq açılıb



Lənkəranın Velədi kəndində Vətən müharibəsi şəhidi Elməddin Anar oğlu Məmmədlinin xatirəsinə inşa edilən bulağın açılışı olub.

Şəhər rəhbərliyinin, yerli icra strukturlarının, hüquq-mühafizə orqanlarının nümayəndələrinin, kənd sakinləri və şəhidin doğmalarının iştirak etdikləri tədbirdə Vətən müharibəsində lənkəranlı gənclərin də əzmkarlıqla döyüşdüyü diqqətə çatdırılıb. Həmçinin bildirilib ki, şəhid Elməddin Məmmədlinin bulaq xatirə kompleksinin açılışı onun doğum gününə təsadüf edir.



Şəhidin atası Anar Məmmədov ailəsi adından çıxış edərək övladının xatirəsinin əziz tutulmasına görə rayon rəhbərliyinə və bütün kənd əhalisinə minnətdarlığını ifadə edib, dövlətdən hər zaman qayğıkeşlik və diqqət gördüyünü vurğulayıb.

Məktəblilərin ifasında qəhrəmanlarımıza həsr olunan bədii nümunələrin səslənməsindən sonra kənd qəbiristanlığında dəfn olunmuş şəhidin məzarı ziyarət edilib, önünə tər çiçəklər düzülüb, ruhuna dualar oxunub.

Qeyd edək ki, Elməddin Məmmədli ölümündən sonra dövlət başçısının sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

*Ağaddin BABAYEV,*
*"Lənkəran" qəzetinin əməkdaşı*

# Koronavirusun yayılma sürəti böyüyür, coğrafiyası genişlənir

## Dünyada bu virusa yoluxma hallarının sayı 3 faiz artıb

İki ildən çoxdur ki, dünyanı ağuşuna alan COVID-19 və onun müxtəlif təhlükəli ştamları qarşısında dünya acizdir. Əgər 2020-ci ilin əvvəlində Çin, Hindistan və digər ölkələr pandemiya şəraitində səfərlər üçün təhlükəli hesab edilirdilərsə, son aylar bu siyahı tamamilə yenilənib. İndi artıq başqa ölkələr pandemiya dövründə təhlükəli hesab edilirlər. Hələ üstəlik, meymunçiçəyini bura əlavə etsək, bəzi ölkələrdə pandemik və epidemik vəziyyətin nə qədər ağır olduğunu təsəvvür etmək çətin olmaz.

Son bir həftə ərzində 6,9 milyondan çox insan koronavirusa yoluxub, 14,5 mindən çox insan dünyasını dəyişib. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) verdiyi məlumata görə, əvvəlki həftələrlə müqayisədə dünyada yoluxma hallarının sayı 3 faiz artıb, ölüm hallarının sayı isə 9 faiz azalıb.

Statistik göstəricilər sübut edir ki, hazırda COVID-19 baxımından səfər üçün ən təhlükəli ölkə Yaponiyadır. Burada son sutkada 200 minə yaxın insan koronavirusa yoluxub, 300-dən çoxu isə dünyasını dəyişib. Bununla da Yaponiyada koronavirusa yoluxanların sayı 15 milyona, ölənlərin sayı isə 35 minə çatıb.

Artıq uzun müddətdir koronavirusa ümumi yoluxma və ölüm sayına görə dünyada birinci olan ABŞ-da ötən gün 27 min insanda COVID-19 aşkarlanıb. ABŞ hökumətinin meymunçiçəyi ilə əlaqədar fövqəladə vəziyyət elan etdiyini də nəzərə alsaq, vəziyyətin nə qədər ağır olduğunu təsəvvür etmək mümkündür.

İtaliya, Avstraliya, Meksika, İran, Fransa, Macarıstan, Rusiya, Cənubi Koreya, Tayland, Polşa, Rumıniya və Filippin kimi ölkələrdə də vəziyyət olduqca gərgindir.

Koronavirusla mübarizədə hələ də ən təsirli müdafiə üsulu peyvənd hesab edilir. COVID-19-un mutasiyaya uğraması, yeni altnövlərin əmələ gəlməsi peyvəndlərin virusa qarşı effektliyini azaldır. Buna görə mütəxəssislər yeni peyvəndlər üzərində çalışırlar. Rusiyanın Epidemiologiya və Mikrobiologiya Elmi-Tədqiqat Mərkəzinin alimləri "Omikron" ştamı ilə mübarizə üçün yeni peyvənd hazırlayıblar. Məlumata görə, o, orqanizmi yeni mutasiyalardan daha effektiv qorumağa imkan verəcək.

Koronavirus müayinəsi zamanı PZR (polimerazalı zəncirvari reaksiya) və antigen testlərdən istifadə olunur. Hər iki üsulun həssaslığı və spesifikliyi fərqlidir. Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Yavər Hacısoy bildirir ki, xəstədən götürülmüş nümunədə PZR metodu istifadə olunaraq, nuklein turşusu amplifikasiyası yolu ilə koronavirusun RNT-si təyin olunur: "COVID-19 diaqnozunu təsdiqləyici test 3-8 saat ərzində nəticə verən PZR yaxmadır. Antigen testləri bu infeksiyanın təyinində kifayət qədər geniş istifadə olunur".

ÜST bildirir ki, PZR üsulu COVID-19-un təyinində əsas təsdiqedici test hesab olunur. SARS-CoV-2 antigen testi üçün burun-udlaqdan götürülmüş yaxma nümunəsindən istifadə olunur. Mütəxəssis deyir ki, bu müayinə metodunun prinsipi virusun birbaşa hər hansı bir zülalının müəyyən olunmasına əsaslanır: "Götürülmüş nümunədə virusa aid antigen (hissəcik) varsa, istifadə olunan ekspres testin daxilindəki karta hopdurulmuş monoklonal anticisimlər ilə birləşir və pozitiv anlamına gələn rəngli xətt əmələ gətirir. PZR testi üçün isə burun, burun-udlaq, əsnək (orofaringel), ağız suyu və bəlğəm nümunələrinin hər hansı biri istifadə oluna bilər".

Koronavirus ştamları genetik müayinə ilə təyin olunur. Bunun üçün ilkin olaraq götürülmüş nümunədə SARS-CoV-2 PZR testinin nəticəsi pozitiv olmalıdır. Bundan sonra virusun sekvenləşdirmə ilə aminturşu ardıcıllığı və virusun hansı ştama aid olduğu müəyyən edilir. Onu da xüsusilə vurğulamaq lazımdır ki, bu analizlərin aparılması üçün yüksək texnologiyaya sahib xüsusi avadanlığa ehtiyac duyulur.

Pandemiyanın ilk günlərindən ölkəmizdə qəbul edilən qərarlar və ehtiyat tədbirləri sayəsində vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Peyvəndləmə sahəsində də dövlətimiz uğurlu və məqsədyönlü siyasəti ilə bir çox ölkələrə nümunə oldu. Azərbaycan Cənubi Qafqazda peyvəndin tətbiq edildiyi ilk ölkədir.

Ölkəmizdə peyvəndləmə prosesi sürətini azaltmadan bu gün də uğurla davam etdirilir. Statistikaya nəzər yetirdikdə deyə bilərik ki, son həftələr gün ərzində 2 minə yaxın insan peyvənd olunur. İnfeksiyaya yoluxma sayındakı kəskin artım əhalidə narahatlıq doğursa da, Səhiyyə Nazirliyi bildirir ki, vəziyyət nəzarət altındadır.

COVID-19-un yayılmasının qarşısını yalnız məsuliyyətimizi dərk edərək, üzərimizə düşən vəzifələri yerinə yetirərək ala bilərik. Məlumdur ki, virusun yayılmasının əsas yollarından biri hava yolu ilə keçən tənəffüs damcılarıdır. Bu, fiziki məsafə saxlamağın nə üçün vacib olduğunun səbəblərindən biridir. İzdihamlı yerlərdən uzaq durmağa çalışmalıyıq. Buna müvəffəq olmadığımız təqdirdə tibbi maskadan istifadə vacib hesab edilir. Yeri gəlmişkən onu da vurğulamalıyıq ki, tibbi maska ehtiyatımız kifayət qədərdir. Bu ilin yanvar-iyul aylarında Azərbaycanda 17,1 milyon maska istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, hazır məhsul ehtiyatı 6,1 milyon ədəddir.

Tibbi maskadan düzgün istifadə də mühüm amillərdəndir. Tibbi maska ağız və burnu tam örtməlidir. Onların istifadə müddəti isə iki saatdan artıq olmamalıdır. Maskanın ağızla təmasda olan hissəsinə toxunulmamalı, çıxararkən isə iplərinin arxa hissəsindən tutmaq lazımdır. Çıxardıqdan sonra, habelə gün ərzində bir neçə dəfə əllərimizi antiseptiklə dezinfeksiya etməli və ya sabunla yumalıyıq.

Mütəxəssislər koronavirus infeksiyasının qlobal pandemiya olduğunu və virusun geniş yayılma tendensiyasının davam etdiyini nəzərə alaraq, vətəndaşları diqqətli və tədbirli olmağa, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməyə çağırırlar. COVID-19-a yalnız birlikdə qalib gələ bilərik.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
Dənizçi MTK-nın balansında olan yaşayış binalarına santexnika avadanlıqlarının quraşdırılması xidmətlərinin (mal-material və işçilik daxil) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 19 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6226
Sifariş 2215
Qiyməti 40 qəpik